# HƏZRƏT ƏLİ (Ə.) QƏDƏMGAHI ZƏVVARLARIN GÖZÜ İLƏ

**(Buzovna, hicri 1410 - 1430; miladi 1990 - 2010)**

Bakı – "Ozan" – 2011

***Həzrət Əli (ə.) Qədəmgahının mütəvəllisi Hacı Arif Əhməd oğlunun əziz xatirəsinə ithaf olunur.***

***Müəllif.***

***Kitabın tərtibçi-müəllifi:***
**Axund Hacı Soltan Hüseynqulu oğlu Əlizadə**

***Elmi məsləhətçilər:***
**Axund Hacı İlham Səlimov,**
**Hacı Nazim Məmməd oğlu,**
**Hacı Maarif Hacı Arif oğlu**

***Mütərcimlər:***
**Hacı Vasif Hacı Arif oğlu,**
**Tahirə Davud qızı,**
**Gültəkin Yusif qızı**

***Redaktoru:*** **Hacı Arif Buzovnalı**

***Mətni yığdı:*** **Hacı Sara Zair**

**Axund Hacı Soltan Hüseynqulu oğlu Əlizadə. "Həzrət Əli (ə.) qədəmgahı zəvvarların gözü ilə", Bakı, "Ozan", 2011**

*"Həzrət Əli (ə.) qədəmgahı zəvvarların gözü ilə" toplusu Qafqaz Müsəlmanları İdarəsinin qazisi, Buzovna Cümə Məscidinin axundu, Hacı Soltan Hüseynqulu oğlu Əlizadənin sayca 29-cu kitabıdır.*

*Əsərdə Bakının Buzovna kəndində yerləşən müqəddəs Həzrət Əli (ə.) qədəmgahını son iyirmi ildə (1990-2010) ziyarət edən zəvvarların rəyləri, arzu və duaları xronoloji ardıcıllıqla verilmişdir.*

$H\ \dfrac{4702060204\text{-}84}{On\text{-}047\text{-}11} - 2011$

© Axund Hacı Soltan Hüseynqulu oğlu Əlizadə - 2011

**Axund Hacı Soltan**
**Hüseynqulu oğlu Əlizadə**

# HƏZRƏT ƏLİ (Ə.) QƏDƏMGAHLARI*

*(Müqəddimə əvəzi)*

*BİSMİLLAHİR-RƏHMANİR-RƏHİM*

***«Həqiqətən iman gətirib yaxşı işlər görənlər üçün Allah (ürəklərdə) bir sevgi yaradacaqdır (Allah həm özü onları dost tutacaq, həm də onların məhəbbətini möminlərin qəlbinə salacaqdır)».***

*«Məryəm» surəsi, ayə 96*

İki aləmin şahı, bəşəriyyətin pənahı, Allah təbarək və təalanın təyin etdiyi imam Həzrət Əli ibn Əbu Talib (ə.) haqqında bütün yazılanlarla bərabər hələ nə qədər gizli sirrlər qalmaqdadır. O, elə bir dahidir ki, qiyamət gününə qədər onun həm kəlamları, həm onun haqqında buyurulan hədislər öz əksini tapacaq və bəşəriyyəti hidayət edəcəkdir.

Həzrət Əli (ə.)-la bağlı dünyanın müxtəlif nöqtələrində əlamətlər və işarətlər vardır. Bizə məlum olanların ən məşhurlarını müxtəsər şəkildə nəzərdən keçirək. Məlumdur ki, İmam Əli (ə.)-ın bir neçə yerdə, dəqiq desək dörd məkanda məzarı olduğu bəyan edilir. Bu barədə İmam Cəfəri Sadiq (ə.)-ın mötəbər bir hədisi var. Həmin hədisdə deyilir ki, «Həzrət Əli (ə.) vəfat anında oğlu İmam Həsən (ə.)-a buyururdu: «Qəbrimin bilinməməsi üçün 4 yerdə qəbir qazdır. 1-ci Kufə məscidində, 2-ci Rəhbədə, 3-cü Cödötu Hübeyrənin evində, 4-cü Gərayda. Amma İmam Əli (ə.)-ın əsl qəbri Nəcəfül Əşrəfdədir.

Həqiqətən də müxtəlif dövrlərdə yuxarıda göstərilən yerlərdə Əli (ə.)-ın qəbrinin mövcudluğu iddia edilib. Hələ onu da qeyd etməliyik

***Bu ziyarətgahların siyahısı müəllifin «Azərbaycanda Həzrət Əli (ə.) qədəmgahları və ziyarətgahları» əsərində verilib (Red.).**

ki, bu günümüzə qədər Əli (ə.)-ın qəbri kimi iddia edilən başqa bir məkan da vardır. Bu Əfqanıstanın Məzari-Şərif şəhərindəki Əli (ə.) ziyarətgahıdır. Lakin çaşqınlıq yaranmaması üçün bir daha qeyd etməliyik ki, İmam Əli (ə.)-ın mübarək qəbri İraqın Nəcəf şəhərindədir.

İmam Əli (ə.)-ın adı ilə bağlı Əfqanıstanda Samaqan və Hülm adlı iki şəhərin arasında yerləşən, hündürlüyü 300 metrə qədər olan sıldırım qayalar yüksəlir. Burada yolun uzunluğu 600 metrdir, eni 30 metrdən bir qədər azdır. Elə bil bu qayalar düz xətt boyunca insan əli ilə yonulmuşdur. Buranı Zülfüqar keçidi adlandırırlar. Deyilənlərə görə, Həzrət Əli (ə.) öz qılıncı Zülfüqarla bu qayaları çaparaq yol salmışdı.

Əfqanıstanda Bəndi-Əmir (yəni Həzrət Əli (ə.)-ın bəndi) adlı yerdə coşqun bir çay varmış. Onun törətdiyi fəlakətlərin qarşısını ala bilməyən xalq Həzrət Əli (ə.)-ı köməyə çağırmışdır. Həzrət Əli (ə.) nəhəng bir qayanı qaldırıb çayın qabağına atmışdır. Həmin yerdə Bəndi-Aybat gölü və başqa bir qayanı çapıb Zülfüqar gölü yaratmışdır. Əfqanıstanda «Bəndi-Pendir» Pendir gölü və «Bəndi-Pudina» Nanəli göl adlarıdır. Həzrət Əli (ə.) köçəri bir qızdan bir parça ətirli pendir istəmiş, sonra pendiri çaya atmışdır və bu göllər əmələ gəlmişdir. Bu göllər birlikdə «Bəndi-Əmir», yəni Əlinin bəndi adlanır.

Görkəmli Azərbaycan səyyahı Hacı Zeynəlabidin Şirvani (1780-1838)* öz «Bustanus-səyahə» əsərində Əfqanıstanın şəhər və əyalətlərindən söz açarkən həmin ərazidə yerləşən Bənkəş şəhəri haqqında belə yazır: "Bənkəş iki yerin adıdır. Bunlardan birisi kiçik, o birisi böyükdür. Kiçik olan Kəşmirə, böyük olan Kabilə daxildir. Böyük Bənkəşin ərazisi dağlıq, əhalisi əfqan müsəlmanlarıdır. Buna baxmayaraq, vaxt tapıb əhali ilə xeyli söhbət etdim. Maraqlı burasıdır ki, burada bütün kişilərin adlarının axırı Əli adı ilə

***H.Z.Şirvani səyyah, coğrafiyaşünas, tarixçi, etnoqraf, filosof, pedaqoq, ədib və şair olmuş, "Təmkin" təxəllüsü ilə şeirlər yazmışdır. "Riyazüs-səyahə", "Bustanus-səyahə", "Hədayuqus-səyahə", "Bustanul-arifin" və "Kəşfül-maarif" adlı əsərləri vardır.** *Müəllif*

qurtarır. Məsələn: Səfərəli, Heydərəli, Zülfəli və s. Əgər hansı kişinin adının axırında Əli sözü yoxdursa, demək o sünni təriqətinə mənsubdur."

*(Bustanus-səyahə, səh.165).*

Hindistanda «İmam Hüseyn» türbəsi, Abbasabad şəhəri, Allahabad şəhəri, Heydərabad, Əhmədabad şəhərləri, Hindistanda Sərəndib adasındakı dağda «Adəm peyğəmbərin qədəminin izi», Məkkədə Kəbə yaxınlığındakı məşhur «Məqami-İbrahim» adlanan məkanda İbrahim (ə.)-ın izləri, Pakistanda İslamabad şəhəri, Başqırdıstanda Salavat şəhəri (Baş Qafqaz sıra dağlarının suayrıcında, Şin çayı və Dəmiraparan çayının mənbələrində Salavat adlı iki aşırım vardır. Onlar «Qərbi Salavat» və «Şərqi Salavat» adlanırlar). Qahirədə «Rəsül Hüseyn» məscidi, İranın Nişapur şəhərində «İmam Rza» qədəmgahı, Portuqaliyada Fatimə şəhəri, Tacikistanda, Türkiyədə, Konyada «Əli qədəmgahı» və s.

Türkiyənin İstanbul şəhərindəki «Topqapı» muzeyində Həzrət Mühəmməd (ə.) peyğəmbərin ayağının izi («Qədəmi-səadəti») mərmər üzərindədir. «Baxtı» təxəllüsü ilə şeirlər yazan Sultan Əhməd «Qədəmi-səadətin» kiçildilmiş surətini tacında gəzdirirmiş.

İranda, Pakistanda, Ərəbistanda və hətta Misir və Əlcəzairdə də demək olar ki, bir-birindən xeyli məsafədə və müxtəlif ölkələrin ərazisində yerləşən yüzlərlə məkanlar və nişanələr İmam Əli (ə.)-ın adı ilə bağlıdır.

Həmçinin Şeyx Abbas Qumi «İmam Əlinin fəzilətləri» adlı əsərində belə məlumat verir:

«Həzrətin Kufə və Məşhəd məscidinin sütunlarında barmağının izi, Məkkədə Sur dağında böyük bir daşın üzərində qılıncının izi, Təkrit, Musel və sair yerlərdə ayağının izi, Xeybər qalasında bir daşın üzərində və Badiyə dağlarında nizəsinin əsəri çox qədim zamanlardan tanınmışdır».

Bu qısa ekskurs ilə biz Azərbaycanda İmam Əli (ə.)-ın və onun övladlarının adı ilə bağlı yer və abidələrin şərhi üçün giriş etdik. Azərbaycan ərazisi yuxarıda adı qeyd olunan ölkələrlə müqayisədə çox kiçikdir. Amma buna baxmayaraq Azərbaycan Əli (ə.)-la bağlı yer və abidələrin sayına görə digər ölkələrdən heç də geri qalmır və

əksinə, bəlkə daha irəlidədir. Azərbaycanda da müxtəlif abidələr dövründən və memarlıq üslubundan asılı olmayaraq bu və ya digər şəkildə Əli (ə.)-ın və onun övladlarının adı ilə vəhdətdədir.

Əgər Həzrət Əli (ə.)-ın Azərbaycana gəldiyini biz dəqiq dəlillərlə və faktlarla sübut edə bilmiriksə, bir kimsə həmçinin onun Azərbaycana gəlmədiyini dəlil və faktlarla sübut edə bilməz. Amma dolayı faktlarla və məntiqə uyğun hadisələrlə Əli (ə.)-ın Azərbaycana qədəm qoyduğunu isbatlamaq mümkündür. Azərbaycandan Mədinəyə daha uzaq olan Xorasan şəhərinə İmam Rza (ə.) səfər edə bilirsə (qeyd etmək lazımdır ki, imamların daha bir neçəsi Mədinədən kənarda yaşamış və dəfn edilmişdir), imamzadələr Azərbaycana hicrət edib burada məskən etmişsə (Nardaran qəsəbəsində Rəhimə xanım, Bibiheybətdə Həkimə xanım, Bilgəhdə Leyla xanım, Gəncədə İmamzadə İbrahim, Bərdədə İmamzadə İsmayıl və s.) müxtəlif alim və şairlər – Sədi Şirazi, Xətib Təbrizi, Şəms Təbrizi, Xaqani Şirvani, İmadəddin Nəsimi, Nəsrəddin Tusi və digərləri dünya səyahətinə və ya Şərqi səyahətə çıxa biliblərsə, 25 il Xilafətdən kənarda qalan, özünü İslama həsr edən İmam Əli (ə.) ibn Əbu Talib çoxda uzaq olmayan Azərbaycana gələ bilməzdimi? Pakistan, Hindistan ərazisində olduğu iddia edilən Əli (ə.) yol üstü Azərbaycanı nəzərdən məhrum edərdimi? Və ən nəhayət xəritə ilə müşahidə edirik ki, Azərbaycan sıx şiə ərazisinin sərhəddidir. Və Azərbaycan ərazisi Əli adını daşıyan onlarla məqamın yurdudur. Və bu abidələr öz aktuallığını hələ də itirməyib, nəinki itirməyib üstəlik xalqın Məkkəsinə çevrilib. Beş il xəlifə olduğu dövrdə də Ərəb tarixçiləri Əli (ə.)-ın bir neçə uzun müddətli səfərdə olduğunu qeyd etmişlər. Səhabələr arasında və qoşunda azərbaycanlıların olduğu haqqında tarixi məlumatlarda vardır. Unutmaq olmaz ki, eyni zamanda Əli (ə.) İmamdır. Yəni Allahın bəndələr arasından seçdiyi fövqəlbəşərdir. İmam möcüzə sahibidir. İmam bilavasitə yaradan ilə daimi əlaqədə olan şəxsdir. Və Allah qüdrəti ilə dünyanın hər hansı bir nöqtəsinə getmək və hətta eyni vaxtda bir neçə yerdə var olmaq İmam səlahiyyətləri çərçivəsindədir. Bir də insandan möhkəm iman və təqva tələb olunur ki, bu məsələlərdə sabit qədəm olsun.

Ulularımızın tövsiyələrində deyilir:

Bu dünyada nə varsa onun izi də vardır. Bu dünyada nə baş verirsə onun özündən sonra izi də qalır. Bu iz ya pozulur, ya qorunur, ya oxunur, ya öyrədilir, ya silinir və s. Bu izlər görünən və ya görünməyən izlərdir. Müəyyən dövrlərdə bu izlərə qarşı müharibələr elan edilir. Çünki bu izlər vasitəsilə keçmişdəki həqiqətlər bu günə qayıda bilər. Özünü bərpa edər. Elmini, gücünü, hikmətini, ədalətini, haqqını aşkar edə bilər.

Fransız filosofu Didro deyib ki, «İz» «var» olanla «yox» olanın arasında arakəsmədir. Bax bu arakəsmədə bizim tariximiz, mədəniyyətimiz, mənəviyyatımız, əxlaqımız, sifətimiz, simamız burada dayanıb qərar tutur. Bu izin silinməsi bunların yox olması deməkdir.

Həzrət Əli (ə.) dünyanın yaddaşında iz qoyan elə şəxslərdəndir ki, bu şəxslər öz dövrlərində müasir olmayıblar. Həzrət Əli (ə.) dünyanın yaddaşında iz qoyan elə şəxslərdəndir ki, bu şəxslər bütün dövrdə gözlənilləndir. Onların lazımlığı daim duyulur. Onlar daim anılır.

Bir zərbənin hikməti və qüdrəti. Bu zərbəyə qədər zaman və məkan anlayışına daxil olmayan bir məsafə var. Və bu məsafədə insanların haqqa gəlməyi üçün imkan yaradılıbdır.*

Ayətullahül üzma Məkarim Şirazi və Ayətullah Cəfər Sübhaninin «Dini suallara cavablar» əsərində bu mövzulara aydın şəkildə yanaşılır:

3. Doğrudanmı Əli (ə.) Mədinədən Mədainə bir gecədə gəlmişdir?

Sual: Bəzi kitablarda nəql olunur ki, Əmirəlmöminin Əli (ə.) Səlman vəfat etdiyi vaxt bir gecə ərzində Mədinədən Mədainə gəldi. Səlmana Mədaində qüsl verdi, onu dəfn etdi və sübh Mədinəyə qayıtdı. Mədinə ilə Mədain arasındakı uzun məsafəni bir gecədə qət etmək necə mümkün oldu?

Cavab: Hərəkətli cisimlərin eyni sürətdə olmadığını bilirik. Məsələn atlı süvarinin sürəti avtomobil və qatarın sürətindən aşağıdır. Təyyarə isə avtomobil və qatardan daha sürətlidir. Təyyarənin sürəti isə yerin günəş ətrafında hərəkət sürəti ilə

*H.S.Hüseynqulu oğlu. "Həzrət Əli" ə. və Azərbaycan". Bakı, 2006.

müqayisədə çox kiçikdir. Qeyd edək ki, yer günəş ətrafında saniyədə 30 km. Yol gedir. Yerin bu sürəti isə saniyədə 300 min km. Sürətə malik olan işığın sürətindən çox-çox kiçikdir. İşıq bir saniyə ərzində yeri yeddi dəfə dövr edə bilər.

Əlbəttə ki, təyyarə, qatar və avtomobil ixtira edilməmiş insanlar üçün saatda 50-100 km. yol gedilməsi ağlasığmaz bir iş idi. Amma bu qeyri-mümkünlük əqli yox, adi «qeyri-mümkünlükdür».

Gələcəkdə elə cihazlar ixtira oluna bilər ki, onların sürəti elektronun atom mərkəzi ətrafında hərəkətindən daha böyük olar.

Bir halda ki, ağıl böyük sürəti inkar etmir demək, Allah-təala bir insanı bir gecədə Mədinədən Mədainə aparmaq qüdrətinə malikdir. Biz məhz Allah-təalanın qeyri-məhdud qüdrətini əsas götürərək, Həzrət peyğəmbərin merac səfərinin cismani şəkildə baş verdiyini qəbul etmişik.

Qurani-Kərimdə, bizim müqəddəs səmavi kitabımızda elə məsələlər var ki, biz onları yalnız Allahın qüdrətini əsas götürərək qəbul edirik. Səba mələkəsi Bilqeys Süleymanın hüzuruna gəlib çıxmamış Süleyman onun qəlbini Allaha cəzb etmək üçün onu möcüzə ilə qarşılamaq qərarına gəldi. Quranda bu əhvalat belə bəyan olunur: «Süleyman dedi: «Ey əyanlar, onlar yanıma müti vəziyyətdə gəlməmiş hansınız onun taxtını mənə gətirə bilər?» Cinlərdən olan bir ifrit dedi: «Sən yerindən qalxmamış mən onu sənə gətirərəm. Mən bu işi görməyə çox qüvvəli və etibarlıyam». Kitabdan xəbərdar olan birisi dedi: «Mən onu sənə bir göz qırpımında gətirərəm».

Süleyman taxtı yanında hazır durmuş görüb dedi: «Bu Rəbbimin lütfündən və onun mərhəmətindəndir».

Ümumiyyətlə, möcüzələri və kəramətləri təhlil edərkən bəşərə xas maddi miqyaslardan istifadə etmək olmaz. Möcüzə qeyri-adi bir şeydir və Allahın qeyri-məhdud qüdrətindən qaynaqlanır. Uzun məsafənin qısa zamanda qət olunması Allaha yaxın böyük iman sahiblərinə məxsus bir kəramətdir və belə bir səfərlər «Teyyül-ərz» adlanır.

Oxucuların nəzərinə çatdırmalıyıq ki, İmam Əli ə. və sair on bir imamlarımız bu elmi kamil şəkildə biliblər. Bütün böyük təfsir alimləri təsdiq edirlər ki, İmam Əli ə. seyri-süluk, teyyül-ərz, teyyül

məkan, teyyüz-zəman və ismi əzəm kimi digər məxfi elmlərə vaqif olubdur.

Bəli, islamda gizli elmlərin olması şübhəsizdir. Bu elmləri hamıya açmaq olmaz. Yalnız xüsusi məqama çatan möminlər o elmlərə yiyələnə bilərlər. Ayətullah Məkarim Şirazi və Ayətullah Cəfər Sübhaninin qeyd etdiyi kimi Qurani-Kərimin «Nəml» surəsinin 40-cı ayəsində ki Süleyman və Bilqeys əhvalatı bir daha buna bir nümunədir. Həzrət Süleymanın vəziri Asəf ibn Bərxiya bir ismi-əzəm bilir. «O kəsin onun yanında Allahın kitabında yazılan elmlərdən bir qədər (bir az) elm var idi». (Nəml, ayə 39). Bu az elm ilə Asəf ibn Bərxiya Bilqeysin taxtını bir göz qırpımında Yəməndən Şama gətirir. Bu ayeyi-şərifə ilə isbat olunur ki, insan Allahın elmilə zaman və məkan çərçivəsindən çıxa bilər. Lakin İmamın elmi Allahın elminin qüdrəti ilə Asəf ibn Bərxiyanın elmindən daha da böyükdür. Allah təala Quranda buyurur: «Biz kitabı seçdiyimiz bəndələrə miras qoyduq». Bütün təfsirçilər bu ayənin imamlara aid olduğunu təsdiq edirlər. Və yaxud «Rəd» surəsinin 43-cü ayəsindəki «Mən indəhu ilmül kitab»ın (və birdə o kəski, onun yanındadır kitabı bilmək, kitabı bilən) İmam Əli ə-dan ibarət olmasını təsdiq edirlər. Yəni Həzrət Peyğəmbər (s.) buyurur ki, nəinki tək bircə Quranı, Tövratı, İncili oxuyub bilənlər şahid olarlar, mənim peyğəmbərliyimə. «... və bir də o kəs ki, onun yanındadır kitabı bilmək...» İbarətdir İmam Əli ə.-dan ki, o cənab bütün zamanlar da Həzrətin ən yaxını hesab olmuşdur. Təsadüfi deyildir ki, Həzrət Mühəmməd ə. buyurmuşdur ki: «Hər kəs Yusifin gözəlliyinə, İbrahimin səxavətinə, Süleymanın xoş xasiyyətinə və Davudun hikmətinə baxmaq istəyirsə Əliyə baxsın» («Biharül-Ənvar, c.39, s.35).

XVI əsr Azərbaycan şairi mütərcimi Həzininin «Hədisi-Ərbəin» tərcümə əsərindən iqtibas etdiyimiz əhli-beytin fəziləti və İmam Əli (ə.s.) və Fatimeyi-Zəhra (ə.s.) səxavət və ixlaslarının aliliyindən bəhs edən mövzumuzla səsləşən «On birinci» hədisi bu məqamda əziz oxuculara təqdim etməyi özümüzə borc bildik:

## *Əl-HƏDİSÜL-HADİ ƏŞƏR*

Guş qılgil bu hədisi, ey bəşər,
Ərbəindən budurur hadi əşər.
Cəfəri – Sadiq rəvayət eylədi,
Dedi kim, atam hekayət eylədi.
Ol dəxi həm verdi cəddindən xəbər,
Yəni ol, şiri-Xudadən, ey bəşər.
Böylə dedi ol Əmirül möminin,
Ol Əliyyül-Murtəzavü pakdin,
Dedi bir gün Müstəfa qatdan məgər,
Mən evə gəldim, eşit, ey mötəbər.
Fatimə qatinə girdim içəri,
Oturur Salman ilə ol xubru.
Fatiməyə söylədim ol dəm əyan,
Varmıdır yanında yeygü, qıl bəyan.
Fatimə dedi ki, billah, ey hümam,
Yanimizdə yoxdurur hərgiz təam.
Leyk vardır altı dirhəm, ey əmin,
Bil, anı Salman gətürmişdir yəqin.
Yun gətirmişdir əgirməkçün mana,
Ücrətidür bu, anın, ya Murtəza.
Ya Əli, şimdi Həsən, bir də Hüseyn,
Acdurur qayət oliki nuri-eyn.
Dilərəm ki, anlarə yeygü alam
Kim, oların könlini xürrəm qılam.
Pəs Əli dedi ki, ya Xeyrün-nisa,
Axçanı şimdi bərü vergil mana.
Varayam bazarə, bilgil bu zəman,
Anda yeygü alayam mən rəvan.
Fatimə verdi Əliyə axçanı,
Yeygü almağə alub getdi ani.
Gedər ikən yolda gördü bir kişi,
Gör ki, nə dedi, necə oldu işi.

Çağırur, söylər ki, kim ola bu gün,
Qərz verə Tanrıya, ey rəhnəmün.
Kim təsəddüq edə bə eşqi-Xuda,
Yerinə əlli verə Xaliq ana.
Çün Əli eşitdi muni ol zəman,
Verdi ol dirhəmləri ana rəvan.
Ol kişiyə axçanı dabşurdi xoş,
Fatimə qatinə gəldi əli boş.
Fatimə gördi ki, boş gəldi Əli,
Qəmli olub söylədi kim, ya vəli,
Sən əli boş nişə gəldin bu zaman?
Ol Həsən birlə Hüseyn ağlar yaman.
Dedi, ya binti-nəbi, heç yemə qəm,
Həqq-təalaya anı borc vermişəm.
Fatimə eşitdi muni, oldu şad,
Yaxşı varmışsan, - dedi, ey xoşnəhad.
Pəs Əli çıxdı evindən ol zəman,
Mustəfa qatinə varmağa rəvan,
Bir kişi gördü ol dəmdə məgər,
Kim, əlinə bir dəvə almış yedər.
Çün yaxun gəldi Əlinin qatına,
Xoş səlam etdi Əlinin zatına.
Ol ərəb dedi ana, ya Bulhəsən,
Gəl mənimlən bu zaman lütf işlə sən.
Əksükim vardır, dəvəni satərəm,
Al, bəhasin ver mana, ey möhtərəm.
Ol Əmirülmöminin dedi rəvan:
Yoxdurur nəqdim əlimdə, ey cəvan.
Bir qəribəm, bilgil ey şiri-Xuda,
Saxləyə bilmən muni, ey rəhnəma.
Əldə nəqdin yox isə bilgil yəqin,
Verürəm təxir ilən dəxi həmin.
Al muni məndən vəli bu şərt ilə,
Verəsən həqqin xaçan düşsə ələ.

Dedi ki, söylə bəhasini rəvan,
Neçəyə verürsən, anı qıl bəyan,
Dedi yüz dirhəmdürür, yaBülhəsən,
Gər verirsən, dut məharin şimdi sən.
Dedi aldım, ol Əmirülmöminin,
Çün anı aldı, qayıtdı bəd əz-in.
Bir ərəb uğrar yenə yolda ana,
Ya Əli – der, - bu dəvəni sat mana.
Sataram, - dedi, - Əli alsan əgər,
Der: Bəhasin söyləgil, ey mötəbər,
Dedi: Üç yüz dirhəm versən mana,
Bu dəvə bilgil ki, həqq olur sana.
Dedi aldım, saydı ol dəm axçanı,
Pəs Əliyə cümlə dapşurdı anı.
Pəs dəvəsini Əli təslim edər,
Noxtəsin dutdı, anı yeddi gedər.
Vardı bazarə Əli ala təam.
Ta qıla oğlanlarını şadkam,
Aldı anı çün əvə gəldi gerü,
Anı gördü güldi Zəhrayi-mahru.
Fatimə çün baxdı gördi axçanı,
Dedi kim, xandan gətürdin sən anı?
Bir dəva aldım, - dedi, - mən bu zəman,
Verəcək yüz dirhəm, bilgil əyan.
Uş anı mən vədə ilə almışam,
Gör ki, beyimdə nə assı qılmışam.
Qövl qıldım ki, ələ düşgəc verəm,
Dinlə şimdi kim, yenə nə söylərəm.
Ol məhəl gəldi yenə bir müştəri,
Dinlə kim, bus öz deküldir sərsəri,
Verdi üç yüz dirhəmi-nəqdə anı,
Gör işimni necə onardı qəni.
Böylə dedi çün muni şiri-Xuda,
Çıxdı yenə getdi bazardən yana.
Ol dəvənin sahibin eylər tələb,

Şərti ilə qılmış idi ol ərəb.
Verəsən anı ələ düşgəc, - dedi,
Vardı ol ərəbi üştə istədi,
İstədi çox, anı bulla bilmədi.
Heç kişi anın nişanın vermədi.
Qayğulu könlü Əli döndi geri,
Məscidə gəldi rəvan ol səvgülü,
Mustəfayə gəldi, çün verdi səlam,
Mustəfa aldı səlamını təmam.
Pəs yüzinə baxdı, güldi Mustəfa.
Qayğuni rəf et, - dedi, ya Murtəza.
Qissəni şimdi sənin, ey Bulhəsən,
Sənmi verirsən xəbər, yoxsa ki mən?
Der Əli: Ya Mustəfa, sən qıl bəyan.
Ləfzi-dürrbarın ilə eylə əyan.
Ya Əli, - der, - dinlə imdi söyləyim,
Nə idi hikmət, sana ərz eyləyim.
Ol ərəb kim idi, sən söylə mana,
Kim dəvəni vədəyə satdı sana.
Dəxi bildinmi kim idi ol ərəb?
Kim anı səndən satun aldı əcəb?
Der Əlik i, bilməzəm mən, ya rəsul,
Sən məgər bildürsən ki, kimdir ol.
Ol ki satdı anı, Cəbrail idi,
Həm alan dəx anı, İsrafil idi.
Altı dirhəm verdin Allah yoluna,
Gör ki, ol Xaliq sana netdi yenə?!
Birisinə əlli verdi ol Xuda,
Altısinə qıldı həm üç yüz əta.
Dünyada böylə əta qıldı kərim,
Kim bilür kim, danla neylər ol rəhim.
Böylə qılurdı süluk anlar müdam,
Anların bu idi, virdi sübhü şam.
Əllərində quti-yövm olsa haman,
Sailə verürlər idi ol zəman

Biz xaçan biləsiyüz ol mənzili,
Döndərürüz yüz göricək saili.
Vəh məgər kim fəzli ilə ol Xuda,
Eyləyə rəhmət bizə yövmül-cəza.

* * *

Yuxarıda göstərildiyi kimi, Əli (ə.) Peyğəmbər (s.a.v.)-ə ən yaxın doğma bir adam, İslama qovuşan ilk şəxslərdən biri olmuşdur. Əli (ə.) Allah və Peyğəmbər (s.a.v.) yanında insanların və bəşəriyyətin ən sevimlisi idi. Peyğəmbər (s.a.v.) buyurmuşdur ki, «Əlini sevmək iman və onunla düşmənçilik etmək nifaqdır. Mənim məhəbbətim üçün ona hörmət ediniz. Allah Cəbrayıl vaitəsiylə mənə əmr verdi ki, bunu sizlərə yetirim».

Peyğəmbəri-Əkrəmdən nəql edilən rəvayətlərdən biri də budur: «Əlinin üzünə baxmaq və Əli (ə.) fəzilətindən danışmaq ibadətdir».

Ən yetkin bir insan nümunəsi olan Əli (ə.) təkcə bir şəxs kimi deyil, bir məktəb kimi mövcuddur. Əsrlər ötsə də kamil, imanlı insanlar Əli (ə.) məhəbbətini ürəklərində gəzdirmiş, bu məhəbbət uğrunda bədxah insanlar tərəfindən ağır işgəncələrə məruz qalsalar da, Əli (ə.) məhəbbəti yolunda bir addım da geri çəkilməmişlər. Əksinə, bu ülvi məhəbbət uğrunda son nəfəslərinə kimi mübarizə aparmışlar.

Əli (ə.)-in məhəbbəti və dostluğu barədə bir çox rəvayətlər vardır. İbnəl-Əsir nəql edir ki, Peyğəmbər (s.a.v.) Əli (ə.)-ə xitab edərək buyurdu: «Ya Əli! Allah səni öz bəndələri arasında ən gözəl bəzəklərlə bəzəmişdir. Dünyadan üz döndərməklə elə etdin ki, nə sən dünyadan bir şeylə bəhrələndin, nə dünya səndən. Yoxsullar məhəbbətini sənə həsr etdi, onlar sənin imamlığından razıdırlar, sən isə onların itaətindən. Səni sevəni və səninlə dostluqda düzgün olanın xoş halına, səninlə düşmən olub, sənin əleyhinə yalan söyləyənin vay halına».

Deyilənlərdən aydın olur ki, Əli (ə.) aşiqləri bütün əsrlərdə olmuş, hər kəs özü-öz ürəyində Əli (ə.) məhəbbətini yaşatmağa çalışmışdır. Əli (ə.)-in adı Azərbaycanda da müqəddəs bir şəxsiyyətin adı kimi ürəklərdə yaşayır. Müsəlmanlar Əli (ə.) adını tarixi abidələrdə

də əbədiləşdirmiş və bu tarixi abidələrə ziyarətə gələn Əli (ə.) aşiqləri Əli (ə.)-ə olan sonsuz məhəbbət və istəklərini izhar edirlər. Ürəklərində gəzdirdikləri arzularının həyata keçməsi üçün ilk öncə Allahdan Əli (ə.)-ın xatirinə kömək istəyir, ona pənah gətirərək, ondan nicat gözləyirlər.

Belə tarixi abidələrdən biri «Əli Ayağı» adı ilə el arasında məşhur olan «Həzrət Əli (ə.) qədəmgahı» məscid-ziyarətgahıdır. Bu ziyarətgah Bakı şəhəri yaxınlığında, Xəzər rayonunun tərkibində olan Buzovna qəsəbəsində yerləşir. Ümumiyyətlə, Buzovna qəsəbəsi memarlıq abidələri baxımından digər qəsəbələrdən fərqlənir. Belə ki, Abşeron yarımadasının ən qədim memarlıq abidələri məhz Buzovnada yerləşir. Azərbaycan alimlərinin Buzovnada tunc və dəmir dövrlərinə aid aşkara çıxardıqları tapıntılar qəsəbənin çox qədim tarixə malik olmasını sübut edir. Burada qədimdən mövcud olan «Həzrət Əli (ə.) qədəmgahı» məscid-ziyarətgahından başqa «Xəlifə Əli və Məhəmməd mömin türbəsi», «Qarapaltar piri, Qafqaz Albaniyası kilsəsi» XIV-XIX əsrlərə aid bir neçə türbə, saray, hamam, məscidlər Buzovnanın qədim tarixə malik olmasından xəbər verir.

«Həzrət Əli (ə.) qədəmgahı» məscid-ziyarətgahının Buzovnada olması bir tərəfdən burada yaşayan əhalinin elmə, dinə, tarixi şəxsiyyətlərə böyük ehtiram və məhəbbəti ilə də bağlamaq olar. İkinci tərəfdən məscid-ziyarətgahın burada olması möcüzə ilə, müxtəlif rəvayətlərlə bağlıdır. Lakin bunlara baxmayaraq bəzi adamlar elə başa düşürlər ki, «Həzrət Əli (ə.) qədəmgahı» ziyarət yeri din xadimlərinin uydurmasıdır. Çünki heç bir tarixi ədəbiyyatda Həzrəti Əli (ə.)-in Buzovnada olması barədə məlumat yoxdur.*

Belələrinə cavab olaraq göstərmək istəyirik ki, din tarixində sonuncu Peyğəmbər olmuş Mühəmməd (s.a.v.) meracını heç bir elmi ədəbiyyat sübut və təsdiq etməmişdir. Hər kəs bilməlidir ki, Allahın rəsulunun meracı heç kəsə görünə bilməzdi. Merac məsələsinə, təkvini və təşrii vilayət məsələlərinə hüccət Qurani-Kərimdir.

*** Bu barədə ətraflı məlumat almaq üçün bax: H.S.Hüseynqulu oğlu. «Azərbaycanda Həzrət Əli (ə.) qədəmgahları və ziyarətgahları». Bakı, Ozan, 2011.**

Deməli, el arasında çox tanınan və məşhur olan, xalqın iman və pənah gətirdiyi müqəddəs ocaq haqqında yanlış fikrə düşənlər və ya Əli (ə.)-in burada olmasına şübhə edənlər yanılırlar. Elin gözü tərəzidir. İllərdən bəri İslam aşiqlərinin ziyarət etdikləri bu məşhur ziyarətgah xalqın dərin məhəbbətini, yüksək etimadını qazanmışdır. Buraya gələn hər zəvvar əvvəl Allah-təaladan, Əli (ə.) xatirinə mətləb istəmiş, arzuladıqları mətləblərə çatmışlar. Bir sözlə, bu məscid-ziyarətgaha gələnlər buradan ümidsiz qayıtmamış, xəstələr şəfa tapmış, bağlı qapılar üzlərə açılmışdır.

Qeyd etməliyəm ki, 100 il bundan qabaq yaşamış Buzovnalı şair Məhəmməd İsmayıl Asi (1848-1929) öz dövründə buradakı möcüzələrin şahidi olmuş və öz divanında «Əliayağında» baş verən möcüzələr haqda iki qəsidə yazmışdır. Şairin həmin qəsidələrini olduğu kimi təqdim edirik:

## *QƏSİDƏHU TÜRKİ MÜXƏMMƏS*

İn möciz dər qədəmgahe sərvəre-övliya,
rəisi-l-əhibba və imamil-ətqiya.
Əmir-əl-möminin dər tarixe 1319, dər mahe
Cümadiüs-sani bevuqu peyvəste bila reyb və şübhə.

Bihəmdillah kenə təbim bu sevdaya düçar oldı,
Neçə əyyamidi qəflətdə ki, imdi huşyar oldı,
Olub bidar qəflətdən ziyadə şərmsar oldı,
Edibdir cüstcü təmkinlən sahib-vüqar oldu.
Qoyubdur beyti-eşqə məqdəmin həmbəzmi-yar-oldı.

Uçubdur təbi-şahbazım uğablər gəldi pərvazə,
Edibdür seyr övraqi, yetübdür bəndi-Şirazə,
Şikari-əbyatçün minqar açub şahinsifət bazə,
Pələngasa çəkibdür töməi-əşarə xəmyazə,
Yetirübdür eyni mətlubə dayandı, paydar oldı.

O seyrində tapubdur yaridən bir mətləbi-ali,
Yetüb məqsudə dami-təbi, hərgiz olmayıb xali,
Dolanmış münqəlib qəlbi, olub xoşvəqt əhvali,
Yazılmış səfheyi-qəlbimdə yarun xətti-xoşhali,
Nə bəlkə, səfhəyi-tumari-qəlbim zərnigar oldı.

Aman saqi, məni bir cürə meydən kamyab eylə,
Bəd əyyamidə durma, məni məsti-şərab eylə,
Müzəyyən eylə bəzmi, cami-meylən, mahtab eylə,
Zihab et qəlbidən rəngi-küdurət, bir savab eylə,
Cirahati-lisan cismində hər gün bişümar oldı.

Qədəm qoy bəzmimə bir dəm, nolaçeşmim ola rövşən,
Sənin didari-hüsnün cismimə sərpa ola cövşən,
Olam bidar qəflətdən, lisanım olmaya əlkən,
Tökəm dürri-süxən hər yan, o hərfə olmaya rəhzən,
Zəmanə gərdişindən ruzigarım tarimar oldı.

İçəm saqi əlindən gər piyalə, badəyi-səhba,
Suxən rəzmində bakım yox, təmamən fərz ola dünya,
Fəsihani-ərəb tək eylərəm bu qissəni inşa,
Əgər anən fəanən yavərim olsun mənim Mövla,
Götürəm şərhin itmamə mədədim Pərvərdigar oldı.

Verün bir huşi-kuşilən mənə, ey firqəvü rəhvər,
Bəyan eylüm sizə bir tazə möcüzi-heydəri-səfdər,
Əhibba gözləri rövşən ola hər yerdə var yeksər,
Axarsun gözləri düşmənlərin ta vərtəi-məhşər,
Qədəmgahi-Əlidə tazə möciz aşikar oldı.

Cümadis-sanidə oldı bu möciz yövmidə aşir,
Həzaru sisədu tasiə əşarə tarixdə zahir,
Yetüb təhqiqə bu mətləb, degil heç kimsəyə satir,
Sədaqət çün qəməgahə xəlayiqdən olub hazir,
Həqiqət etməkə məxluqdən həddən kənar oldı.

Gecə oldı çırağan, etdilər yeksər Buzovnanı,
Dəgişdi tar zülmatı, gecə çün oldı nurani,
Gedibdür hər məhəllə dəstə-dəstə Növhəxanı,
Ki, biz də əzm edüb getdik edək təhqiq mənanı,
Yetən vəqtə qədəmgahə bu mətləb aşikar oldı.

Tində nagahan gördük dutub bir şəxs arami,
Yanında cabəca durmuş ünasi-xoşəqvamı,
Sual etdük nədür ismün sərih eylə atun nami,
Əbu Talib adım, Baku məkanımdır əlan kami,
Atam adıdı İsmail, ölüb sahibi-məzar oldı.

Bu gün şeş mahidur sahibi-firaq etdi məni əyyam,
Zəban küng, bədən nasaz, gözləri kor, biaram,
Qədəmgaha gətirəmkçün əşirim, etdilər iqdam,
Məni nəql eyləyüblər bu məkana xişilən əqvam,
Qədəmgaha salan mən naxoşı xurdu-kibar oldı.

Apardı huş ol vəqtə məni bilmərrə sərpadan,
Gedübdür pərdəyi-zulmat nagah məddü-binadan,
Yetişdi guşimə summi-suturan rəsi baladan,
Baxub gördüm iki atlu seçilmiş tari-Leyladan,
Bu övzai görəndə tari-şəb nurunnahar oldı.

Biri durmuş niqab üzdə, misali-şəmsi-tabandur,
Biri durmuş niqabı yox, qəmərtək çün nümayandur,
Deyirsən səfhəyi-ruxsari-dildə şahi-xubandur,
Baxan görsə deyər, əlbəttə, min-min canə canandur,
Görəndə lalə tək qəlbim açıldı, laləzar oldı.

Məni etdi müxatib ol niqab üzdə olan məzkur,
Buyurdı, durr ayağa, yatmısan Hüznün olub məksur,
İşarə eylədim yoxdur zəbanım, gözlərimdir kur,
Anan, atan aşağa vardı bir ta olmayın rəncur,
Olun asudə bir saət həva tarik, tar oldı.

Buyurdı dəfəi-sani, nə gözdə, dildə var nöqsan,
Buyurdu ya əxi Abbas, ey səqqayi-bimaran!
Əta eylə bu şəxsə cami-su, ta etgilən ehsan,
Verüb bir cam su içdim besani-çeşməi-heyvan,
İçəndə eşqidən qəlbim dolandı, biqərar oldı.

Buyurdı pəs olar kimdür, yanündə eyləyüb sükna?
Baxanda görmədim heç kimsənə, nə pir, nə bürna,
Rücu etdim ki, yox o atlulardan bir nişan əsla,
Ayıldım huşidən gördüm gözüm bina, dilim guya,
Bədən sərpa tapub, sihhəti-sürurim bişümar oldı.

Bu möcizdən əhibbalar olub fərxəndəvu xəndan,
Dəkibdür bir-birə aləm, çırağan etdilər hər yan,
Çalublar təbl sənci, eyləyüblər şivən, əfqan,
Səğir, həm məşayixlər fərəhdən oldılar giryan,
Təmamən şiələr vəcdi-fərəhdən əşkbar oldı.

Çıxıb münkirlərün canı bu ecazü kəramətdən,
Olar cəhli-mürəkkəbdür, qalublar bu şərafətdən,
Deyillər əhli-imanun degillər naci millətdən,
Təəssüb dində əfzəl olur hər bir ibadətdən,
Təəssüb çəkməsə hər kim şəqiyyi-ruzigar oldı.

Qədəmgahun fədası, ya Əli, hər şiələr canı,
Türabi-dərgəhin göhlul-bəsər, hər dərd dərmanı,
Edən binavu guya güngilən Məcnuni-əmanı,
Qədəmgahun murada çatturur hər dərdiməndanı,
Gələn dərgahu və hər dü cahanda rəstkar oldı.

Sənün hübbundu bir cənnə, ona heç hərbe kar etməz,
İmamul-ins vəl-cinnə, bu hərfi munkir danmaz,
İbadət xaliqə sənsiz yəqinən heç səmər verməz,
İbadət eyləyə min il, qəbula heç biri keçməz,
Vəliyyullaha iqrar etmiyən qeyri-şümar oldı.

Adun qurbanı ollam ya Hüseyn, ey şahi-məzluman,
Mərizə eyləyən çarə, verən ətşanə su hər an,
Səni zəbh etdilər Kərbübəladə deşkəri-üdvan,
Ləbün ətşan, dilün suzan, ürək büryan, gözün giryan,
Yetən zülmi-cəfa övladuva həddən kənar oldı.

Kəfən geydi qabağında baxardun şibhi-peyğəmbər,
Boyanmış yüzi qanə, odubdur lalətək əhmər,
Tökülmüş gül üzə, sünbül açub cismi, qızıl güllər,
Baxan söylər, xarab olsun cahan sənnən sora, yeksər,
Əli, sənnən sonra dayim cahan bietibar oldı.

Salublar Həzrəti-Abbası qolsız, əşqiya, atdan,
Vurublar su yerinə hülqi-naziki-Əsğərə peykan,
Odubdur Kərbəla damadınun toy hicləsi viran,
Təmamən yari-ənsarun olublar qanına qəltan,
O gündə, cam əlində təşnələb xurdu-kibar oldı.

Ümumən qol-qola bağlu olub övladi-peyğəmbər,
Əsiri-Rum deyilən tək, nə başda çadıru məcər,
Dəvə üryan, hava isti, nə bir örtük, uzaq çöllər,
Əlində taziyanə Şümri-bidin, mürtədü-kafər,
Əlilü nətəvan Zeynələba, naqəsüvar oldı.

Gəhi bi rahə çöllər, gah bəzmi-ibni-Mərcanə,
Gəhi səhradə mənzillər ki, gahi deyir rəhbanə,
Gəhi Şam xərab olmuş, dehi ali-Allah viranə,
Firəngi xaricilər öz adın qoydı müsəlmanə,
Əli övladı Şam içrə əsiri-zəngbar oldı.

Sükut et eyyühəl-Asi, kəlamı etmə tulani,
Qəlil-ləfz, purmənapəsənd bizim ürfanı,
Müdəqqiqlər edər hər bəzmidə təhqiq mənanı,
Güzər eylə bu mətlədən ki, başda özgə ünvanı,
Ənisi-munisun, bəlkə vəliyyi-kirdigar oldı.

## İKİNCİ QƏSİDƏ

***Möcize qədəmgahe Əmirəl-möminin və Seyyidəl-muvəhhidin, ənisil-füqəra və zövci-bətuli-əzra Fatiməyi-Zəhra dər tarixe 1311 bezühür peyvəstə.***

Fəda olum sənə ey saqiyi-xucəstəliqa,
Gətür bu məclisə bir badəyi-meyi-səhba.
O mey sorağına çox şayiqəm məhəbbətən,
Bu meydən ötəri odur müztərib hamı əza.
O meydən istəyirəm təmdə besani-şəkər,
O meydən istəyirəm rəngidə dürri-beyza.
O meydən istəyirəm müskürati-zahiri yox,
O meydən istəyirəm mordəni edən ehya.
O meydən istəyirəm təmdə təğəyyürü yox,
O meydən istəyirəm saqisi şəhi-dusəra.
İçim o meydən, ola rəf hər həva-həvəsim,
Təməvvücə gələ təbim çu ləccəi-dərya.
Zebəs ki, təb düşüb şuridən, zəban əlkən,
Ola bu təbimə qüvvəti-nəfs ola guya.
Xəyali-ğutəi-qülzum ola çu ğəvvasan,
Sədəfdən eyləyə xarici çu löləyi-lala.
Bisati-qövm fərainə eləyüb zahir,
Bisan möcizi-Musa, əsa yədi-beyza.
Zebəs ki, çoxdu bu əsrü-zamanda mürdədilan,
O mürdədilləri ehya edim zedəmi-İsa.
Həvəslə guş edin şiəyani ali-Rəsul,
Bu tazə möcizəni eyləyüm sizə inşa.
Varımdı bircə hekayət, zebəs ki, türfə əcib,
Gəlür zühurə yavərim ola Mövla.
Cümadi-sani ayında ki, maddeyi-tarix,
Hürufi-qətdə qəryağ olur bərpa.
Gəh bir nəfər Hacı Abbas ismi, Güzdəkli,
Ki, zahirən bu zamanda olubdu əhlülla.

Onun səbiyyəi-mərziyyəsi həmişə xanım,
Bu əsri-nadirəsi, çox nəcibəi-ülya.
Həmin Səbiyyəni əqd iləyubdu bir nəfərə,
Bina behökmi-Xuda, həm şəriəti-ğürra.
Köçürdülər o qızı hicləu o damadə,
Olubdu cəmünasu zükur, hər bürna.
Olubdu əqd o oğlan zifaf leylində,
Mübaşərət səbəbindən başın salıb aşağa.
Vurubdu sillə o biçarəyə iki dəfə,
Olubdu lal, iki gözləri olub əma.
Bədən xəmirə dönüb, olmayıb ona mümkün,
Düşüb ölü kimi nə cünbüş, nə dəst, nə pa.
Xəbər yetəndə, gəliblər qızun ata-anası,
Bu halətini görəndə çöküb anası səda,
Olubdu cəm qızun xiş-əqrəbası tamam,
Apardılar o qızı, eyləsünlər bəlkə dəva.
İki-üç ay dolanublar neçə ətibbanı,
Görünməyüb o qızın halətində heç şəfa.
Olublar yəs şəfadan qızun ata-anası,
Gəlüblə Məşqətəyə bəlkə orda çarə ola.
Olublar xaneyi-Məşhədi Kazımda çün mehman.
O xanədanı edüblər müəyyəni-məva.
O xanə sahibi çox ehtiram edüb olara,
Büsat çidə qılub, onlar olub dara.
Həqiqətən gecə mehmannəvaz, mumii ileyh,
Açuqdu süfrəsi hər kimsəyə nə qədər ola.
Bəlayi-ərzü-səmadan vücudi salim ola,
Bihəqqi-şahi-Xorasan qərib İmam Rza.
Dəlil olub olara, ta gedək qədəmgaha,
Yəqindür mənə, bu qız şəfa tapar orada.
Haman qapudan olur çarə ol mərizinizə,
Haman qapudan olur dərd ol mərizə dəva.
Haman Əlidür verən, hər murad şiələrun,
Neçə mərizə edən afiyət libası əta.
Haman Əlidü, həcərdə ki, həkk olub qədəmi,

Gəlübdü möcizəsi hədsiz zühura bəsa.
Haman Əlidü ki, qəlbi tamam aləmdür,
Vücudi illətğaidu, şafii-dusəra.
Haman Əlidü, dul övrətlərə kəfil oldı,
Yetim uşaqlara, miskinlərə olubdu ata.
Haman Əlik i, gəhvarədə bölüb əjdər,
Fərar edübdü, xəlayiqi-Bətha.
Haman Əlidü edən həll müşkilatı tamam,
Rəsuli-Əkrəmə damad idi, Vəliyyi-Xuda.
Bu üqdə fəthi olur orda Mürtəza qədəmi,
Odur ki, həll eyləyən müşkilati-üqdəguşa.
Götürdülər o qızı qəryəi-Buzovnaya,
Təvaf edüblər qədəmgahidə bəsidqü-səfa.
Salubdular o qızı etiqadi pakilən,
Hərəmsarayi-qədəmgaha ol firiştəliqa.
Salub özin qədəmün üstə ol əliləyi-zar,
Gedübdu huşə haman dəm mərizəyi-nabina.
Suruşi-ğeybi yetüb dəfətən qulağına,
Əgərçi zahiri əmadi, batini bina.
Ki, nagahan başi üstündə bir nəfər seyyid,
Çəkübdü gözlərinə əl, gözi olub şəhla.
Veribdü cürə ona ab hövzi-kövsərdən,
İçibdü küng dili dəfətən olub guya.
Baxıb görübdü bədən tapub səhhət.
Durub ayağa sərasimə, səslənib umma!
Ana sədani eşitcək qoyub qədəm hərəmə,
Görüb ki, bircə nəfər hürvəş durub ayağa.
Ana bu hali görənldə qucaqlayıb qızını,
Deyübdü xişilə əqvamə çeşmi-rövşən ola.
Eşidcəkin bu nidanı, töküldülər hərəmə,
Nə gördilər o qızı, misli-şəmsi-dünya!
Böylə rəvayət edüb raviyani-əhli-vüsuq,
Olub yeganəyi-dövran, cəmilə bi həmta.
Olub bu möcizədən dustlar gözi rövşən,
Olub o ləhzədə düşmənlərün gözi əma.

Olubdu şiəyi-ali-Rəsul fərxəndə,
Olubdu kor-peşiman münkiru-əda.
Götüdülər o qızı, oldılar gürizanpa,
Edübdü hökmi-çırağanə aləmani-bələd,
Nə çox olubdu çırağani-şurişi-qovğa.
Buzovna əhli təmamən edüb çırağanlar,
Şağan əhli də həm peyrəvi olub olara.
Ələlxüsus çırağan olubdu Maştağada,
Bu himmətlə çırağanə oldılar dara.
Gəh etməyiblər çırağan Mərdəkan əhli,
Yəqin bu möcizə kim, xoş görünməyüb olara.
Fəda olum o qədəmgahuva şəhi-kövneyn,
Gəlür bu məqdəmüvün Möcizi zühura bəsa.
Adun fədası olum, ey Əmiri-Xeybəri-kəbir,
Mərizə çarə edən, korı eyləyən bina.
Təkəllümə götürən bi təkəllümi fövrən,
Verən su teşnələrə öz əlünlə, ya Mövla!
Məmat vəqti gələn hər kəsün başi üstə,
Ki, kəlmədün, nə sirri ki, yevmi-aşura.
Hüseyn təşnələbün kəsdilər başını susuz,
Ki, bir içim su ona vermədi o qövmi-dəğa.
Səkinə cam əlində gəzər bəla çölini,
Tapulmayıb ona bir cürə su o dəşt ara.
Verübdü Əsğərə su hərmələ xədənki-cəfa,
Qan ağlayub o zamanda tamam ərzü səma.
Nə türfə toy dutub Kərbəlada Qasim üçün,
Yaxubdu qanilə damad əllərinə həna.
Geyübdü xələti-əbyəz şibhi-peyğəmbər,
Misali-şahi-şəhidan, verən qəzaya Rza.
Düşübtü Həzrəti-Abbas qolları təndən,
Bədən yaralı düşüb çak-çak sərtapa.
Çıxıbdu Şümri-ləin ərşi kirdigar üstə,
Nə xofi-qəhri-Xudavənddən etməyüb pərva.
Bu zülmi-bi həddü-bi həsrəsəbr edübdü Hüseyn,
Olan qəzaya rza şövqilən bəlaya, bəla.

Əsiri-bəsti-zəncir olubla alillah,
Bu zülmi eyləməyüb nə məcus, nə tərsa.
Hava çox isti, nə çadır, nə sayəbanlar yox,
Süvari-naqəi-üryan əlil Zeynəl-Əba.
Bu kuftgudə sükut eylə, əyyuhəl-Asi.
Sənün kəməndi-xəbaqisə hissin bala.
Şəfi çək buları dərgəhi-Xudavəndə,
Bağışlasun bizi Allah be həqqi-ali-əba.
İlahi, dari-fənada Hüseyn ziyarətini,
Şəfaətin bizə qismət eylə, be ruzi-cəza!

## HƏZRƏT ƏLİ (Ə.) QƏDƏMGAHI MƏSCİD-ZİYARƏTGAHININ MÖCÜZƏLƏRİ

***Mən qulami xanədanəm padişahımdır Əli,***
***Ehtiyacım onadır püştü pənahımdır Əli.***
***Könlümü qıldı münəvvər, mehrü mahımdır Əli,***
***Qibləgahımdır Mühəmməd, səcdəgahımdır Əli.***

**İmadəddin Nəsimi.**

Məlumdur ki, böyük islam aləmində möcüzələrin əksəriyyəti Həzrət Əli (ə.)-a məxsusdur. Axı peyğəmbərimiz Mühəmməd (s.ə.a.s.) onun haqqında «Əli bəşərdir, lakin necə bəşər» buyurmuşdur.

Ziyarətgaha pirə və digər müqəddəs yerlərə daxil olanda sağ ayaqla girməli və aşağıdakılara əməl etmək lazımdır:

1. *Təharətli olmalı (təmiz)*
2. *Ətir iyləmək*
3. *Üzü qibləyə durmaq*
4. *Niyyətin qəbulu üçün özü ilə Allah arasında 14 məsumdan birini vasitəçi olmağa çağırmaq* (Təvəssül duasını oxumaq çox savabdır). (Vasitəçiliyə müraciətlər aşağıda göstərilir):

Səni Allah dərgahında vasitəçi edib hacətlərimizi Sənə təqdim

edirik. Ey Allah dərgahında uca məqamlı və hörmət sahibi, bizə (günahlarımızın bağışlanması üçün) şəfaətçi ol.

Ey mənim ağalarım və ixtiyar sahiblərim, mən sizi Allah dərgahına yaxınlaşmaq üçün vasitəçi etdim. Ey mənim İmamlarım, ehtiyac və yoxsulluq günü (Qiyamət) üçün zəxirəm! Sizin vasitənizlə Allaha təvəssül etdim, sizi Allah dərgahında şəfaətçi etdim, bəs mənim üçün Allah yanında şəfi olun, Allah yolunda günahlarımdan mənə nicat verin. Həqiqətən Siz, mənim Allah dərgahına getmək üçün şəfatəçilərimsiniz, fəqət Sizə təqərrüb etməklə Allah yanında nicat tapmağa ümid bəsləyirəm. Allah yanında mənim ümidim olun, ey mənim ağalarım, ey Allah övliyaları!

Allahın salavatı həmişə onlara olsun! Allah, onlara zülm edən Allah düşmənlərinə əvvəldən axıra kimi hamısına – lənət etsin. Amin ya Rəbbələləmin!

***Müşkülün, qəm-qüssənin aradan qaldırılması üçün Həzrəti Məhəmməd Təqi (ə.)-dan nəql olunan bu zikirləri demək faydalıdır:*** «Ya mən yəkfi min kuli şəyin və la yəkfi minhü şəyun, ikfi ma əhəmməni».

«Ey məni hər bir şeydən ehtiyacsız edən və ey hər şeydən ehtiyacsız olan Kəs, mənim qəm-qüssəyə salan işimi həll et!:»

Buraya gələn xəstələr şəfa, sağlamlıq, güc və mənən təmizlik tapırlar. Hər kəs buraya murad diləməyə gəlir və muradına çatandan sonra da bu müqəddəs yerlərə ziyarətlərini unutmurlar. Ziyarətgahda şəfa tapanlardan bir neçəsini misal gətirək:

Kərbəlayi Adil Məşhədi Zərbəli oğlu və Əyyub Əbulfəz oğlunun dediklərindən:

«Hər il yaz-yay aylarında bir hüquq işçisinin (adını çəkmirik) ailəsi Əbülfəz kişigildə qonaq qalarmış, bunların Böyük xanım adlı 7-8 yaşlı bir qızları var idi. Qızın birdən-birə gözləri tutulur. Həkim dava-dərman, müxtəlif pirlər heç bir nəticə vermir. Bir gün qızın anası Sürəyya xanım Mustafayeva bildirir ki, yuxuda mənə «Əli-Ayağı»na getməyi buyurdular. O zamanlar da, gündüz oraya getmək hər bir kəsə yasaq edilmişdi. Əbülfəz kişinin arvadı Zəhra xala (Buzovnada və ətraf kəndlərdə onu hamı sınıqçı Zəhra xala kimi tanıyırdılar) bu işi axşam görməyi öz ailə üzvlərinin boynuna qoyur.

Axşam Əbülfəz kişi və oğlu Əyyub növbəyə dayanırlar. Zəhra xala qızın anası Süreyya xanımla, qızı əbaya bürüyüb, qədəmgaha gətirirlər. Onu orada yatırırlar. Qız yatandan sonra sayıqlamağa başlayır. Onu yuxuda yalvararaq, «mən cavanam, mənə lazım deyil» sözlərindən, bunlar qıza vergi verildiyini anlayırlar. Qız birdən yerindən sıçrayaraq, qədəmgahdan üzü yuxarı qaçmağa başlayır. Və sevinclə «görürəm» deyə qışqırmağa başlayır. Sonra o, nəql edir ki, yuxuda mənə nəsə vermək istəyirdilər, mən götürmədim. Bir nurani ağsaqqal kişi mənə yaxınlaşdı və dedi: «Niyə burada yatmısan, sənə soyuq dəyər. «Mən isə gözlərimin görmədiyini ona söylədim. O, mənə: «Dur əllərinlə gözlərini sil və evə get!» - buyurdu.

Bu əhvalatdan üç gün sonra həmin Zəhra xala yuxu görür. Bir nurani kişi əlini uzadıb «al bunu» buyurmuşdu. Zəhra xala kişinin uzanan əlini tutmuş, lakin ovcunun boş olduğunu görmüşdür. Səhəri uşaqların səsinə oyanan Zəhra xala onlardan birini «vay barmağım» deyə qışqırdığını görmüş, tez ona tərəfə qaçaraq, «baxım, baxım» deyə onun çıxmış barmağını yerinə salmışdır. Bu hadisədən sonra Zəhra xala məşhur sınıqçı olmuşdur.

Fəttah Hüseynəli oğlu Əliyevin dediklərindən: «Aşağı hamamda (Kərbəlayi Ələkbər hamamı – red.) 5-6 yeniyetmə çimərkən əmim oğlu Haşım Əhmədəli oğlu zarafatla qardaşım Mahmuda bir sillə çəkdi və onun ürəyi getdi. Bu xəstəlik, yəni ürəkkeçmə hər 20-25 gündən bir təkrar olurdu. Çox yerlərə müraciət etsək də bundan heç bir şey hasil olmadı. Bu hadisə 1934-cü ildə olub. O vaxtki RİK sədrinin qorxusundan (rəhmətə gedib) gecə rəhmətlik anam, Məmmədrəhim və mən qardaşımızı «Əli-Ayağı»nı apardıq. Atam və qardaşım bayırda keşikdə durdular. Biz qədəmgahda qardaşım Mahmudu yatırdıq. Səhərə yaxın o ayıldı və bizimlə gizlicə evə gəldi. 1941-ci il müharibəyə gedənə kimi qardaşım Mahmudda bir dəfə də belə xəstəlik olmadı.

Axund Hacı Kərbəlayi Soltan Hüseynqulu oğlunun son dövrlərin məşhur dindar dərvişi olmuş Əlisöhbətdən eşitdiklərindən: qonşuluğumuzda bir varlı ailə yaşayırdı. 7 (yeddi) il idi ki, onların övladları olmurdu. Onlar hər il uzaq bir rayondan bir ağa dəvət edir, qurbanlıqlar kəsər, ehsan verir və niyyət edirdilər. Bir nəfər kürdə-

xanlı onlara məsləhət görür ki, dindar Əlisöhbətə dərdlərini desinlər. Əlisöhbət onları dinləyir, Buzovnaya Həzrət Əli (ə.) qədəmgahına aparır və Allah-təaladan bu qədəmgahın yiyəsi xatirinə bu bivarislərə övlad əta etməsini yalvarır və dua edir. Hətta orada belə təklif də verir ki, oğlan övladınız olarsa adını Əlibəxş, qız olarsa ya Fatimə, ya da Zəhra qoysunlar.

Bir neçə müddətdən sonra həmin varlı ailəsində bir oğlan uşağı dünyaya gəlir, adını da Əlibəxş qoyurlar. Deyilənlərə görə həmin Əlibəxş indi də sağ və salamat yaşayır. Belə hadisələri yazmaqla qurtarmaq olmaz.

Gözlərin açılması, övlada sahib olmaq, ruhi xəstəlikdən sağalmaq, bəxtin açılması və digər murada yetənlərin sayı yüzlərlədir («Əli-Ayağı» məscid ziyarətgahında baş vermiş möcüzələr xüsusi jurnala qeyd edilir).

Şeyx Hacı Hüseynəlinin kiçik qızı Fatimə xanım (1889-1983) övladlarına pir möcüzələri haqda çox maraqlı bir neçə əhvalat danışmışdı. İllərlə yataq xəstəsi olan bir nəfər sürünə-sürünə gəlib pirin qarşısındakı asılmış zəncirdən tutaraq (o vaxt qədəmgahın dövrəsində olan məscidin qapısında zəncir varmış) «Ya Əli!» - deməklə ayağa qalxıb ziyarət edib və sonra onu müşayət edənlərə qoşulub öz ayaqları ilə getməsindən danışanda ürək dolusu ağlayıb. Bu əhvalat artıq dərəcədə Fatimə xanımın Həzrət Əli (ə.) olan məhəbbətini daha da artırıb.

## *QƏDƏMGAHDA ŞƏFA TAPANLAR:*

«Mən Zeynalov Qurban 1971-ci il anadan olmuşam. Anadan gəlmə ayağımda qüsur var idi. Yol gedəndə axsayırdım. Gəldim Əli-ayağı qədəmgahını ziyarət edib dua etdim. Hacı Arif də mənə dua edib tövsiyə etdi ki, namaz qılım. Mən də bunları yerinə yetirdim. Az bir müddətdən sonra ayağım sağaldı. Ağrılarımda olmadı. Özüm də namaz qılanlardan oldum».

*1993. 15 Avqust.*

***

«Mənim adım Jeyeyadır. Bir qızım vardır. Qızımın anadan gəlmə

dilində qüsur var idi. Mənə dedilər ki, Əli ayağına apar uşağı dilindəki qüsur düzələcək. Doğrusu inanmadım. Amma gətirdim onu qədəmgaha. Bir gecə yoldaşım, qızım Əli ayağında qaldıq. Sabahı gün qızımın dili açıldı. Hacı Arif də bizə yanımızda saxlamaq üçün şəfa duası verdi».

*1994. 21 İyun.*

***

«Mənim oğlum yatmırdı. Yuxuda qışqırır hamımızı narahat edirdi. Uşağı gətirib Əli-ayağına gəldim. Hacı bizə təsəlli verib ehsan verib ehsan konfetdən verdi. 3 gündən sonra oğlum rahat yatdı və çox rahat oldu».

*10 Sentyabr. 1995.*

***

«Mənim kürəyimdə ağrı var idi. Gəldim Əli ayağına məni Şeyx Arif başa saldı ki, qədəmi necə ziyarət edim. 3 dəfə pirin dövrəsinə dolandım. Mənə şəfa duası dilədi».

*1996. 12 Noyabr.*

***

«Mən Hüseynov Nüsrət Ramana sakiniyəm. 1992-ci ildə müharibə zamanı döyüşərkən bərk qorxmuşdum. Məndə ürək-keçmə var idi. Gəldim Əli ayağına ziyarət etdim. Hacı Arif məni dua etdi, o vaxtdan məndən daha qorxu və ürək-keçmə tamam yoxa çıxdı».

*13.10.98.*

***

«Mən Alışov Tərlan 1969-cu ildə anadan olmuşam. Özüm Keşlə qəsəbəsində yaşayıram. Xəstəliyimə həkimlər çarə tapa bilmirdilər. Mən gəldim qədəmgaha. Şeyx Arif məni başa saldı. 3 gün qədəmgahda dua etdim. 3 gündən sonra şəfa tapdım. Özümü çox yaxşı hiss edirəm. Allaha minnətdaram. Hacı Arifə də çox sağ ol deyirəm».

*06.04.2001.*

***

«Mən Dadaşov Əli Dadaş oğlu 2007-ci ildə gecə saat üç radələrində Əli (ə.) ziyarətgahına gəlib xəstə gətirmişdim. Rəhbərdən

icazə alıb Əlinin ayağının izi olan yerdə xəstəmi (yəni öz həyat yoldaşımı) yatırdım. O, on beş dəqiqə sonra yuxudan qışqırıqlı oyandı. Yuxuda ona şəfa tapdığını demişdilər. Yoldaşım həqiqətən də burada şəfa tapdı. 3 gündən sonra mən yenə də bura gəldim. Ziyarət edib öz nəzirlərimi verdim, Hacı Maarif mənə xatirəmi yazmağı təklif etdi. Mən onun sözlərini qəbul edib sözlərimi yazdım.

*2007.05.16.*

***

**Qədəmgahın möcüzəsi**

Bütün iman sahiblərinin dilində tez-tez bir ifadə var: «Ümidsiz olma! Ümidsiz şeytandır». Ona görə qəlbində ümid qığılcımı olan hər kəs çətin məqamda, dar gündə Allahın sevib-seçdiyi müqəddəslərinin məqbərələrinə, türbələrinə və pirlərə ziyarət edib, onların Allah-taala yanında olan izzəti-cəlalı xatirinə Yaradandan nicat diləyirlər. Nicat tapanlar Allaha həmd-səna və şükr edib onun qismətinə yazılan ömür payını yaşayır, amma heç vaxt başına gələn qəzavü-qədəri və Allahın ona göstərdiyi lütf və mərhəməti unutmurlar.

54 il əvvəl mənim də başıma qəribə bir iş gəldi. Dörd yaşım var idi, üstümə atılan pişikdən bərk qorxdum, nəticədə dilim tutuldu. Sərbəst danışa bildiyim halda indi tək-tük sözləri kəkələyərək deməyə başladım. Anam təşvişlə nənəmə dedi:

- Ay aman, qızın dili tutuldu.

Nənəm Xədicə özünü itirmədi, o dəqiqə dedi:

- Tez uşağı geyindir, onu aparım Həzrət Əli qədəmgahına, orada yatsa dili açılacaq.

«Əliayağı» ziyarətgahı o vaxt balaca bir hücrədən ibarət idi. Döşəməyə kiçik döşəkçəklər salınmışdı. Mən Ağanın ayaq izinin yanında yerə uzanıb yatdım. Nə qədər yatdığımı bilmirəm, birdən aydın, həlim bir səs eşitdim, kim isə dedi: «Dur ayağa, yer soyuqdur!” Sonra başımda kiminsə isti əlini hiss etdim. Mən “Ay nənə!” - deyib yuxudan oyandım. Nənəm iki əlini yuxarı qaldırıb dedi: «Allah, sənə çox şükür! Qızın dili açıldı». Səhər anam halva-çörək bişirib Qədəmgaha nəzir apardı.

O vaxt, dörd yaşım olanda o mülayim səsin, o isti əlin sahibinin

kim olduğunu dərk etməsəm də, uzun illər sonra dərk etdim ki, o axşam Həzrət Əli Qədəmgahında yatandan sonra məndə güclü hafizə və iti zehin yaranıb.

İndi övladlarım da, hətta nəvələrim də bilir ki, uşaq vaxtı dilim tutulanda mənə kim kömək verib. Bu günə qədər Qədəmgahın çox möcüzələrinin şahidi olmuşam, amma ilk möcüzəni heç vaxt unuda bilmirəm.

Həyata və yaradıcılığımda qazandığım az-çox uğura görə məni Yaradana və mənə mərhəmət göstərənə minnətdaram.

Sal yolun burda qədəmgaha, ziyarət yeridir.
Əlinin ayaq izi qalmış, əmanət yeridir.

Tutiyadır, bir əyil, öp bu əziz torpağı,
Verəcək Həqq şəfa, çünki şəfaət yeridir.

Bir zaman öpdü Xəzər, sanki vida etdi ona,
Çəkilib indi uzaq, bildi ibadət yeridir.

Öpəcək bir də o dəm ki, dönəcək məcrayə,
Qayalar səbrilə gözlər, bura həsrət, bura həsrət yeridir.

Çox niyət eyləyəni kamə yetirmiş Allah,
Qəlbi saf bəndələrə burda hidayət yeridir.

Lal olan dəmdə yatıb tapdı şəfa Munis də,
Haqq özü zamin olur, çünki zəmanət yeridir.

**Gülarə Munis.**
*AYB və AJB üzvü.*
*«Vicdanlı Qələm» diplomçusu*

***

## ƏLİ YOLUNDA

Kim nə yolu gedir getsin, işim yox,
Mən vermişəm canı, Əli yolunda.
Bu yol həm evimdir, həm məzarımdır,
Axıdaram qanı, Əli yolunda.

Mətinəm deyənlər az olur mətin,
Həqq verir hər kəsin qədir-qiymətin,
Əyri düz görsənər bu yolda çətin,
Yoxlaram insanı Əli yolunda.

Əli aşiqinin ürəyi toxdur,
Dostu çox az olur, düşməni çoxdur,
Mənimçün özgə bir belə yol yoxdur,
Sürmüşəm dövranı, Əli yolunda.

Qəlbimin qanıdır gözdə əriyən,
Həyat dərd verəndir mənsə dərd yeyən,
Əməl qoy ortaya ey mən-mən deyən,
Açmışam meydanı, Əli yolunda.

Mən Hacı Soltanam eşqidir işim,
Hamıya bəllidir günüm keçmişim,
Əli sevgilimdir, zikri vərdişim,
Məni ara, tanı Əli yolunda.

**Hacı Soltan**

***

«Bir kəslə onu üç vəziyyətdə sınamadan həqiqi dostluq etmə: Onu qəzəbləndir, gör qəzəb onu haqq yoldan çəkib batil yola aparacaq ya yox; əlinə qazanc gələndə (varlananda), onunla səfərə çıxdıqda.

Pəhrizkarlarla dostluq edənlərdən savayı, bütün dostlar peşmançılıq çəkir». ***İmam Əli (ə.)***

## HƏZRƏTİ ƏLİ QƏDƏMGAHI

Bu gün sənin qonağınam, Şahi-Mərdan,
Hüzuruna yetmək üçün neçə vaxtdır intizardım.
Amma, bəlkə neçə-neçə ömür qabaq,
Hər əmrinə hazır olan bir əsgər tək,
Qulluğunda mən də vardım.
Kaş bu xülya çevriləydi həqiqətə,
Lakin, əfsus!
Bu xəyallar kəlam kimi mənə aid olsa belə,
Gerçək kimi olmayacaq mənə məxsus.
Bu gün sənin qonağınam,
Mənzilimdir ədaləti bu dünyaya səpələyən,
Qədəmlərin dəydiyi yer
Məskənidir gəlib keçən hər bir kəsin
Ən adinin, ən sadənin,
Ən ucanın, müqəddəsin
Qədəminə diz çöküb baş əydiyi yer,
Qədəmgahdır bu mötəbər, bu möhtəşəm yerin adı
Ey müşküllər həll eləyən, aqillərə bir qədəmin bəs elədi.
Cahillərə bu ecazın bəs olmadı
İndi nə çox əqidəsiz, məsləki puç əqliçaşlar,
Səd əfsus ki indi artıb Zülfüqarə gələn başlar
Fəqət insan oğlu insan
Olmaz nadan
Hamı gəldi səndən nicat istəməyə,
Dərdli gəldi dəva üçün,
Xəstə gəldi şəfa üçün,
Sən eylədin hər əlacı,
Şəfqətinlə insanların
Sənə üzün tutanların qalmadı bir ehtiyacı
Bu gün sənin qonağınam,
Özgələr tək dərd deməyə gəlməmişəm,

Mən dərdimi sənə olan məhəbbətdən
Heç vaxt üstün bilməmişəm
Bircə sənin adın yetər qüssələrin məhvi üçün,
Bircə sənin adın yetər günahların əfvi üçün
Şükür bizi Yaradana!
Çünki səni töhfə verib bu dünyada
Həyat sürən hər insana
Nə xoşdur ki, bu torpaqda möminlərin var pənahı,
Bizim üçün bir Nəcəfdir
Həzrət Əli Qədəmgahı.

**Hacı Arif Buzovnalı**

***

Məhəmməd ümmətinin ən gözəl adı sənsən, ya Əli!
Əbədi hürriyyət üçün hadi sənsən, ya Əli!

Külli kainat səndən alıb haqq dərsini,
Cənabi Cəbrailin ustadı sənsən, ya Əli!

Adəmin, İbrahimin tikdirdiyi Kəbə evi,
Qismətindir, çün onun övladı sənsən, ya Əli!

Xalqımız on iki imama həmişə biət edib,
Fəxridir kim, onların əcdadı sənsən, ya Əli!

Rəbbimiz rəva bilib Fatimeyi-Zəhranı sənə,
Axırzaman peyğəbərin damadı sənsən, ya Əli!

Hər günün ilk cümləsi Allah, Məhəmməd, ya Əli!
Cəmi məzlumların imdadı sənsən, ya Əli!

Mübarək qədəmlərin iz qoyubdur Buzovnada,
Bu yurdi-qədəmgahın abadı sənsən, ya Əli!

Hər zaman məqsudimiz ziyarət etməkdir səni,
Günahkar Bəxtiyarın muradı sənsən, ya Əli!

**Bəxtiyar Ağayar oğlu**
*20.02.2002.*

***

Sovet dövrünün ən mənfi cəhətlərindən biri insanları dindən uzaqlaşdırmaq prinsipi idi. Elə bunun nəticəsi idi ki, ateist tərbiyəsi gəncləri uçuruma yuvarlayır, onları soy-kökündən ayırmağa cəhd edirdi. Lakin yaşlı nəslin bir çox nümayəndələrinin, həyatı daha dərindən dərk edən insanların köməyi ilə Allaha, peyğəmbərə, imamlara, İslam dininə olan inam hissi hər birimizin ürəyində kök salmış, yasaqlar, qorxular, qadağalar bu ali hissi qəlblərdən silə bilməmişdi. Müstəqillik əldə etdiyimiz günlərdən gənclər, yeniyetmələr İslam dinini dərindən öyrənmək məqsədi ilə məscidlərə gedir, dini ədəbiyyatla dərindən maraqlanırlar. Sovet dövründə qorxa-qorxa ziyarətgahlara, məscidlərə gedən zəvvarlar indi sevinə-sevinə buralara gəlir, ibadət edirlər. Bir sözlə, özümüz-özümüzə qayıdırıq.

Azərbaycanda mövcud olan ziyarətgahlar içərisində Buzovnadakı «Əliayağı» qədəmgahının böyük nüfuzu vardır. Xalq arasında qədəmgah barədə müxtəlif rəvayətlər, fərziyyələr vardır. Bu rəvayətlərədən birində deyilir ki, «Hicri tarixi ilə 13-cü ildə Abşerona Ərəbistandan bir dəstə süvari gəlir. Onlar hər yeri gəzir, dolaşır və heç kəslə danışmırlar. Onlardan kim olduqlarını və başçılarının kim olduğu soruşulduqda hər biri özünü başçı kimi təqdim edir.

Həmin dövrdə Badi-Kubədən iki qardaş Məkkə və Mədinə şəhərlərində ticarətlə məşğul imişlər. Qardaşlardan biri gah Məkkədə, gah da Mədinədə qalır, o biri qardaş isə ona alver etməkdən ötrü mal aparıb-gətirirmiş. Kiçik qardaş o dövrün görkəmli adamlarını yaxşı tanıyırmış. Bir gün həmin süvari dəstəsi Buzovna kəndinə, dəniz kənarına gəlmiş, qayaların üstünə çıxmışdı. Kiçik qardaş balıqçılarla söhbət zamanı süvari dəstəsinə, atlılardan birinə yaxınlaşmış, diz çökmüş, «Ya Həzrəti-Əli, siz burada nə edirsiniz?» deyə soruşmuşdur. Bu zaman həmin atlının bir ayağı

yerdə, o biri ayağı üzəngidə idi. O, qardaşdan onu haradan tanıdığını soruşduqda, oğlan tacir olduğunu, onu Məkkə və Mədinə şəhərlərində gördüyünü və oradan tanıdığını söyləyəndə Həzrəti Əli (ə.) ata qalxmış, süvari dəstə ilə birlikdə oradan uzaqlaşmışdı. Dəstə getdikdən sonra qayanın üzərində ayaq izi və at dırnaqlarının yeri qalmışdı.

Həmin süvari dəstəsinin Abşeronda olması barədə daha başqa bir möcüzə də vardır. Bakıda möhtəşəm Qız qalasının cənub divarlarında çıxıntılar vardır. Burada oturan qoca kahinlər süvariləri görən kimi onların səcdə etdikləri atəş sönmüşdür. Bu kahinlər «Tövrat»da və «İncil»də qeyd edilən dövrün, yəni İslam dininin təzahürünü başa düşüb ilk dəfə İslam dinini qəbul etmişlər.

Qədəmgah barədə yenicə eşitdiyim bir rəvayət haqqında da söhbət açmaq istəyirəm. 68 yaşlı riyaziyyat müəllimi Fəridə xanım anası Tuba xanımdan eşitdiyi rəvayəti xatırlayaraq söylədi ki, «Qurani-Kərim»i əzbərdən bilən, İslam dininin bütün qayda-qanunlarına riayət edən anam Cənab Əlinin Abşeronda olması barədə yaşlı nəslin nümayəndələrindən eşitdiyini danışardı. Bir gün Cənab Əli (ə.) Buzovna qayalıqları yanında atını suvarırmış. Bir ayağının atının üzəngisində, o bir ayağının isə qayaların üzərində olarkən naməlum bir şəxs ora gəlmiş, süvariyə belə müraciət etmişdir: «Ya Əli! Bibi-Heybətdə qanlı döyüşlər gedir, özünüzü yetirin!» Atlı öz döyüş dostları ilə bir göz qırpımında buradan uzaqlaşır. Burada olanlar qayaların üzərində bir ayaq izi və at nalının həkk olunduğunun şahidi olurlar. Bu möcüzənin iştirakçıları olan insanlar atlının Cənab Əli (ə.) olduğunu başa düşürlər.

1915-ci il təvəllüdlü Sadıq Hacıdadaş oğlu isə belə bir rəvayət haqqında məlumat verir: «Ulu babam Buzovna sakini Əliyar evlənəndən bir həftə sonra yuxu görür. O, nurani bir qoca tərəfindən yuxulu halda qayaların üstünə gətirilir. Ona qayaların üzərinə həkk olmuş Əli (ə.)-in özünün və atının ayaq izləri göstərilir. Ona bu yerin paklığının qorunması tapşırılır. Hər gün Əliyar kişi bura gəlir, azan çəkir, namaz qılırmış. Əliyar kişiyə şeyxlik rütbəsi verilir. Şeyx Əliyarın başçılığı ilə XIX əsrin 2-ci yarısından bu günə kimi Əli (ə.)-in

özünün və atının ayaq izləri olan yer müqəddəs yer kimi qorunur. Qədəmgahın şöhrəti Azərbaycana, Yaxın Şərq ölkələrinə yayılır. Dünyanın bir çox ölkələrindən bura zəvvarlar təşrif gətirir. Azərbaycandan isə Məşhəd, Kərbəla, Həcc ziyarətinə gələn zəvvarlar qədəmgaha gəlir, namaz qılır, niyyət edir, sonra isə müqəddəs yerlərə yola düşürər. Sağ-salamat qayıdandan sonra isə yenə birinci dəfə bura gəlir, arzularına çatdıqlarına görə Allaha, Peyğəmbərə, Əli (ə.)-ə dualar oxuyur, nəzir paylayırlar.

XIX əsrin 2-ci yarısından bu günə kimi müxtəlif illərdə yerli din xadimlərindən Kərbəlayi Həmzəli, Mola Qulam, Dərviş Əlisöhbət, Dərviş Muradəli, müəzzin Nuhbala Kərbəlayi Qasıməli oğlu, Axund Kamiyab və b. Həzrəti Əli (ə.) qədəmgahında azan və münacat çəkərmişlər.

Məhərrəm ayında başqa məscidlərdə olduğu kimi, burada da İslam dininin alovlu aşiqləri mərsiyə deyib, sinə vurardılar. Məhərrəm ayında zəncirvuranlar dəstəsi zəncir vurur, bu ayın onuncu günü bütün məscid camaatı Əli (ə.) qədəmgahına yığılar, əllərinə şam alıb Şami-Qaribanə gələrdilər. İmamın üçündə qoyunlar kəsilər, ehsanlar verilər, dini-ayinlər yerinə yetirirlər, «Qurani-Kərim» oxunar, mərsiyə və qəsidələr deyilərdi.

Qədəmgaha sidq ürəklə gələnlər Allah təalanın bütün bəşəriyyətə təyin etdiyi məsum İmam Əli (ə.)-in ayaq izlərini öpməklə şəfa tapır, övlad həsrətində olanlar, bəxti bağlı olanlar niyyət edir və tezliklə istəklərinə çatırlar. Buraya gələn zəvvarlar sidq-ürəklə qədəmgahı ziyarət edirlər.

Azərbaycanda çar üsul idarəsinin hökm sürdüyü bir dövrdə qədəmgahın müqəddəsliyini hiss edən çar canişinliyi 10 nəfər ruhaninin şahidliyi ilə 1861-ci ildə 12677 №-li siyahı nömrəsi ilə onu rəsmi qeydə almışdır. Qədəmgaha dini xidmət göstərmək və ona şeyxlik etmək Şeyx Kərbəlayi Əliyarın oğlu Şeyx Hacı Hüseynəliyə vəkalətnamə ilə tapşırılmışdır.*

***Ətraflı bax: Rəfiqə Rəsulqızı. "Buzovna Həzrət Əli (ə) Qədəmgahı "Əliayağı" Məscid-ziyarətgahı", 3-cü nəşr, 2007-ci il.**



**“Əliayağı” və ya Həzrət Əli ibn əbu Talib Qədəmgahı adlanan müqəddəs yerə Şeyx Kərbəlayi Əliyarın oğlu Şeyx Hüseyn Əlinin dini xadim təyin edilməsi haqqında sənəd. Buzovna, hicri-1279, miladi-1861-ci il.**

**Sənədin tərcüməsi:**

**Hicri tarixinin 1279-cu ilində (miladi-1861) verilmiş təşəkkürnamə**

Bütün mömin müsəlmanlara məlum olsun ki, Rəhmətlik Şeyx Kərbəlayi Əliyarın oğlu Şeyx Hüseyn Əli öz atasının təyinatı ilə Buzovna qəsəbəsində yerləşən "Əliayağı" və ya Həzrət Əli ibn əbu Talib Qədəmgahı adlanan müqəddəs yerə dini xadim təyin edilmişdir. Şeyx Hüseyn Əlinin bu müqəddəs yer üçün gördüyü işlər günəşin mövcudluğu kimi (gün kimi) hamıya məlumdur. Bütün bu xidmətlərin ixtiyar sahibi məhz Şeyx Hüseyn Əlidir (xidmət hüququ yalnız Şeyx Hüseyn Əliyə məxsusdur) və əgər kimsə onun xidməti işlərinə müdaxilə etməyə və ya adı çəkilən Şeyxin xidmət hüququna qəsb etməyə cəhd göstərərsə, həmin şəxs lənətlənmiş və inamından dönmüş hesab edilir. Bundan əlavə biz, Buzovna sakinləri, təsdiq edirik ki, adı çəkilən Şeyx "Həzrət Əli Qədəmgahı"nın layiqli xadimidir və kim ki, bu təşəkkürnaməni öz imzası və möhürü ilə təsdiq edərsə, o kəs Allahın və onun Peyğəmbərinin mükafatından və xeyir-duasından kənarda qalmayacaq və şübhəsiz yaxşılıq edəcək və bu da yaxşı əməl hesab ediləcək. Hicri tarixi 1279-cu il, Rəbiəs-sani ayının 11-i (miladi tarixi ilə 1861-ci il. Tərcüməçi).

Kim ki, Şeyxin xidmətlərinə əngəl törətməyə cəhd edərsə, şübhəsiz o, bunu Şeyxə qarşı etmiş olacaq. Şəriət qanunlarının həyata keçirilməsi vəzifəsini icra edən və fars dili müəllimi, vətəndaş Hacı Mir Yaqub Hacı Seyid Əhməd oğlu. Möhür: "Hacı Mir Yaqub Hacı Seyid Əhməd oğlu". Bu təşəkkürnamə mənim iştirakımla tərtib olunmuşdur. Şəxsi möhür: "Abdul Mütəllib". Mənim iştirakımla tərtib olunub. Şəxsi möhür: "Abdul Səməd". Bu şərəfli hadisə mənim iştirakımla baş verdi. Şəxsi möhür: "Hacı Molla Qasım". Bu sənəd mənim iştirakımla tərtib edilib. Şəxsi möhür: "Seyid Yusif Seyid Aslan oğlu". Bu möhtəşəm hadisə mənim iştirakımla baş verdi. Şəxsi möhür: "Hacı B." Bu sənədin doğruluğuna heç bir şübhə yoxdur.

Kərbəlayi Məsum Dadaş oğlunun, Hacı Qulu Novruz Qulu oğlunun, Hacı İlyas Ələkbər oğlunun, Kərbəlayi Əmir Həmzə Məhəmməd oğlunun, Hacı Əli Məhəmməd Kərbəlayi Əli oğlunun, Hacı Hüseyn və Şah Muradın (söz aydın yazılmayıb) savadsız olduqlarına görə mən, Hacı İslam Əli İmanqulu Maştağalı, onların əvəzinə imza

edirəm.

Ərəb-fars dilindən rus dilinə tərcümə etdi: zadəgan Mustafa bəy ibn Mirzə Cabbar bəy Əlibəyov.

Mən, aşağıda imza edən və Bakı Natariusu Lev Ernestoviçin vəzifəsini icra edən, Mixail A.Sarumov, təsdiq edirəm ki, bu sənəd mənim iştirakımla Bakı şəhərində yaşayan zadəgan Mustafa bəy ibn Mirzə Cabbar bəy Əlibəyov tərəfindən şəhərin 5-ci hissəsində (küçənin adı aydın oxunmur) Musa Nağıyevin evində fəaliyyət göstərən kontorda (idarədə) şəxsən tərtib edilmişdir. Avqustun 9-u 1916-cı il.
***Reyestr üzrə Natarius vəzifəsini icra edən M.Sarumov.***

***

Sovet dövründə, xüsusilə, 30-cu illərin kütləvi repressiyası zamanı bir çox dini, tarixi abidələr məhv edilmişdir. Lakin «Əliayağı» qədəmgahını məhv etməyə gücləri çatmamışdır. Qədəmgahı dağıtmaq, onu yerlə-yeksan etmək üçün göndərilən şəxslər Əli (ə.)-in bəlasına düçar olmuş, beləliklə, bu dini abidə məhv edilə bilməmişdir. Sovet dövründə dini bayramları qeyd etməyə icazə verilmədiyi üçün əziz günlərdə qədəmgaha polis işçiləri göndərilir, insan axını buraya gəlib ziyarət etmələrinə maneçilik törədirdi.

1987-ci ildə Buzovna «Məşhədi Qərib» məscidinin rəisi Xosrov Kərbəlayi Xudabəxş oğlu və Axund Hacı Kərbəlayi Soltan ağanın təklifi ilə Həzrəti Əli (ə.) qədəmgahını bərpa etmək və yenidən qurma işlərini aparmaq üçün Buzovnalı Məşhədi Arif Əhməd oğlu buranın şeyxi təyin olunmuşdur. Məşhədi Arifin, başqa ruhanilərin və kənd camaatının köməkliyi ilə Həzrəti-Əli (ə.) qədəmgahında yenidənqurma və bərpa işləri aparılmağa başlanılmışdır. Bu xeyirxah iş xalqımızın övladlarının maddi və mənəvi köməyi nəticəsində başa çatmaq üzrədir. 10 il ərzində Hacı Arifin köməkliyi ilə burada məscid, dərs otaqları, zəngin kitabxana və qiraətxana, sallaqxana, qaraj, dəstəmazxana və s. Xidmət otaqları tikilib istifadəyə verilmişdir.

Hal-hazırda «Əliayağı» məscid-ziyarətgahı Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında dini işlər şurası tərəfindən 63 №-li əmrlə qeydə alınmış, qeyri-siyasi hüquqi təşkilat statusu almışdır. Onun hüquqi təşkilat varlığının ünsürləri olan, üstündə ərəb

və latın dillərində Həzrəti-Əli (ə.) qədəmgahı «Əliayağı» məscid-ziyarətgahı sözləri yazılmış və Həzrəti-Əli (ə.) qədəmgahının təsviri həkk olunmuş möhürü, ştampı, blankı və vəsiqəsi vardır.

Beləliklə, bir daha bizə aydın olur ki, bu gün də Əli (ə.) sevgisi hər bir müsəlman olan millətlərin dilinin əzbəri, ürəyinin şərbətidir. Çünki əvvəlinci imam Əli (ə.) öz fəaliyyəti, mənəvi batini və zahiri aləminin gözəlliyi və yüksək dini nüfuzu, xariqüladə bilik və istedadı, insansevərliyilə əsrlər keçdikcə müqəddəslik dərəcəsinə yüksəlmişdir. Əli (ə.)-in ölməz kəlamları əsl insanlar üçün həyat amili olaraq onların həmişə köməyinə gəlir, onun adına verilən ehsanatlar, xüsusilə «Əli süfrə»ləri onun şərəfini bir daha ucaldır, bir çox İslam ölkələrində keçirilən beynəlxalq elmi konfranslarda Əli (ə.)-in adı xatırlanır, əzizlənir, öyrənilir və tədqiq olunur.

Əli (ə.)-da elə bir cazibə qüvvəsi vardır ki, bu cəzbetmə bütün əsrlərdə öz təsirini göstərməkdədir. «Əliayağı» qədəmgahında dəfələrlə olduğum müddətdə bu cazibənin canlı şahidi oldum. Qədəmgah hər gün zəvvarlarla dolu olur. Bu insanlar həqiqi Əli (ə.) aşiqləri, Əli (ə.)-i sevənlərdir. Əli (ə.) qədəmgahına gətirilən nəzirlər qəsəbənin aztəminatlı şəhid ailələrinin və yoxsul fəqir füqəranın, kimsəsizlərin ehtiyacını ödəyir. Elə bu Əli (ə.) və «Əliayağı» qədəmgahının cazibəsindən, səxavətindən söhbət açır. Bütün əsrlərdə olduğu kimi müasir dövrdə də Əli (ə.) köməyinin və Əli (ə.) kəramətinin faydasının təsiri görünür.

Onu da nəzərlərə çatdırmalıyam ki, son illər ərzində QMİ sədri Şeyxülislam Hacı Allahşükür Paşazadə cənablarının təşəbbüsü və xüsusi göstərişləri əsasında Əli ayağı ziyarətgahında aparılan abadlıq işləri, məscid və qədəmgahın əsaslı təmir olunması, zəvvar otaqlarının genişlənməsi və s. bu kimi xeyirxah addımlar əvəzolunmaz xidmətlər və ən savab işlərin həyata keçməsindən xəbər verir.

Yeri gəlmişkən bildirəliyəm ki, hörmətli Şeyximiz təkcə Əli ayağı ziyarətgahını deyil Buzovna kəndinin digər məscid və ocaqlarının inkişafına dair öz tövsiyələrini vermiş və öz faydalı məsləhətləri ilə xeyir dualarını heç vaxt əsirgəməmişdir. Buna görə də Buzovna camaatı həmişə ona öz təşəkkür və minnətdarlığını bildirirlər.

1990-cı ildən Hacı Arif Əhməd oğlu tərəfindən «Əliayağı»

ziyarətgahında təşkil olunan «Rəy kitabı» mənim diqqətimi cəlb etmişdir. Haçansa bu xatirə kitabının çap etmək barəsində düşünürdüm. Bu yaxınlarda qədəmgahın axundu Hacı İlham Səlimov bu kitabın tərtib edilib çap olunmasının mənə həvalə edildiyini deyəndə artıq bu məsuliyyətli işdən boyun qaçırmağı özümə rəva bilmədim. «Əliayağı»ındakı bu «Rəy kitabı»nın və zəvvarların bura yazdığı ürək sözlərini, xatirələri olduğu kimi nəşr edib xalqa çatdırmaq ən savab işlərdən biridir. Həm də bu Rəy kitabı İmam Əli (ə.)-a olan xalq məhəbbətinin təzahürüdür və bu müqəddəs iş gələcək nəsillərimiz üçün bir əvəzolunmaz töhfə, ziyarətgahın özü üçün isə bir tarixi sənəddir.

İlk öncə Respublikanın Prezidenti mərhum Heydər Əliyev cənablarının 1994-cü il Buzovnada olması və qədəmgahı ziyarət edib həmin rəy kitabına yazdığı ürək sözlərini diqqətinizə çatdırırıq:

***"Bu gün Ramazan bayramı günü bu müqəddəs yeri ziyarət etməyimdən çox məmnunəm. Bu ibadətgahı qoruyan, saxlayan və abadlaşdıran vətənpərvər müsəlmanlara hörmət və ehtiramımı bildirirəm.***

**Bayramınız mübarək olsun!**

*Azərbaycan Respublikasının Prezidenti*
*HEYDƏR ƏLİYEV*
*14.03.94"*

Beləliklə, cənab prezidentin İmam Əli (ə.)-ın qədəmi-şərifini ziyarət edib möminlərlə görüşməsi, onları Ramazan bayramı münasibətilə təbrik etməsi, xatirə kitabına ürək sözlərini yazması və burada xidmət edənlərin zəhmətini qiymətləndirməsi uzun illər Sovetlər dönəmində bu müqəddəs ocağa qoyulan qadağalar, təzyiqlər, hətta ateistlər tərəfindən olunan ifşaların hamısına mükəmməl bir etiraz, tutarlı bir cavab idi.

Hörmətli Şeyxülislam Hacı Allahşükür Paşazadə cənabları Prezidentin bu müqəddəs məkanı ziyarət etməsini ikinci bir bayram sayaraq möminlərin adından təşəkkürünü bildirib Allah təalanın dərgahına dualar oxudu:

**"Bismillahir-rəhmanir-rəhim!**

Camaat! Həqiqətən bu gün bizim üçün bayram idi. Amma ikinci

bir bayram da oldu. Prezidentimizin Həzrət Əli (ə.)ın Qədəmgahına gəlməsi, yəni haqqin yolunda haqqin tərəfdarı olan və haqqin mübarizi olan Həzrət Əli (ə.) kimi şəxsiyyətə ehtiram eləmək, bu bütün xalqa ehtiram etmək deməkdir. Bu bir Buzovna əhlinə deyil, bütün Azərbaycan xalqına olan ehtiramdır. Əlbəttə, bundan qabaqlarda da biz bayramlar görmüşdük. Harda olub ki, Prezident gəlib özü zəkat versin, ziyarət etsin?! Allah-təala bizə böyük bir nemət vermişdir... Allah-təala ona can sağlığı versin. Çünki, onun sağlamlığı bütün millətin sağlamlığıdır.

Biz bütün camaat adından ona təşəkkürümüzü bildiririk. Allah-təala onun özünü və ailəsini salamat eləsin."

Sonra Şeyxülislam həzrətləri ziyarətgahın mütəvəllisi Şeyx Arifin zəhmətlərini yüksək qiymətləndirib ona razılığını bildirdi: "Həqiqətən də Şeyx Arifin bu Qədəmgahda böyük zəhməti var. Allah-təala ona cansağlığı versin. Belə şəxslər bizim üçün müqəddəs şəxslərdir ki, bugünkü gündə yetimlərin atasıdır və burada bu gözəl şəraiti yarada bilmişdir...

Bu, bir daha onun düzgünlüyünü, saflığını, imanını göstərir. Allah ona cansağlığı versin" *(Şeyxülislam Hacı Allahşükür Paşazadə cənablarının çıxışından. Buzovna, 14 mart 1994-cü il).*

Çox maraqlı bir mətləbi də burada qeyd etməliyəm ki, mərhum prezidentimiz Heydər Əliyev cənabları Əli-ayağına ziyarətə gələndə yol üstü Buzovna qəsəbəsinin mərkəzində yerləşən uzun illər sovet dövründən maqazinə çevrilmiş və tikintisi yarımçıq qalmış «Cümə» məscidini də diqqətdən kənarda qoymamış, gələcəkdə dövlət tərəfindən bu məscidin bərpa olunması haqda öz rəyini bildirmişdir.

Nəhayət Buzovna Məşhədi-Qərib məscidinin dindarlarının «Heydər Əliyev» fondunun prezidenti, hörmətli Mehriban xanım Əliyeva müraciətindən sonra «Cümə» məscidi dövlət tərəfindən əsaslı şəkildə yüksək səviyyədə bərpa olub dindarlara təhvil verildi. 2009-cu ildə mərhum prezidentimizin bu arzusu «Heydər Əliyev» fondu tərəfindən həyata keçirildi. Bu xeyirxah işə görə Buzovna qəsəbə sakinləri dövlətimizin başçısı İlham Əliyev cənablarına və onun ailəsinə həmişə Allah-taaladan xoşbəxtlik və səadət arzulayırlar. İndisə bəzi nümunələri nəzərdən keçirək:

**Seyyid Mahmud Mərəşi Nəcəfi ağanın ürək sözləri:**

«Allahın adı ilə.

Allaha həmd və sənadan sonra: hüccətül-islam, Şeyxülislam Paşazadə həzrətlərinin həmçinin Azərbaycan Əlyazmalar İnstitutunun dəvəti ilə birgə yolumuz Bakı şəhərinin Buzovna qəsəbəsinə düşdü. Bu qəsəbədə Əmirəl-möminin Həzrət Əli (ə.)-nin mübarək qədəmini və orada inşa edilmiş məscidi ziyarət etdik. Ümidvarıq ki, Uca Allah müsəlmanları daha da birləşdirib kafir, əcnəbi və istismarçıların əllərini müsəlman millətlərinin başı üzərindən uzaqlaşdırsın. Müsəlmanların tezliklə dünya küfrünə qalib gəlmələrini arzu edir, İmam Xomeyni həzrətlərinin və İslam şəhidlərinin ruhlarına salam və salavat göndərirəm.

**Seyyid Mahmud Mərəşi Nəcəfi**

*Ayətullahül-üzma Mərəşi Nəcəfi kitabxanasının müdiri,*
*Şeyxül-islam Hacı Allahşükür Paşazadə cənabları ilə.*
*QUM – İRAN*
*1369 Azər ayının 5-i.*

**Seyyid Rəzi Vəhidi ağanın xeyir dualarından:**

**Bismillahir-rəhmanir-rəhim!**

1418-ci hicri qəməri ilinin Səfər ayında (1376 Xordad ayında) Atam Həzrət Ayətullahül-üzma Seyyid Məhəmməd Vəhidinin əmri ilə Azərbaycan respublikasında dini məsələlər ilə yaxından tanış olmaq məqsədi ilə Əli Saib cənabları ilə birgə bu ölkəyə səfər etdik. Burada olduğumuz müddətdə hüccətül islam Muradı ilə birgə bu qədəmgahı ziyarət etməyə və mömin qardaşlarla birgə zöhr namazını qılmağa müvəffəq olduq. Bu böyük nemətə görə Allaha şükr edir və ulu Tanrıdan bütün möminlərə xüsusilə bu diyarın möminlərinə uğurlar diləyirəm.

SEYYİD RƏZİ AYƏTULLAHZADƏ VƏHİDİ

**Hüccətül islam vəl müslimin Yusifpur ağanın qeydlərindən:**

«Mən Əbdürrəhman Yusifpur 1993-cü il orucluq və Məhərrəm aylarında yer üzündə İrandan sonra ikinci şiə ölkəsi sayılan Azərbaycana səfər etdim. Azərbaycanın çox yerlərini gəzib Buzovna

kəndinə gəldim. Hacı Soltan kəndin axundu, Hacı Arif isə «Əliayağı» ziyarətgahının rəisidir. O biri qardaşlar məscid və məktəblərdə zəhmət çəkirlər. Buzovna əhlini çox mehriban gördüm.

**Hacı Əbdürrəhman Yusufpur**

6.07.93.

Yazıçı Əlibala Hacızadənin qeydləri marağıma səbəb oldu. «Mən torpağımızın müqəddəs ocaqlarından olan məşhur «Əliayağı» pirini ziyarət etməklə, özümdə daxili bir könül rahatlığı tapdım. Bu rahatlığı kəsdiyim qurban bir az da artırdı».

Vahid Hüseyn Şərif yazır: «Bu müqəddəs yeri ziyarət edib həyatımın ən xoşbəxt günlərindən birini yaşayıram».

Əhməd Azərlinin təəssüratı: «Mən Təbrizdən ziyarət üçün «Əliayağı» qədəmgahına gəldim. Ümidvaram bütün dindarlarımız Əli sevərlərimiz bu ziyarətgaha gəlib buranı ziyarət edəcəklər. Qoy Əli (ə.) xatirinə bütün İran və Azərbaycan xalqı hər zaman Allahın adı ilə birləşsin».

Əli İlhan öz ürək sözlərini belə ifadə etmişdir: «Həzrəti-Əli Efendimizin ayağının izini görmək kibi bir bahtiyarlığa yetişdiyim üçün Allaha şükürlər olsun».

Əli (ə.)-nin adı qəlblərdə əbədiləşdiyi kimi, müsəlman bəndələrinin də dilinin əzbəridir. Ata və analar öz əziz övladlarına onun adını verməklə bir daha Əli (ə.)-yə olan məhəbbətlərini izhar edirlər. Bu gün həyatımıza, məişətimizə daxil olan «Ürəyində Əli rəhmi var», «Üzündə Əli nuru var», «Əli köməyin olsun» və s. bu kimi ifadələr xalqın dilində artıq zərb-məsələ çevrilmişdir. Bu zərb-məsələlər xeyirxah, nəcib, ürəyi açıq, bir sözlə batin və zahir aləmi gözəl olan insanlara şamil edilir.

Tarix sübut etdi ki, istər sovet dövründə, istərsə də müstəqillik əldə etdiyimiz illərdə dinə olan inam hissi insanların ürəyində özünə əbədi yer qazanmış, bu ülvi, müqəddəs hissi heç kəs qəlblərdən qoparıb çıxara bilməmişdir. Buzovnada yaşadığımdan, gündəlik müşahidələrimdən aydın olur ki, hər gün «Əliayağı» qədəmgahına onlarla, bəlkə də yüzlərlə adam gəlir, bu sirli-sehirli dünyanın seyricisinə çevrilirlər. Hamı qədəmgahın bərəkətindən, məhəbbətindən pay umur, arzu və istəklərin çin olmasını ulu Tanrıdan, Əli

(ə.) xatirinə diləyirlər.

Yuxarıda bir qismini qeyd etdiyimiz Qədəmgahı ziyarətə gələn zəvvarların xatirə kitabına yazdıqları ürək sözlərindən olan nümunələri olduğu kimi kamil şəkildə nəşr edib oxuculara təqdim etmək arzusunda olduq. Buna görə də Allahdan Əli (ə.) xatirinə kömək diləyib bu məsuliyyətli işə iqdam etdik. Onu da nəzərlərə çatdırmalıyam ki, rəngarəng gözəlliyə malik olan bu rəy kitabında müxtəlif xalqların nümayəndələrinin arzu və istəkləri, təşəkkür və minnətdarlıqları əziz oxucularımız üçün maraq doğuracaqdır. Burada ərəb, fars, ingilis, fransız, alman, hind, çin, türk, rus və Azərbaycan dillərində yazılmış xatirələr və İmam Əli ə. Haqda bir qism bənd, beyt, misra şəklində olan şeir nümunələri də çox diqqətə layiqdir. Ümid varam ki, bu maraqlı rəy kitabı Qədəmgah kimi müqəddəs bir məkana, onun tarixinə, keçmiş və gələcəyinə yeni bir abü həva, yeni bir əzəmət bəxş edəcəkdir. Allah sübhanəhu təbarək və təalanın izni və tofiqi ilə. Allah gələcək günlərimizi xeyirli etsin. Vətənimizin başı üstdən qara buludlar çəkilsin. Qarabağ azad olsun, əsgərlərimiz qələbə çalsın. Müsəlmanlar Müzəffər olsun. İslamın bayrağı göylərə ucalsın, İnşaallah.

***Vəssəlamu əleykum və rəhmətullahi və bərəkatuh.***

## ƏLİ AYAĞI

Allah dostu İmam Əli nişanəsidir,
Əsrlərin sədasıdır, Əli ayağı,
Məhəbbətin mərhəmətin paylanan yeri,
İmamətin nidasıdır, Əli ayağı.

Bu məbədlər olmasaydı bu fani cahan,
Dağılardı haramlardan bir də günahdan.
Gəlir bura murad üçün nicatçün insan,
Dərdlilərin dəvasıdır, Əli ayağı.

Ağam Əli burda qoyub yerə qədəmin,
Bir qədəmlə dadə yetir şahı aləmin,

Gəl ey insan zəvvarı ol, at qüssə qəmin,
Göyün yerə şüasıdır, Əli ayağı.

Hər müşküli həll olacaq cümlə cahanın,
Çünki bura məskənidir İmam Zamanın,
Gəl Əlinin qonağı ol, şahi-mərdanın,
Zikri, sözü duasıdır, Əli ayağı.

Gəl heyran ol bu məkan da cəlal büsata,
Günəş kimi işıq saçır buy er həyata,
Gəlsin kimin aclığı var mənəviyyata,
Canın ruhi qidasıdır, Əli ayağı.

Allahından istə Soltan varsa muradın,
Gör Allahın qüdrətinin yerdə icadın,
Bu yerdə gəl çək sidqilə o şahın adın,
Bəşəriyyət şəfasıdır, Əli ayağı.

**İstifadə olunmuş ədəbiyyat:**

1. Ustad şəhid Mürtəza Mütəhhəri. «Əli. ə-ın cazibə və dafiəsi». İran, 1994.

2. Buzovna, «Əliayağı» qədəmgahının rəy kitabı, 1990 – 1410.

3. Buzovna, Həzrət Əli (ə.) Qədəmgahı, «Əli ayağı» məscid-ziyarətgahı, Bakı, 1992, 2001.

4. Buzovnalı Məhəmməd İsmayıl Asi, «Divan», Bakı, 1997.

5. H.Mahmudov, Z.Atakişiyev. “”Asiyanın ürəyi“, Bakı, 1990.

6. Ülviyyə Niyazova «Azərbaycanda Həzrət Əli ə. Sevgisi». 1999.

7. Möhsün Nağısoylu. «Həzininin «Hədisi-ərbəin» tərcüməsi. Bakı, Nurlan, 2008.

8. Axund Hacı Soltan, «Yaşamaq, yaşatmaq, yaratmaq», Bakı, 1999. «Mən Əli (ə.) Şairiyəm». Bakı, 2008; «Azərbaycanda Həzrət Əli (ə.) qədəmgahları və ziyarətgahları», Bakı, 2011.

# ZİYARƏTGAH ZƏVVARLARIN GÖZÜ İLƏ
(Rəylər. *Azərbaycan dilində*)

**Bismillahir-rəhmanir-rəhim.**

***Tək, bir olan Allah, sən bizim fikrimizə rişə saldın ki, bu kitabı tərtib etdik. İndi isə əqlimizi ziynətləndir ki, öz məqsədimizi zəvvarlara aydınlaşdıra bilək.***

***Bu kitabı tərtib etməkdə məqsəd, Buzovna kəndində Həzrət Əli əleyhissəlamın «qədəmgah-şərif» ilə əlaqədar, xalq arasında nəsildən-nəsilə keçən, çoxu yaddan çıxıb, az hissəsi qalmış məlumatları toplamaq, onları gələcək nəsl üçün bir toplu halına salmaq, tariximizin, dinimizin yaddan çıxmasının qarşısını almaqdır.***

***Buzovna «Əli ayağı»na gələn zəvvarlardan təvəqqe olunur ki, «qədəmgah-Əli» haqqında oxuduqlarını, qocalardan – baba və nənələrdən eşitdiklərini bu kitabda qeyd etsinlər və onların kimlər tərəfindən söylənildiyini və tarixi haqda da qeyd etməkləri yaxşı olardı. Buzovna «Əli ayağında» hal-hazırda «qədəmgahın» şeyxi olan Məşədi Arifin bilavasitə səyi və rəhbərliki ilə görülən abadlıq işləri də, neçənci ildən başladığı və kimlər tərəfindən aparıldığını (kömək edən şəxslərin adları da) yaddaş kitabında qeyd edilməsi məqsədəuyğun olardı. Bu, gələcək nəslimizə çatdırmaq istədiyimiz dinimizin və abidələrimizin kiçik bir tarixi olacaqdır. Bu kitabın tərtibatında və yazılışlarında yol verilən səhvlər yəqin ki, öz əksini tapacaqdır və ümidvarıq ki, bundan sonrakı kitabın səhvsiz düzəlişinə sizin köməyiniz olacaqdır.***

***Bu kitabda öz bildiyini, eşitdiyini və «qədəmgahı» necə görmək istədiyini zəhmət çəkib yazan zəvvarlara öz minnətdarlığımızı bildiririk.***

***Allah sizin ziyarətinizi qəbul etsin!***

***

## AZƏRİ QIZI MƏHBUBƏ XANIMA

Həzrət Əli dostu, həm də aşiqi,
Qəlbində yurd salıb Əlinin eşqi.
Atalar məsəli yaddan pozulmaz,
Aslanın erkəyi dişisi olmaz.
Həyatda az olur sən kimi övlad
Əli qədəmgahında qoydun gözəl ad
Sən İslam dininin bəxtəvər qızı
Gecə çıxan ayın parlaq ulduzu
Qədəmgahda çəkdiyin bu qədər zəhmət
Saqkən qazanmısan özünə rəhmət
Öz eşqinlə verdin sən bura ziynət
Ancaq Hatəmdə olub böylə saxavət
Sənin bu eşqinə məhəttəlik biz,
Qəlbimizdə qoydun pozulmaz bir iz.
Kim diqqət yetirə o çarhavuza
Mütləq söyləyəcək əhsən bu qıza
On dörd əsr tarixi eylədin təzə
Təzə sətir yazdın tariximizə
Öz əlinlə yandırdın Sən öz çırağın
Aləmə yayılacaq sənin sorağın
Səndəki var bu qədər eşq məhəbbət
Sənin tərbiyəçin ustadə rəhmət.
Koroğlu Nigarı Nəbi Həcəri
Azəri xalqının dillər əzbəri
Ya Reyhanla Məhsəti, birdə Natavan,
Onlarla dayandın Sən də yanbayan.
Onlar igidlikdə ya şeriyatda
Səndə onlardan ucasan vallah həyatda
Məhbubə xanımla o Qulu qardaş
Mehriban aləmdir bir-birinə sirdaş
Qədəmgahın rəisi Şeyx Məşəd Arif
Qəti o xoşlamır edəsən tərif

Ailəliklə burada edirlər xidmət
Bunlar bu xidmətə ediblər adət
Qocalar evinə o tez-tez gedir
Müsəlman ölübsə onu dəfn edir
Sadə bir insandır mülayim xasyət
Gələn zəvvarlara göstərir xidmət
Qalan işçiləri etmirəm inkar
Onlarında burada çox zəhməti var
Qonaqlar üçün tikilib bir neçə otaq
Ətrafında əkilib gözəl bağca bağ
Ziyarətə gəlir hər cürə millət
Günü-gündən artır burdakı şöhrət
Daim uzaq olsun sizdən qəm kədər
Ailəniz görməsin heç bir dərdi sər
Deməyə yazmağa nə qədər söz var
Sizə köməy olsun o pərvərdiyar
Bu rəy kitabında necə müctəhid
Öz dəst xətdilə eyləyib kətb
Xoşhalın sözləri yetdi tamamə
Sizi tapşırıram on iki İmamə

**Qədirov Balahüseyn Lütfəli oğlu «Xoşhal»**
*Buzovna kənd sakini*
*2.XII.1990*

***

Mən özümü iki qat xoşbəxt hiss edirəm.

Evdən çıxarkən fikirləşirdim ki, görəsən mən namazı harda qılacağam. Sən demə Allahın evində qılacağammış.

İkinci: Özünü Əlinin qulu hesab edən Məşədi Ariflə tanışlığım. Arif böyük şəxsiyyətdir. Ona bu yolda müvəffəqiyytlər arzulayıram. Hər kəs Məşədi Arifin bu yoluna keçsə, qoy bu Əli ayağı ocağı o, adama qənim olsun.

**Şəmiyev Qulu X.o.**
*Hacıqabul r-nu Muğam qəsəbəsi*
*20.IX.1991-ci il.*

***

Bakının gözəl guşələrindən birini Buzovna kəndini ziyarət etdim.

Həzrət Əlinin ayağında hörmətli hacılarla kəndin problemləri ilə məşğul olduq.

Gələcəkdə görülən işlərlə hökumət məşğul olub, bütün məsələlərin həllində köməklik göstərəcək.

Bütün kənd əhalisinə can sağlığı arzulayıram.

Hörmətlə,

***Azərbaycan Respublikasının Baş Naziri*** **R.Hüseynov**

*17.VIII.1992.*

***

**Bismillahir-rəhmanir-rəhim! Ulu Tanrının adı ilə!**

Corat qəsəbəsindən Əli Əmirəlmömininin ayağı dəymiş müqəddəs Buzovna torpağındakı abad ziyarətgahda namaz qılmaq mən Şahismyıl Hacı oğluna müyəssər oldu. Mənə bu fürsəti salan Allahtalanın gül camalına həmd və sənalar olsun. Ürəyimdə bu gözəl ocağı abadlaşdırıb bu vəziyyətə gətirənlərə bir ilahi məhəbbət oyandı. Xüsusilə Şeyx Məşədi Arif həzrətlərinin səyi məni hədsiz dərəcədə məmnun etdi. Ən gözəl dini şiə əhli olan Buzovna camaatı, onların dinimizin əvvəlinci qəbul edənlərdən olan Əli Əmirəlmömininin ocağını belə əziz tutmaları bu torpağın oğlu kimi qəlbimi fərəh hissi ilə doldurdu. Qardaşım Rəhimağanın təşəbbüsü ilə yaranan kitabxana qoy müsəlman dünyasının ən böyük və müqəddəs kitablarının qoruyucusu olsun. Müsəlman mədəniyyətinin inkişafı, gələcəkdə burada təməli qoyulan müqəddəs mədrəsənin başlanğıcı hesab olunsun (amin). Bu müqəddəs ocağa gələnlərin niyyəti qəbul olunsun (amin). Düşmənlərimizin gözü kor olsun (amin). Hal-hazırda böyük müsəlman dünyasında böyük addımla dilinə, dininə tapınma gedir. Təbarək təala bu işdə yardımçımız olsun. Məhəmməd (ə.s.) buyurduğu kimi, bizim ən xeyirlilərimiz Quranı öyrənən və öyrədənlərdir. İşiniz avand, ziyarətiniz qəbul olsun (amin)!

**Şahismayıl Hacıoğlu**

*Sumqayıt, Corat qəsəbəsi, Məhəllə 72, ev 55, 27 Ramazan Əhya günü, 1992-ci il*

***

Müsəlman dünyasında məşhur olan Əliayağını ziyarət etmək mənə də qismət oldu.

Əli ayağını yüksək səviyyədə abad etmiş bütün qardaşlara öz minnətdarlığımı bildirir və onların valideynlərinə min dəfə rəhmət oxuyuram.

Buzovna əhlisinin gələcək xoş niyyətlərini alqışlayır və onlara uzun ömürlər arzu edirəm.

*Xoş arzu və diləklərlə Məşədi* **Budaq Budaqov** *(Akademik)*
*Tibb elmlər doktoru, professo*r **Rafiq Mirzəbala oğlu Yusifli**

***

**Allahın adı ilə**

Bu ziyarətgah Azərbaycanda İslamın inkişafının böyük səbəbi olsun. İnşaallah. Bir neçə il bundan qabaq uçuq və balaca bir ziyarətgahın indi çox böyük bir ziyarətgaha çevrilməsinə çox sevindim. Bu işdə böyük zəhmətləri olan Məşədi Arifə öz təşəkkürümü bildirirəm. Müzdüni Allah, Mühəmməd və Əlinin özü versin.

Nola bir millətimiz üz tuta quranə tərəf
Yetər axir aparırlar bizi şeytanə tərəf
Bəsdi kafər sözünə ləbbey edib xar olduq
Vaxtıdır indi dönəy sidqilə iymanə tərəf

**Məşədi Yaşar Cahid Nardarani**
*22.XI.1992-ci il*

***

Həzrət Əli qurban olum sənin ziyarətgahına nə qədər ziyarət ocaqların gəzmişəm bu ziyarətgah kimi gözəl məkan görməmişəm. Burda olan hörməti zəvvarları qarşılamaq üçün mədəni rəftarı heç bir yerdə görməmişəm. Burada işləyən işçilərə də hörmət və ehtiramımı bildirirəm.

Sizə Əlibayramlıdan gələn zəvvarlar adından minnətdarlığımızı bildiririk.

**Zaidova Gülbəniz**
*22.05.1993.*

***

***

***Bu gün, Ramazan bayramı günü, bu müqəddəs yeri ziyarət etməyimdən çox məmnunam. Bu ibadətgahı qoruyan, saxlayan və abadlaşdıran vətənpərvər müsəlmanlara hörmət və ehtiramımı bildirirəm.***

**Bayramınız mübarək olsun!**

*Azərbaycan Respublikasının Prezidenti*

**Heydər Əliyev**

*14.III.94.*

***

Mən Əbdürrəhman Yusufpur 1993-cü il həm orucluqda və həm məhərrəmilikdə Azərbaycan ölkəsinə ki, yer üzündə İrandan sonra ikiminci şiə məmləkətidir müsafirət etdim və Azərbaycanın çox yerlərin dolanıb və Buzovna kəndində Hacı Soltan məhəllin axundu və Hacı Arif «Əli-Ayağı»nın rəisi və o biri qardaşların məsciddə və məktəblərdə xidmətlərinə yetişdik və Buzovna əhlini çox mehriban gördüm.

**Hacı Əbdürrəhman Yusufpur**

*6.07.93.*

***

**Bismillahir-rəhmanir-rəhim!**

Bu gün biz – Qəbələdən gəlmiş qonaqlar Həzrət Əliayağı ziyarətgahını ziyarət etdik.

Bura bizə hədsiz dərəcədə yaxşı təsir bağışladı. Biz burada müsəlman dünyasının ən gözəl adət-ənənələrinin yaşadığının şahidi olduq. Otaqlar, həyətin tərtibatı səliqə-səhman bizi valeh etdi. Ziyarətgahda zəhməti olan bütün adamlara ürəkdən «çox sağ olun» deyirik.

Allah Sizə yar olsun!

Qoy bu ziyarətgaha gələnlərin arzuları, ümidləri həmişə çiçək açsın! Gələn qonaqlar adından

**Qasımov Hüseynağa Şərif oğlu**

*Qəbələ rayonu Vəndam kəndi*
*2№-li orta məktəbin direktoru*

*9.IX.93*

***

**Hörmətli Hacı Arif Əhməd oğlu!**

Məşədi Rəna və onun nümayəndəliyi altında olan 20 nəfər mömin bacı və qardaşlar tərəfindən öz təşəkkürümüzü bildiririk. Xudavəndi-Aləm Sizin kimi mömin, imanlı insanları bizim üstümüzdən əskik etməsin.

İlahi Amin! İmanınız Kamil olsun!

Mənim Azərbaycan qadınlarına tövsiyəm budur ki, Həzrət Fatimeyi-Zəhra (s.)-nın davamçısı olsunlar.

**Rəna,**
*13.04.1994.*

***

**Bismillahir-rəhmanir-rəhim!**

Aprel ayının 17-də biz – «Vəhdət ocağı» İran-Azərbaycan birgə müəssisəsinin Azərbaycandakı səlahiyyətli nümayəndəsi doktor Əli Əkbər Hüseynxani, cənab Hacı Kərim, «Kitab evi»nin direktoru Nizami Ramanalı və mən torpağımızın müqəddəs ocaqlarından olan məşhur «Əli ayağı» pirini ziyarət etməklə daxili bir könül rahatlığı tapdıq və bu rahatlığı kəsdirdiyimiz qurban bir az da artırdı.

Allaha, İslama böyük inam bəsləyib ümidlə baxan xalqımız bu müqəddəs ocağı əsrlər boyu qoruyub saxlamış və bu günə çatdırmışdır və ümid edirəm ki, onu bundan da cəlallı şəkildə gələcək nəsillərə çatdıracaqdır.

«Əli ziyarətgahı»nın təmizliyi, səliqəsi və Şeyx Məşədi Arifin bizə göstərdiyi mehribanlıq heç vaxt yaddan çıxmayacaqdır.

Bu ziyarətdə bizi mədəniyyətimizin, xalqımızın yaxın dostu, İslama böyük etiqad bəsləyib ziyalılarımızın istəklisinə çevrilmiş Hacı Ağa Əliəkbər Hüseynxaninin bu müqəddəs ocağa göstərdiyi xüsusi qayğı və diqqət bizim hər birimiz üçün örnək ola biləcək dərəcədə gözəldir və mənim ürəyimdə sevinc və iftixar hissi doğurdu.

Tanrı bu dostluğu, bu qayğını və diqqəti bizə çox görməsin.

Tanrı xalqlarımızı və bizi bütün xəta-bəlalardan hifz eləsin və bu müqəddəs ocağın sayəsini üstümüzdən əskik etməsin.

**Ə.Hacızadə,**
*17.04.94.*

***

Mən İbrahimov Soltan Məmməd oğlu (1924) Azərbaycan Respublikası Cəbrayıl rayonundan gəlmişəm. Əli qədəmgahı çox xoşuma gəldi. Məşədi Şeyx Arifin təşkilatçılığı məni qane etdi. – Allah ondan razı olsun. Yadigar olaraq ömürboyu Əli ayağına ibadət etməyi özümə borc bilirəm. Həzrəti Əli piri məni məmnun etdi. Ona görə də yadigar olaraq imza etdim.

*İmza:* **İbrahimov Soltan Məmməd**
*02. VIII 1994-cü il tarixində.*

***

## ƏLİ (Ə.) QƏDƏMGAHI

***Buzovnada yerləşən bir ocaqdan danışmaq istəyirəm. Bu ocaq Allahın sevimlisi, Allahın şiri, İmam Həsənin, İmam Hüseynin, Abbasın atası, Bu Əlinin ocağı, Əli (ə.) qədəmgahıdır.***

Kəbədə dünyaya gəlmiş bir şəxsin,
Peyğəmbərin Vəsisi olan bir şəxsin,
Həyat yoldaşı Fatimeyi-Zəhra olan bir şəxsin
İmam Əlinin ocağı, Əli (ə.) qədəmgahıdır!

Bu ocağın bəzəyi Əlinin qədəmidir,
Bu ocağın möcüzəsi ƏLinin qədəmidir
Bu ocağı zinətləndirən Əlinin qədəmidir,
Bu Əlinin ocağı, Əli (ə.) qədəmgahıdır!

Burada açılmış gözlər və dillər
Burada şəfa tapmış hər cür xəstələr,
Burda qismətinə düşmüş körpələr,
Bura Əli (ə.) ocağı, Əli (ə.) qədəmgahıdır!

Bu ocağı sevənləri, ocaq da sevir,
Bu ocağı gələn nə niyyətlə gəlibsə,

Bu ocaq «rengen» kimi açıb göstərir
Çünki bu Əlinin ocağı, Əli qədəmgahıdır!

Əli kimi ikinci bir şəxs tapılmaz,
Əlinin zülfüqarı kimi xəncər tapılmaz,
Əlinin ocağı kimi, ocaq tapılmaz,
Bu İmam Əlinin ocağı, Əli (ə.) qədəmgahıdır!

Əlinin qüdrətiylə, Əlinin məhəbbətiylə,
Ocağa olan məhəbbətiylə,
«Xalis»in bu dünyada ən çox sevdiyi yer
Əli (ə.) ocağı, Əli (ə.) qədəmgahıdır!

**Hacı Sara Zair (Xalis)**
*Qədəmgahın xidmətçisi*
*1.09.1994.*

***

**Bismillahir-rəhmanir-rəhim!**

Bu gün böyük Allahın qismətilə

Hacı Tələt Qasımovun sənət yaradıcılığını işıqlandırmaq üçün Vahid müstəqil Azərbaycan televiziyası şirkətinin (bir qrup) çəkiliş qrupunun – rejissor Nazim Zeynalov, operator Fərman Nəbiyev, bədii rəhbər Ağasəfa müəllim, rəssam Rafik Əbdülrəhimov, redaktor Gülnarə xanım, assistent Arzu xanım İmam Əli ələyhissalamın ziyarətgahını ziyarət etdik.

Ziyarətgahın şeyxi – Hacı Arif Əhməd oğlu, ziyarətgahın təmənnasız köməkçisi, xeyirxahlıq işlərindəki böyük xidmətlərinə görə – Hacı Zeynəlabdin Tağıyev qızıl medalına layiq görülmüş gözəl insan Gərşivəz Əhməd oğlu qəbul otağında bizə böyük diqqət yetirdilər. Şeyx Hacı Arif öz xidmətlərilə böyük ad çıxarmış və Hacı Zeynalabdin Tağıyev medalına layiq görülüb.

Allah sizin işlərinizi, daha yüksək qiymətləndirsin.

Qələmə aldı

**Hacı Məmmədəli.**
*8.X.1994.*

***

Həzrəti Əli (ə.s.)-ın qədəmgahına gələndə mən özümü çox yüngül və çox pak hiss edirəm. Burada olan insanların allaha, rəsulu əkrəmə və cəmi əhli beytə qoyduqları hörməti heç vaxt mən unuda bilmərəm. Buranın qulluğunda duran və buranı idarə edən insanlara öz dərin təşəkkürümü bildirirəm.

Allah sizə yar olsun.

**«Ocaq» Cahandar**
*14.03.2005.*

***

Bu müqəddəs yeri ziyarət edib, həyatımın ən xoşbəxt günlərindən birini yaşamışam.

Burada zəhmət çəkən, çalışanlara, xeyrxah əməlləri ilə böyük hörmətə layiq olan adamların hamısına dərin minnətdarlıq hissi ilə cansağlığı və savab işlərində uğurlar arzu edirəm, onların qabağında baş əyirəm.

Fəxrnən qeyd edirəm ki, mənim tələbəm olan və məni bir müəllim kimi tanıyan Gərşivəz Quliyev və onun balası Təhmasibin burada zəhməti var.

Allah hamınızı xatadan, bəladan qorusun!

**Vahid Hüseyn Şərif**
*25.03.1995*

***

**Rəhman və rəhim olan Allahın adıyla**

Müsəlmanların ən böyük insanı, insanların ən böyük kişisi olan Həzrət Əli əlehissəlamın ayaq izini yaşadan bu müqəddəs piri ziyarətdən hədsiz məmnun olduq. Bu müqəddəs ziyarətgahı qoruyub saxlayan və bununla da mötəbər İslamın yaşamasına kömək göstərən, bizim günlərdə isə onu daha da abadlaşdırıb gözəl görkəmdə saxlayanlara allahdan uzun ömür və möhkəm cansağlığı arzulayırıq.

Çox sağ olun!

**Hörmətlə:** **Hacı Fəttah Heydərov**
**Fəda Quliyev, Hüseynov**
*15.VI.1995*

***

Mən bu gün «Əli-Ayağı» pirində ziyarətdə oldum. Hacı Ariflə söhbətdən, ziyarətgahı gəzdikdən sonra çox məmnun oldum. Allah kasıb-kusubun, kimsəsizin və digər az-təminatlı ailələrin dayağı, himayədarları, müsəlman adət və ənənələrini yüksək səviyyədə təmənnasız həyata keçirən bu insanlara uzun ömür versin və onlara dayaq olsun. Qoy bütün dindarlar və digər yüksək postda işləyən adamlar bu ocaqdan, bu insanlardan nümunə götürsün. Və bilsinlər ki, Allahdan başqa, Allah yoxdur. Ey mənim əzizlərim yüz il də keçsə belə tarix, sizi gördüyünüz əməllərə görə yaşadacaq.

Hörmətlə: ***«Şərq» qəzetinin müxbiri:*** **Namiq Məmmədli**

*24.05.1997.*

***

**Böyük və mərhəmətli Allahın adı ilə**

Xatirə kitabına söz yazmaq mənim üçün çox çətindir. Çünki, «Əli-ayağı» məscid ziyarətgah kompleksinin gördüyü işlər həqiqətəndə təqdirəlayiqdir. Ürək sözlərimi «Şəhriyar» qəzetinin məqaləsi kimi çap etdirib, oxucularımıza çatdırmışıq. Sonda isə bütün müsəlmanları «Qədəmgaha» xeyir tapmağa dəvət edirəm.

Dərin hörmətlə: ***«Şəhriyar» qəzetinin məsul katibi*** və müxbiri:

**Şahin Cavadov.**

*02.09.1998*

***

**Axund Hacı Soltan Hüseynqulu oğlu**

## QƏSİDƏ-TİLAVƏT ƏLİDİR

Mömin sayılan hər kəsin ünvanı Əlidir,
Təqvadə mükəmməl olanın canı Əlidir.
Xəlq eylədi əvvəlcə Əli nurunu Allah,
Dünyayə səbəb xilqəti-fərmani-Əlidir
Bildinmi necə əfv elədi Adəmi Xaliq?
Bu məğfirətin rəhməti-ğüfranı Əlidir.
Fəryadə gəlib Nuh eləyib ahü fəğanı,
Çün dadə yetən sevgili-cananı Əlidir.
Fironu necə qərq elədi Həzrəti Musa,

Dəryanı bölən möcüzi-bürhanı Əlidir.
İbrahim üçün atəşi döndərdi ilahi,
Bu gülşənə ki, bülbüli-nalani Əlidir.
İsanı çəkib daridən ərşə aparandır,
Aləmdəki müşküllərin asanı Əlidir
Meracə gedib Əhmədi Məhmudi Mühəmməd,
Kəşf etdi bəşər dərdinə - dərmanı Əlidir.
Yerdən göyə merac elədi «Nəhcül-bəlağə»,
Ümmül-kitabın qardaşı Quranı-Əlidir
Kafirlər üçün lərzədi, çünki Zülfüqarı,
İslamın əsil xəncəri-üryanı Əlidir.
Bir mah Mühəmməddi, nəbillər ona ulduz,
Bu mənzərənin bürcisi – Keyvanı Əlidir.
Hatəmdə səxavət var idi, sözdü deyirlər,
Mövzu bu səxavətdisə ümmanı Əlidir.
Pərvanə Həsən ilə Hüseyndir ona şəksiz,
Zəhra evinin şəmi şəbistanı Əlidir.
Səcdə eləmək bəxşdir Səccadə Əlidən,
Baqir sözünün gizli nigəhbanı Əlidir.
Cəfər dediyim babi-ülüm babi-Əlidən,
Kazim nəfəsi-rayihəyi-cani Əlidir.
Göz yaşı ilə bəhs elə biçarə Rizadən,
Qürbətdə bitən bir güli reyhani Əlidir.
Yet dadinə, ey şahi – Nəcəf, zar Təqinin,
Fəryadrəs ol, çün onun əfqani Əlidir.
Dünyadə Nəqi vardır, Həsən Əsgəri vardır,
Hər ikisinin dəhridə meydanı Əlidir.
Mehdi gələcək, oldu zaman sahibi çünki,
Hər vaxt onun ərseyi-dövranı Əlidir.
Kimki onu sevdi ona cənnət nə gərəkdir.
Aşiqlərinin rövzeyi-rizvani Əlidir.
Sidqilə onu daima sevmiş Hacı Soltan,
Sadiq olanın daimi Soltanı Əlidir.

*8 may 2002.*

**Axund Hacı Soltan Hüseynqulu oğlu Əlizadə**

## ECAZ YERİ
***(Buzovna – Həzrət Əli qədəmgahına ithaf)***

Ecaz yeridir mənbəyi – ürfandı Qədəmgah,
Biçarələrin dərdinə dərmandı Qədəmgah.
Həzrət Əli bir vaxt qədəmin qoydu bu yerdə,
Ondan bəri aşiqlərə meydandı Qədəmgah.
Çox yerdə qədəmgahi – Əli vardı deyirlər,
Bu nöqtələrin hamına sultandı Qədəmgah.
Hər mənzilə bu möcüzə tətbiq ola bilməz,
Nisbət eləsən rövzeyi-rizvandı Qədəmgah
Kim qoysa bu məvayə qədəm qorxusu olmaz,
Möhtac olan insanə nigəhbandı Qədəmgah.
Bir yerdi ki, dünyadə bərabər ona yoxdur
Nə Misrdi, nə mülki-Süleymandı Qədəmgah
Dinə, imana, əxlaqa bünyaddı bu məskən,
İnsanlıq əgər cismidisə, candı Qədəmgah,
Şeyx Arifə əhsən ki, bu mülki edib abad,
Dünyadə əcəb diqqətə şayandı Qədəmgah.
Kim gəlsə çatar niyyətinə olsa da müşkül
Çün möcüzələrlə dolu ümmandı Qədəmgah
Sərdari-cahan, Şiri-Xuda, Heydəri Kərrar,
Gör bir neçə adlarla firavandı Qədəmgah
Xaliq eləyib lütf Hacı Soltana bu yerdə,
Bir tək ona yox, hər kəsə rəhbandı Qədəmgah

*3 aprel 2002-ci il.*

***

Mən, bu gün Ramazan bayramı ərəfəsində Əli Ayağı ziyarətgahında olmağımdan çox məmnunam. Bu müqəddəs yeri ziyarət etmək hər bir müsəlmanın şərəfli vəzifələrindən biridir.

**İntiqam Cəbrayılov**
*16 yanvar 1999-cu il.*

**Axund Hacı Soltandan**
**Hacı Şeyx Arifə**

## ŞEYXİN

Əlinin eşqilə yaşamaq ki var,
Olubdu həyatda qisməti Şeyxin.
Üzündə bir nur var açıq-aşikar,
Haqdən qida alır fitrəti Şeyxin.

Yarilə xəyalda görüşəndi o,
Əli düşməni ilə döyüşəndi o,
Yoxsullar dadına yetişəndi o,
Çatır ünvanına niyyəti Şeyxin.

Quranı eyliyib əlində yaraq,
Hüseyn matəmindən salıbdır soraq,
Üzü ağ olana olub üzü ağ,
Haqq əhlinə vardır ülfəti Şeyxin.

Dünyadə qəm gördi, görmədi səfa,
Xəstədir diləyək Allahdan şəfa,
Hər vədə eliyib əhdinə vəfa,
Mələklərə vardır nisbəti Şeyxin.

Soltan, Şeyx Arif tək imanlı insan,
Bu dünya üzünə gəlmir hər zaman,
Var olsun cahanda durduqca cahan,
Yayılsın hər yana şöhrəti Şeyxin

*30 mart 2002-ci il*

***

***

**Axund Hacı Soltan Hüseynqulu oğlu**

*Həzrət Əli qədəmgahı haqqında «Azərbaycan dərvişləri və rövzəxanları» (1995) və «Yaşamaq, yaşatmaq, yaratmaq» (1998) adlı kitablarında ətraflı məlumatlar vermişəm. Bu xatirə kitabçasında bir şeir hədiyyə edirəm:*

Mən gədayəm, hər iki mülkdə şahım Əlidir,
Ümmüdüm ruzi-qiyamətdə pənahım Əlidir.

Əlidən ötrü mühibb oldu nə kim var mənə,
Dünənimlə bu günüm, həm də səbahım Əlidir.

Bir səbəbkari-cihadımdı Əli dəhr içrə,
Cəbhəm İslam, silahım həqq, silahım Əlidir.

Hanı bir kimsə ki, tab eyliyə qol zərbəsinə,
Əsədullahi qəvi, seyfi-İlahim Əlidir.

Onun eşqilə cahan rövnəq alıbdır bu qədər,
Çar ünsür, yeru  göy, altı cinahım Əlidir.

Qeybə dair nə sual Soltana versəz, deyəcək:
İki aləmdə bütün sirrə izahım Əlidir.

24.IV.1999.

***

Bu məhərrəmlik mərasimində, bu müqəddəs yeri ziyarət etməyimdən çox məmnunam. Bu müqəddəs yeri qoruyan, abadlaşdıran, saxlayan vətənpərvər müsəlmanlara öz minnətdarlığımı bildirirəm. Allah onlardan razı olsun.

Hörmətlə: *DİN-in əməkdaşı polis k-n* **Məmmədov İ.F.**

*23.05.1999*

***

***

**Bismillahir-rəhmanir-rəhim**

Ya Allah, Ya Məhəmməd, Ya Əli səndən mədəd

26 iyun 1999-cu ildə Böyük Allah mənə Əli ayağını ziyarət etməyi nəsib etdi. Bu Allah-təalanın mənə olan Böyük əvəzsiz mükafatıydı. Həmişə ürəyimdə Allaha olan Məhəbbəti Əli (ə.)-ın vasitəçiliyi ilə tapmışam. Çünki, Seyyid Əsəd Hüseyni şeirində bunu bir daha açıqlayır. O şeirdən bir bəndi burda yazmağı özümə borc bilirəm.

Ya Əli tut əlimi qoyma cəhalətdə qalım
Əliboş könlü qara matəmi üzmaya dalım
Bilirəm çatmayacaq xaliqə sənsiz vüsalım
Çünki sən Ayinəsən çöhrəyi-yəzdanə Əli
Necə ləbbeyk deməyim sən təki Soltanə Əli

***

Bir daha bildirmək istəyirəm ki, bu məsciddə çalışan və işləyən bütün qardaşlarıma Allah özü kömək olacaq, inşaallah. Sonda əziz dostum, qardaşım Hacı Soltana minnətdarlığımı bildirirəm. Ona uzun ömür, can sağlığı arzulayıram. Allah-təala cəmi xalqımıza dayaq dursun.

Vəssəlamu əleykum və rəhmətullahi və bərəkətuh.

*I Qrup Qarabağ əlili* **Hüseynov Həsən**

*26.VI.1999.*

***

**Bismillahir-rəhmanir-rəhim.**

Uzun illərdi mənəvi dəyərlərimiz, müqəddəs ziyarətgahlarımız haqqında axtarışdayam. Bunun nəticəsi o, oldu ki, Mir Möhsüm Ağa, Yaşıl seyid – «Ətağa» haqqında «Cəddini çağırırıq» adlı kitabım çıxdı. Və Ağanın Şüvəlandakı bağ evini də aldıq (san.ep. stansiya idi). Şükürlər olsun Allaha, Azərbaycanın bir çox rayonlarındakı ziyarətgahlarda olmuşam 2-ci kitabı hazırlayıram. «Əliayağı»nı yuxuda görüb gəlmişəm. Burdakı tikinti-abadlıq işləri, kitabxana çox xoşuma gəldi.

Müqəddəs ocaqlarımız yolunda xidmət edən, əziyyət çəkən,

abadlıq işləri aparanlara «çox sağ olun» deyirəm və Allahdan onlara gözəl nemət olan can sağlığı arzulayıram!

Kitabxana çox zəngindi, bir çox dillərdə «Qurani-Kərim» və başqa dini elmi kitabların olması çox təqdirə layiqdir. Elə ona görə də Şeyx Hacı Arifə verilən Z.Tağıyev adına qızıl medalı çox halal olsun. Sağlığına qismət Amin!

Niyyəti hasil olsun, tez-tez gələcəyəm, inşaallah. Özüm də Kərbəlayi Seyid Zəhra xanımın nəvəsiyəm.

Dərin hörmətlə: *Musiqiçi-jurnalist, publisist-nasir, «Xan qızı Natəvan» mükafatı laureatı, Az.Jurnalistlər Birliyinin üzvü, «Xatun» əbədi məclisinin üzvü*

**Zeynəb Yusif qızı Əlizadə.**
*Bakı-Buzovna, 24.VII.1999.*

***

Mən Hacıyeva Tahirə Xanlar qızı, İran vətəndaşı Ağayi Hüseyin Fərəczadə xanımı Ərdəst Ruhi, Azəri vətəndaşı Elşən Mahmudov qardaşla Əli Ayağı ziyarətgahına ziyarətə gəldik. Allah dualarımızı və ziyarətimizi qəbul eyləsin. Bu ziyarətgahı tikməkdə köməklik edənlərə Əli kömək olsun.

***

**Allahın böyük adıyla**

Əli Ayağına ikinci dəfədir ki gəlirəm. Və arzum odur ki, qurban olduğumuz bütün insanların arzusunu, imanını kamil etsin.

Allah-təala burada xidmət göstərən Ağalara can sağlığı versin. Və onlara «necə edim, necə olsun» sözlərini qismət etməsin. Amin!

Allah-təala bütün müsəlmanların dadına yetişsin, Amin!

*Azərb. Dövlət Jurnalistlər Birliyinin üzvü, Moskva Ümumittifaq Ədəbiyyat institutunun müdavimi*

**Fəridə Şəkinskaya**
*29.08.99.*

***

***

**Bismillahir rəhmanir-rəhim**

Yaradan Allahıva qurban olum

Əlim-qədəmgahıva qurban olum

Xəzər dənizinin kənarında yerləşən Əli-qədəmgahı deyə bilmərəm ki, neçənci əsr və ildə yaranıb. Amma mən 1952-ci ildə buzovnaya gəlib qədəmgaha getmişəm. Orada gözətçi yox idi. Bir neçə qadın orada oturub dava-dalaş edirdilər. Ora ziyarətə gedənlər heç vaxt naumud qayıtmazdı. Biz ora qorxa-qorxa gedərdik. Çünki, bir tərəfdən hökumət qoymurdu o biri tərəfdən isə qibləsini tanımayanlar orada böyüklük edirdilər. Allahın köməyilə Hacı şeyx Arif 1987-ci ildə ora gəldi. Şeyxin orada hədsiz dərəcədə zəhməti var. Həm abadlıq işlərdə həm də gördüyü işlər göz qabağındadır. Neçə-neçə əlillərə, imkansızlara, qaçqınlara, kimsəsizlərə kömək əlini uzadır. Neçə ildir ki, qədəmgahın xərci ilə zavvarları ziyarətgahlara yollayır. Şeyx Hacı qədəmgahda olan ağır işlərin öhtəsindən gəlir heç onu yaddan çıxarmaq olmaz ki, ziyarətgahın nəzdində mədrəsə açıb orada kim istəyir dərs alır. Hələ oxuyanlara təqayüddə verilir. Bir sözlə qədəmgah ziyarətgahında hər cür şərait var bunu yaradan şeyx Hacı Arifin və onun köməkçilərinin zəhməti çoxdur. Allah-təala onlara uzun ömür və can sağlıq versin orada Məşhəd-xanım Tamaranında zəhməti çoxdur. Həm oranı səliqə-sahman edir. Həmdə gələn zavvarlara çay və yemək verir. O cümlədən Hacı Nazimində zəhməti çoxdur. Həm oxuyanlara dərs deyir. Həm də orada işləyir.

Qədəmgahın həyətyanası səliqəli olduğu kimi küçələri də səliqəlidir.

Əli qədəmgahını deməylə olmaz onu öz-gözlərinizlə görəsiniz.

Allah-təala onu İslam cəmiyyətinə vəİslam dinində olanlara bəxş etmişdir. Onun qədrini bilmək lazımdır.

**Seyid Validə Seyidağa qızı.**

*11.IX.1999.*

***

Mənim ən çox etiqad bəslədiyim ziyarətgahlardan biri də bu Əli ə-ın məqamıdır. Mən özümü çox şad bildim ki, buranı ziyarət etmək mənə qismət oldu. Həqiqət budur ki, neçə arzumun həyata keçməyində səbəbkar bilirəm.

**Quliyev Namiq Şahab oğlu**

***Bu şeiri də yadigar olaraq qoyuram:***

Yar sevdasını dərk edəndən bəri,
Sildim qəlbimdən qusseyi-kədəri.
Yoxdur və orada onun bərabəri
Bilinməyir sevdasının qədəri.
Hər kimə yar olsa o paki Gülzar,
Kimə ki, yar olmasa yoldan azar.

***

Bu gün mən Allah vergisi olam allahın yolunu daime ilahi görücüsü etibardır.

Mən əminəm ki, Həzrəti Əli Ələyhissalam Quranda ən mühüm adam olub.

Bu ziyarəti gəzəndə Əlinin ruhu şad olur.

Allah bütün müsəlman qardaşlara kömək olsun ki, Həzrəti Əli yolundaİmam yolunu daşıyan

**Etibardır**
*18.IX.2000.*

## ƏLİ AYAĞI

Gəzib dolanmışam Azərbaycanı
Ziyarət etmişəm çox ocaqları
Getdiyi ocaqdan sevinsin hamı
Mənə də kömək olsun «Əli ayağı»

Ömrümdə ilk dəfə gəldim bu yerə
Çatdım «Əli ayağı» ziyarətinə
Gəldim bu ocağı ziyarət etdim
Gəlmişəm-gələcəm həmişə yenə

**Y.İsmayıl**
*13 avqust 2001.*

***

**Bismillahir-rəhmanir-rəhim**

Ulu Tanrımızın qisməti ilə Həzrət Əli qədəmgahı – «Əli ayağı» ziyarətini ziyarət etmək mənə də qismət oldu. Mən öz dost, yoldaşlarımla «Əli ayağı» ziyarətini ziyarət etdik.

Həzrət Əli qədəmgahı «Əli ayağı» ziyarətində olarkən, bu ibadətgahı qoruyan-saxlayan abadlaşdıran öz gücü – əziyyəti insanpərvərliyi ilə gələnləri razı yola salan, hər kəsin evinə razı qayıtması üçün əlindən gələni əsirgəməyən, bu ziyarətin Şeyxi Hacı Arif Əhməd oğluna və bu ziyarətdə işləyən bütün ziyarət işçilərinə öz minnətdarlığımızı bildiririk və Ulu Tanrıdan həmişə bu yoldakı xidmətlərinə və qonaqpərvərliklərinə görə öz razılığımızı bildiririk. Allah köməyimiz olsun.

**İsmayıl Qurban oğlu Abdullayev**
*Gəncə şəhərindən gəlmiş ziyarətçi*
*13 avqust 2001.*

***

Bu gün mən müsəlman dünyasının ən müqqəddəslərindən – Həzrəti Əlinin ziyarətgahında oldum. Bu ziyarətdən özümü çox xoşbəxt hesab edirəm. Biz xoşbəxt insanlardanıq ki, tanrı bizə Həzrəti Əli kimi müqəddəs insanlar bəxş edibdir. Bütün müsəlmanlar kimi mən də həzrət Əlinin ruhundan şəfa tapıram.

«Əli Ayağı» ziyarətgahının şeyxi Hacı Arif həqiqətdə bu ziyarətgaha layiq insanlardandır. Onunla təmasda olmaq, onun söhbətlərini dinləmək də olduqca xoşdur.

*«Məhəbbət və həyat» qəzetinin redaktoru*

**Sevil Nəsirova**
*16 iyul 2003.*

***

Müqəddəsləri ziyarət etdikcə, müqəddəs insanlara təmasda olduqca, onların söhbətini dinlədikcə insanın qəlbi açılır, ruhu təzələnir, insan özünü xoşbəxt hesab edir.

Mən bu gün özümü ikitərəfli xoşbəxt hesab edirəm. Ona görə də Həzrət Əli ziyarətini ziyarət etməklə yanaşı mən burada Hacı Arif kimi bir insanla da tanış oldum.

Hacı Arif həqiqətən də əsil Allah adamıdır. Sevindirici haldır ki, islam dünyasının belə təmsilçiləri var. Allah Hacının imanını kamil etsin.

*«Məhəbbət və Həyat»ın redaktoru*

**Coşqun**

*Qəbələ. Mıxlıqovaq.*

***

Çoxdan ziyarət etmək istədiyim Əli ayağı qədəmgahını böyük məmnuniyyətlə dolandım. 30-40 il bundan əvvəlki uçulmuş vəziyyəti ilə müqayisədə xeyli abadlıq işləri görülüb. Bu işləri həyata keçirənlər var olsunlar. Allah həmin şəxslərin valideynlərinə rəhmət eləsin.

Əli Əleyhissalam həmişə köməyimiz olsun!

Ziyarətgahın indiki işçilərinə bu müqəddəs fəaliyyətlərində Allahın lütfünü qazanmağı arzulayıram.

**Səyyad Aran**

*Milli Məclisin deputatı*

*02.10.2004.*

***

**Ya Allah!**

Mənim çoxdankı arzum idi ki, bu piri ziyarət etmək. Çox şükür olsun allaha ki, bu ziyarət bizə qismət oldu. Mənim qızım xəstə idi. Çox yerlərə müraciyət etmişəm. Elə bir xeyri olmadı. Amma Allahın ziyarətgahını, Əli ayağını, Allahın Quranını ziyarət etdikdən sonra Allaha şükür olsun ki, nicat tapdıq. Hal-hazırda vəziyyəti çox yaxşıdır. Allah hamıya kömək olsun.

**Cəfərov Ziyafət.**

*Saatlı rayon Mustafabəyi kəndi.*

*09.04.2005.*

***

**Axund Hacı Soltan Hüseynqulu oğlu Əlizadə**

## ƏLİ

Gəlməyib kimdi deyən Azərbaycanə Əli,
Qədəmin çünki qoyub dəhridə hər yanə Əli.
Olma qafil bu İmam cümleyi-dünyanı gəzib,
Həmi Meracda olub Əhmədə həmxanə Əli.
Harda bir məzlum əgər olsa yetər imdadə,
Qalmaz aləm ara bir dərdliyə biganə Əli.
Sidqilə «Nadi-Əli» söylə ki olsun köməyin,
Baharı bəxş eliyər fəsli-zimistanə Əli
Adı hər yerdə olub həkk, könüllər şahıdır,
Döndəribdi qədəmi dəhri gülüstanə Əli
Aləmin hər tərəfində izi var Mövlanın,
Neçə yerdə yazılıb batini-Quranə Əli
«Xummi»də Heydəri peyğəmbərimiz etdi vəsi,
Əmr ilə oldu Əmir cümlə müsəlmanə Əli
«Teyyül ərz»ilə bütün aləmi seyr etdi İmam
«İsm-əzəm»lə yetib bilki hər ünvanə Əli
Xoş gəlibsiz bu qədəmgahdı bizə ruhi-qida,
Tanrının lütfü ilə ruh verir insanə Əli
Əlisiz yoxdu bu dünya mənə, ustadım odur,
Öyrədir çünki həyat sirrini Soltanə Əli.

*22 yanvar 2006-cı il möhtərəm din xadimi*
*Hacı Vasif Şeyx Arif oğluna təqdim etdim.*
*Buzovna.*

***

**Bismillahir-rəhmanir-rəhim!**

Xalqın inam, etiqad yeri olan «Həzrəti Əli qədəmgahı» ziyarətgahı

Bu ocağa kimlər gəlmir, ilahi! Ürəyi arzu istəklə dolu olanlar, çətinə düşənlər, niyyət edənlər bu ziyarətgahı ziyarət edirlər.

Tanrı hər birimizin ziyarətini qəbul eləsin. Amin!

Bu gün bu ziyarətgaha rəhbərlik edən Hacı Maarif qardaşımız bizi yüksək səviyyədə qarşıladı.

Xatirələr dilə gəldi. Atası Hacı Arif qardaşımız xatırlandı. Ruhuna dualar etdik. Allah rəhmət eləsin!

Ocaqların, pirlərin, ziyarətgahların tədqiqatçısı, təbliğatçısı kimi ürəyimdən bir arzu keçdi. Kaş bu ziyarətgahdan bir kitab yaza biləydim. Nə bilim!

Bəlkə də Tanrı bu gün elə bu niyyətlə məni buraya gətirdi.

Allah-təala Hacı Maarif qardaşdan razı olsun! Amin! Amin! Amin!

Hörmətlə:

**Məryəm Şahverdiyeva**
*«Sabaha inam» qəzetinin baş redaktoru.*
*Yazıçı-jurnalist.*
*5.02.2006.*

***

Müsəlman aləminin nicat yeri olan Əli ayağı ziyarətgahının xidmətçilərinin hamısına öz təşəkkürümüzü bildiririk. Arzu edirik ki, Allah Təala bu ziyarətgaha gəlib dilək eləyən hər bir insanı nikbin arzusuna çatdırsın.

***

**Bismillahir-rəhmanir rahim!**
**Uca Allahın adı ilə!**

Uşaq yaşlarımdan Əli (ə.) sevgisi, Əli (ə.) eşqi ilə böyüdüm. Allah-təala mənə Əli (ə.)nin qapısında saç-saqqalımı ağartmağı qismət etdi. Gənclik yaşımda mənə nəsib olan bu qisməti özümə şərəf bildim. Və bu mənim içimdə – həyatımda taleyimin ən maraqlı və mənalı səhifəsi oldu.

3 ildir ki, bu müqəddəs məkanda çalışıram. Mənə elə gəlir ki, keçmişimə boylansam, peşmançılıq hissi keçirmərəm. Əksinə fəxarət hissi ilə məmnun olaram.

**Axund Hacı İlham Səlimov,**
*17.07.10*

**Əli ayağı ziyarətgahında dini mədrəsənin yaradılması haqda qərar**

**Bismillahir-rəhmanir rahim!**

***Buzovna qəsəbəsindəki Həzrət Əli (ə.) məscid-ziyarətgahının dini icmasının 15.07.1994-cü il tarixli qərarına əsasən əmr edirəm:***

***1. Həzrət Əli (ə.) Məscid-ziyarətgahının nəzdində Həzrət Əli (ə.) adına Elmi-dini İslam mədrəsəsi açılsın.***

***2. Mədrəsəyə orta və ali təhsilli, dini dünyagörüşünə malik, Qurani-Kərimi oxumağı bacaran şəsxlər müsabiqə yolu ilə qəbul edilsinlər.***

***3. Mədrəsənin təşkili Elmi Şuraya həvalə edilsin.***

***4. Elmi Şura aşağıdakı tərkibdə təyin edilsin:***

***Elmi Şuranın sədri:***

**Axund Hacı Soltan Hüseynqulu oğlu Əlizadə**

***Elmi Şuranın Tədris işləri üzrə sədr müavini:***

**Hacı Vaqif Məşhədi Mustafa oğlu**

***Elmi Şuranın Ümumi işlər üzrə sədr müavini:***

**Gərşivəz Əhməd oğlu**

***Elmi Şuranın məsləhətçisi:***

***Professor* Hacı Hüseyn İskəndər oğlu Çəndirli**

***Həzrət Əli (ə.) adına Məscid-ziyarətgahının rəisi:***

**Şeyx Hacı Arif Əhməd oğlu.**

***

## RƏYLƏR

***(Fars dilindən tərcümələr və ərəb qrafikasından transliterasiyalar)***

*ALLAHIN ADI İLƏ*

Allah-təalaya şükr edirik ki, İmam Xomeyni həzrətlərinin rəhbərliyi ilə İslam inqilabının sayəsində Azərbaycanda yaşayan müsəlman qardaşlarımızın ziyarəti məqsədilə İrandan Bakıya gəlmək bizlərə qismət oldu. Bu səfərdə əlavə olaraq Bakı şəhərinin Buzovna qəsəbəsində yerləşən «Qədəmgah»ın məscidində söhbət etmək səadəti bizə nəsib oldu. Qədəmgahın məscidində toplaşıb söhbət etdikdən sonra bu ziyarətgahın ehsan süfrəsindən də bəhrələndik. Allah dünya müsəlmanlarının birliyini günbə-gün daha da möhkəmləndirsin və dünya müsəlmanlarının rəhbəri Ayətullah Xamenei həzrətlərinə uzun ömür nəsib etsin.

Vəssəlamu əleykum və rəhmətullahi və bərəkatuh.

**Seyyid Muhəmməd Əli Ali Haşim.**

*Təbriz: 1369.8.28.*

***

*ALLAHIN ADI İLƏ*

Uca Allahın dərgahına sonsuz sevinc və şükürlə, İslamın əvvəlindən bu günə qədər şəhid olanların pak ruhlarına xüsusilə İmam Xomeyni həzrətlərinin böyük ruhuna salam salavat göndərərək bu müqəddəs məkanda onlar üçün dualar edib dünya müsəlmanlarının vəliyyi əmri Ayətullah Xamenei həzrətlərinin izzətlə uzun ömür sürməsini arzu edirəm. 1369.8.29 – tarixində bu müqəddəs məkanı ziyarət edib və Buzovna kəndinin səfalı müsəlmanları ilə görüşmək bizə nəsib oldu. Allahdan birdə təşəkkür edərək bütün müsəlmanların xüsusilə Buzovna qəsəbəsinin əhalisinin izzətli olub vəhdətlərini qorumalarını arzu edirəm. Ümid edirəm ki, izzətləri gün-

bəgün artsın və son qələbə İslam ümmətinin olsun.

Vəssəlamu əleykum və rəhmətullahi və bərəkatuh.

**Kəmaluddin Pir Muəzzin** – Sərab əyaləti
**Musa Əli Nəjad** – Germi
**Əlinur Vacid** – Biləsuvar
**Musəyyibzadə** – Parsabad
*1369.8.29.*

***

*ALLAHIN ADI İLƏ*

Allah təalanın dərgahına sonsuz təşəkkürlər edirəm ki, 1369.8.29-u tarixində Buzovna qəsəbəsində yerləşən bu müqəddəs yeri ziyarət etməyi bizə qismət etdi. Allahdan arzu edirəm ki, müsəlmanların birliyini günbə-gün artırsın. Bütün müsəlmanlar üçün o cümlədən İmam Xomeyni həzrətlərinin ruhuna dualar edib Ayətullah Xameneiyə uzun ömür arzulayıram.

**ƏHMƏD TUS**
**ƏLİ XƏRRATİ**
*1369.8.29.*

***

*ALLAHIN ADI İLƏ*

Allaha həmd və sənadan sonra:

Hüccətül-islam Şeyxül-islam Paşazadə Həzrətlərinin həmçinin Azərbaycan Əlyazmalar İnstitutunun dəvəti ilə onlarla birgə yolumuz Bakı şəhərinin Buzovna qəsəbəsinə düşdü. Bu qəsəbədə Əmirəl-möminin Həzrət Əli (ə.s.)-nin mübarək qədəmini və orda inşa edilmiş məscidi ziyarət etdik. Ümidvarıq ki, Uca Allah müsəlmanları daha da birləşdirib kafir, əcnəbi və istismarçıların əllərini müsəlman millətlərinin başı üzərindən uzaqlaşdırsın. Müsəlmanların tezliklə dünya küfrünə qalib gəlmələrini arzu edir,

İmam Xomeyni həzrətlərinin və İslam şəhidlərinin xüsusilə İran İslam inqilabının şəhidlərinin ruhlarına salam və salavat göndərirəm.

**Seyyid Mahmud Mərəşi Nəcəfi**

Ayətullahul-uzma Mərəşi Nəcəfi kitabxanasının müdiri.

**Şeyxül-islam Hacı Allahşükür Paşazadə**

cənablarının iştirakı ilə.

*QUM, İRAN*

*1369. Azər ayının 5-i.*

***

*ALLAHIN ADI İLƏ*

Allaha həmd və səna edib, Xatəmul-ənbiya Həzrət Muhəmməd (s.ə.) ibn Abdullaha salavat göndərir və İslam şəhidlərinin pak ruhlarına xüsusilə İran İslam cumhuriyyətinin banisi İmam Xomeyninin ruhuna salavat və salam göndərirəm. 1369.9.10-u tarixində İslam inqilabının şəhidlərinin qanları sayəsində İran İslam Respublikasından «Əba Əbdillah İmam Hüseyn (ə.s.)-in aşiqlərindən ibarət olan bir dəstə cavanlar Buzovna qəsəbəsində yerləşən Həzrət Əli (ə.s.)-nin qədəmgahını ziyarət etmək səadətinə nail oldular.

Ümid edirik ki, islamın vəhdəti sayəsində bütün dünyada müsəlmanlar kafirlərə qalib gəlib «La ilahə illəllah» bayrağı tezliklə İmam Xomeyninin sadiq davamçısı Həzrət Ayətullah Xameneinin sayəsində bütün zülm və şirk saraylarının üzərinə sancılar.

**Muhəmməd Cəfər Əsədi.**
**Muhəmməd Həbibullahi**
**Məhəmməd Tələti.**
**Əli Ğəfuri**
**Məhəmməd Vəzir Abadi**
**Əli xan Məhəmmədi**
**Seyyid Hüccət Kəbiri**
**Əli Həmidzadə**
**Qurban bayramı günündə.**
*1376.1.29.*

***

*ALLAHIN ADI İLƏ*

1370.9.29-da bu müqəddəs yeri ziyarət etdik. Uzun müddət Sovet diktatorluğuna məruz qaldıqdan sonra yenidən bu məntəqənin müsəlmanları öz İslam dininə yenidən qayıdıb azad və qorxusuz olaraq ona üz tutmalarını gördükdə çox sevindik. Ümid edirik ki, Bakının və sair məntəqələrin müsəlman əhalisi və xalqları öz ali hədəflərinə çatmaq üçün yorulmadan çalışıb özlərini kafir və əcnəbilərin əllərindən xilas edib İslam və müsəlman cəmiyyətlərinin daha da tərəqqi etməsinə yardım edələr.

***

ALLAHIN ADI İLƏ

1369.9.11-də Cəmadiul əvvəl ayının 13-ü İslam dininin böyük xanımı Həzrəti Fatimeyi Zəhra (ə.s.)-nın şəhadəti günü Allahın inayəti ilə öz müsəlman və həqiqi islam dininin ardıcılları olan qardaşlarımla görüşüb Həzrət Əli (ə.s.)-nin mübarək qədəmini ziyarət etmək mənə nəsib oldu. Allahdan istəyirəm ki, bu ziyarəti mənə yenə də qismət etsin. Ümidvaram ki, bütün İslam dünyası xüsusilə bu kəndin imanlı insanları «tovhid» bayrağının altında xoşbəxt həyat sürüb yaşayalar. Bu ilahi nemət İmam Xomeyni həzrətlərinin bərəkətli vücudu və Allah ordusunun pak qanları sayəsində bizə çatmışdır. Allah onlara rəhmət etsin.

Vəssəlamu əleykum və rəhmətullahi və bərəkatuh.

**Muhəmməd Fuladi**

*Parsabad Muğan.1369.9.11. – 13 Cəmadiul əvvəl*

***

**Bismillahir-rəhmanir rahim!**

Mən qədəmgahi şərifin ziyarətinə üç ildir ki, müvəffəq oluram. Buranın birinci balaca binasını görmüşdüm və bu gün əzəmətli hüseyniyyəsini və zairəsərasını (qonaq evi) görürəm. Bəllidir ki, bu binalara eşq be Əli səbəb olubdur. Və inşaallah gələcəkdə Buzov-

nada olan Qədəmgahe-şərif daha da artıq abadlaşsın və ziyarətə gələnlər burda islahdan mərifətlərə və düşüncələrə malik olsunlar və elə bu qədəmgahi şərifin bərəkəti ilə bütün Buzovna və ətrafdakı olan kəndlərin sakinləri İslamın mənəviyyəti ilə tanış olsunlar və gələcəkdə hamının dilində kəlimeyi təyyibə «La ilahə illəllah» deyilsin. Və birdə buradakı müsəlman bacı qardaşlar qeyri-müsəlmanlar olduğuna xatir sıxıntıya məruz qalmasınlar və bütün müsəlmanlar izzət və əzəmətlə yaşasınlar. Bu gözəl binanı tikən və bütün məscidləri abad edən və bərpa eləyənlər Allah-təaladan aqibət be xeyirlik və behiştə çatmağı arzu edirəm. Ümid ki, Allah-təala onları Həzrəti Muhəmmədin, Həzrəti Fatimənin və on iki imamın və imamların birincisi Həzrət Əli (ə.s.) şəfaətindən o dünyada məhrum etməsin.

Bunuda axırda deməliyəm ki, İslamda hər bir məscid, bir mədrəsə və məktəb kimi həm ibadət və həm təhsil və təlim ocağı kimi tanınıb. Və müsəlmanlar gərək çalışsınlar hər bir məscid və hüseyniyyə guşəsində İslamın dərin mərifətlərindən qazansınlar və sinələrini Quran, hədis və rəvayətlərlə doldursunlar və əmr-beməruf və nəhyi-əz-münkəri bir qeyrətli müsəlman kimi yaddan çıxarmasınlar.

Vəssəlamu əleykum və rəhmətullahi və bərəkatuh.

*ƏBÜLQASIM*

*1411 il Rəcəb ayının ikinci günü*

***

*ALLAHIN ADI İLƏ*

Mən Təbrizin Əhər əyalətində yaşayan Hüseyn Alanəq Muxtar Məsudi ilə birgə Həzrət Əli (ə.s.) qədəmgahını və onun ətrafındakı tikintiləri ziyarət etdik. Biz burda zəhmət çəkən dindar qardaşlarımızın işlərini alqışlayaraq və Allah-təaladan onlar üçün müvəffəqiyyətlər arzulayırıq. Azərbaycanda yaşayan və İslam inqilabının tərəfdarları və İmame ümmətin həqiqi müqəllidlərinə Allahdan kömək diləyirik.

*MƏSUDİ*

*1369.11.6.*

***

**Bismillahir-rəhmanir rahim!**

Peyğəmbər (s.ə.) buyurub: «Mən elmin şəhəriyəm, Əli isə onun qapısı».

Şəban ayının birinci günü 1411 hicri qəməri ilində Allah-təalanın köməkləri ilə Bakı vilayətində olan rayonlara qardaşları görmək xatirinə bura gəldik və ziyarət etdik. İnşaallah Allah təbarək və təala müsəlmanlara birlik və salamatlıq əta etsin.

Xudaya İslam və müsəlmanlara yardım et!

Xudaya dinə yardım edənlərə yardım et!

**Mühəmməd Təqi İbadi.**
**Möhsin İbciyan Müqəddəm.**
1369.11.27.

***

*ALLAHIN ADI İLƏ*

İran İslam inqilabının şəhidlərinin və İmam Xomeyni həzərtlərinin müqəddəs ruhlarına salam olsun. Və dünya müsəlmanlarının rəhbəri Həzrət Ayətullah Xameneniyə salam olsun. Öz müsəlman qardaşlarımı və Həzrət Əli ibn Əbu Talib (ə.s.)-in mübarək qədəmini ziyarət etmək mənə qismət olduğu üçün çox sevinirəm. Ümidvaram ki, inşaallah bütün dünya müsəlmanları istismarçıların əlindən nicat tapıb qüdrətli İslam bayrağı altında birgə yaşayalar. Dünya müsəlmanlarının bütün kafirlərə qalib gəlməsi ümidi ilə xüsusilə dünyanı zəbt etmiş Amerikaya.

Vəssəlamu əleykum və rəhmətullahi və bərəkatuh.

*ƏLİ HAŞİMFƏR GERMİ*
*1369.12.6.*

***

*ALLAHIN ADI İLƏ*

1369.12.9-u tarixində saat 5.40 dəqiqədə xalam oğlu Cavanşir Əliyevlə birgə Həzrət Əli (ə.s.) mübarək qədəminin ziyarətinə gəldik. Və bu ziyarətgahın xidmətçiləri ilə söhbət etdik. İnşaallah növbəti gəlişimdə İmam Xomeyni həzrətlərinin şəklini sizlərə gətirməyə söz verirəm.

**Nasirəddin Bərzigər**
*Ərdəbil. 1369.12.9.*

***

**Bismillahir-rəhmanir rahim!**

1. Allaha sonsuz təşəkkürlər edirəm ki, tarixin acı anlarında, küfrün müsəlman torpaqlarında qələbə çalıb onları İslam dininin təlim və ayinlərindən ayrı salmaq istədikləri bir vaxtda kafir və düşmənləri öz çirkin niyyətlərinə çatmalarına mane olub müsəlmanları unutmadı. İmam Xomeyni həzrətlərinin rəhbərliyi ilə İslam inqilabının qələbəsindən sonra İslam qeyrəti İslam evladlarında yenidən hərəkətə gəldi və özlərinə qayıtmaq üçün yorulmadan səy göstərdilər. Bu gün yetmiş ildən çox bu məntəqələrdə İslam dininin qayda qanunları və sair ayinləri ilə mübarizə aparıldığına baxmayaraq öz dinlərini çox yaxşı qorumağı bacardılar. Artıq bu yerlərdə İslam inqilabının təsirləri müşahidə edilir. Belə ki, məscidlər açılır, müsəlmanlar öz İslami dəyərlərinə üz tuturlar. Ümidvarıq ki, Allah istər bu məntəqədə, istərsə də sair məntəqələrdə İslamı dirçəltməkdə hamımıza yardımçı olsun.

Qeyd etməliyəm ki, bu yazı fevralın 25-i 1369.12.6 hicri şəmsi ilində Həzrət Əli (ə.s.) qədəmgahında axşam saat 9.30 dəqiqətə yazıldı. Bu görüşdə Həzrət Hüccətul İslam vəl Muslimin Hacı Seyyid Məhmud Fəqih və kənd əhalisi iştirak edirdi.

*MƏHƏMMƏD RUHANİ*
*1369.12.6.*

*2. ALLAHIN ADI İLƏ*

*Azərbaycanda inanmadıqlarımızı gördük.*
*SEYYİD MƏHMUD FƏQİH.*
*1369.12.6.*

***

**Bismillahir-rəhmanir rahim!**

Əssəlamu əleykə ya Əmirəl Möminin.

Əssəlamu əleykə ya səyyidəl vəsiyyin.

Aləmlərin xaliqi göylərin və yerin sahibi olan Allaha sonsuz təşəkkürlər edirəm ki, dostlarım Şəkib, Siddiq, Fərşi və Əyyubla birgə Mövla Əli (ə.s.)-nin qədəmgahını ziyarət etməyi bizə nəsib etdi. Ümid edirik ki, bu ziyarət o həzrətin mübarək məzarını ziyarət etmək

üçün bir müqəddimə olsun. Allah bu mübarək ziyarətgahın bani, mütəvəlli və xadimlərinə daha da çox müvəffəqiyyətlər bəxş etsin.

*MƏHƏRRƏM QULAMİ*
*MƏHƏMMƏD SİDDİQ*
*TƏBRİZ, 1369.12.17.CÜMƏ GÜNÜ*

***

ALLAHIN ADI İLƏ

Mən Əli Əkbər Muradi 1370.1.1-də Novruzun birinci günündə bu yeri ziyarət etdim və bu diyarın imanlı və yaxşı insanlarını gördükdə çox xoşhal oldum. Aləmlərin rəbbindən istəyirəm ki, öz hakimiyyətini bu yerdə müvəffəq etsin və bu yolla Peyğəmbər hakimiyyəti bu diyarda bərqərar olsun.

*ƏLİ ƏKBƏR MURADİ*
*1370.1.1.*

***

**Bismillahir-rəhmanir rahim!**

Əssəlamu əleykə ya Əmirəl-möminin.

«Mən elmin şəhəriyəm Əli isə onun qapısı».

Allaha şükr edirəm ki, İmam Xomeyni (p.ə.)-nin hədəfi həyata keçdi və dünyanın bütün nöqtələrinə o cümlədən Azərbaycana da, gəlib çatdı. Mən Məhəmməd Rza Babaxani İmam Xomeyni həzrətlərinin Qarbaçova göndərdiyi məktubundan sonra Azərbaycanda müsəlman qardaşlarıma xidmət göstərib Həzrət Əli (ə.s.)-nin qədəmgahını ziyarət etməyə nail olduğum üçün çox məmnunam. Allahdan arzu edirəm ki, özü İslamın düşmənlərini məhv etsin və bütün müsəlmanlar öz vəhdətləri ilə İmam Zaman (ə.s.)-ın zühuru üçün lazım olan müqəddiməni hazırlasınlar.

*MƏHƏMMƏD RZA BABAXANİ*

***

**Bismillahir-rəhmanir rahim!**

Allaha sonsuz həmd və səna edirəm ki, İslamın sair dinlərə qələbə çalıb qalib gəlməsinə və İslam həqiqətlərinin və hökmlərinin

bütün dünyada yayılmasına söz vermişdir. «Həqiqətən», «Allah vədinə xilaf çıxmaz». Azərbaycanda olduğum müddətdə Buzovna kəndinin də məscidlərini xüsusilə də Həzrət Əli ibn əbu Talib (ə.s.)-in qədəmgahını ziyarət etdim. Həzrət Əli (ə.s.)-nin qədəmgahının bu yerdə olması Məsum İmamlarımızın bu torpaqlarda özlərindən iz qoymalarından xəbər verir ki, müsəlmanlar onların izlərindən ilham alıb hərəkət edə və addım-addım onların izlərinə qədəm qoymaqla Allaha doğru gedən düz yolda addımlaya və yüksək ilahi hədəflərə nail olalar.

İslam və Quranın tanıdılması yolunda yorulmadan çalışan xüsusilə uzun müddət müxtəlif çətinliklərə düşüb İslamın nişanələrini qoruyub bu günə kimi saxlayanların zəhmətlərindən təşəkkür edirəm. Ümidvaram ki, müsəlmanlar öz vəhdətlərini qorumaqla İslamı bütün dünyaya yayıb, Allahda öz verdiyi vədələrini tezliklə həyata keçirsin.

Vəssəlamu əleykum və rəhmətullahi və bərəkatuh.

Qədəmgahın xidmətçisi Məşhədi Arifdən təşəkkür edirəm.

**Rəsul-şəbani**

*Qum şəhəri, 1370.1.24*

*1411. Hicri qəməri ilə 27 Ramazan.*

***

**Bismillahir-rəhmanir rahim!**

1411-ci hicri qəməri ili «fitr» bayramı günü (1370 hicri şəmsi Fərvərdin ayının 27-də) Həzrət Əli (ə.s.)-nin qədəmgahına və onun ətrafında zəvvarlar üçün nəzərdə tutulmuş tikililəri ziyarət etmək mənə qismət oldu. Əziz qardaşım Məşhədi Arif Əhməd oğlundan mübarək «Qədəmgah»da apardığı abadlıq işləri və təsis etdiyi qonaq otaqlarına görə təşəkkür edirəm və ümidvaram ki, Allah-təalaona və sair imanlı qardaşlara İslama daha da artıq xidmət göstərməyi nəsib etsin.

Amin! Ya rəbbəl aləmin!

*MÜHƏMMƏD ŞƏRİF MƏHDƏVİ MƏSİH MƏHDƏVİ*

*1370.1.27.*

**Bismillahir-rəhmanir rahim!**

1411-ci hicri qəməri ilinin Şəvval ayının 22-də Hacı Əlikram Nardarani və Hüccətul islam vəl müslimin Hacı Seyyid Büyük Musəvi Şərəbyani, Hacı Mirzə İzzətullah Lahuti və mən Nüsrətullah Qadiri Həzrət Əli (ə.s.) qədəmgahını ziyarət etdik və kəndin əhalisindən bu yerləri qoruduqları üçün təşəkkür edirik. Sonda Allahdan İslam və müsəlmanların izzətli olub kafirlərinsə tezliklə məhv olmalarını diləyirəm. Xameneidən itaət İmamdan itaət etməkdir.

**Seyyid Büyuk Musəvi Şərəbyani**
**İzzətullah Lahuti**
**Nüsrətullah Qadiri**
**Hacı Əlikram**
*1370.2.17.*

***

**Bismillahir-rəhmanir rahim!**

Allaha şükr edirik ki, İslam inqilabının və qanlarına qəltan olmuş şəhidlərin bərəkəti sayəsində ailəmizlə birgə Azərbaycan respublikasının Bakı şəhərində yaşayan müsəlman qardaşlarımızı ziyarət etməyə müvəffəq olduq. 1370.2.19-u tarixində bu qədəmgaha gəlib buranı ziyarət etdik.

*HÜSEYN ƏHƏDİ*
*1370.2.19.*

***

**İmam ümmət Xameyniyə salam olsun!**

Mən Qəzənfər Şeyxlu Şərqi Azərbaycanın Ələmdar rayonunun Təzə kənd qəsəbəsinin sakini ailəmlə birgə Həzrət Əli (ə.s.)-nin qədəmgahında ziyarətdə olduq və bu məntəqənin imanlı əhalisi ilə görüşdən çox məmnun oldum.

*QƏZƏNFƏR ŞEYXLU*

***

**Bismillahir-rəhmanir rahim!**

«Əliyyibni Əbu Talibin sevgisi baldan da şirindir».

Allaha həmd və səna İmam Xomeyni həzrətlərinin və islam şə-

hidlərinin müqəddəs ruhlarına salam olsun. Allahın köməyi ilə bu müqəddəs yeri ziyarət etmək bizə nəsib oldu.

*SEYYİD İBRAHİM HÜSEYNİ*
*MİR ƏLİ ƏSGƏR HÜSEYNİ*
*1370.2.7.*

***

**Bismillahir-rəhmanir rahim!**

«Həzrət Əli (ə.s.)-nin vilayət və məhəbbəti mənim möhkəm qalamdır. Hər kəs mənim qalama daxil olsa mənim əzabımdan amanda olacaqdır».

İmam Xomeyni və şəhidlərin pak ruhlarına salam olsun və inqilabın böyük rəhbəri Həzrət Ayətullah Xameneyiyə salam olsun.

Mən 1370.5.11-də bu qədəmgahı ziyarət etdim və Allahdan arzu edirəm ki, Azərbaycanın şücaətli və qorxmaz müsəlmanlarına izzət bəxş edib onlara yardımçı olsun. Arzu edirəm ki, İmam Əli (ə.s.) özü onlara yar olsun. İnşallah.

*SEYYİD MƏHƏMMƏD HƏSƏN MUSƏVİ ŞÜKUH.*
*1370.5.11.*

***

*ALLAHIN ADI İLƏ*

Mən 1370.5.11-də Buzovna kəndini gəzib Həzrət Əli (ə.s.)-nin qədəmgahını ziyarət etməyə nail oldum. Ziyarətgahın məscidi və sair tikintiləri bu kəndin əhalisinin Peyğəmbər əhli-beytinə nə qədər ixlasla məhəbbət bəsləmələrindən xəbər verir. Allah onların hamısına böyük əcrlər əta etsin.

*HÜSEYN*
*1370.5.11.*

***

**Bismillahir-rəhmanir rahim!**

Peyğəmbər (s.ə.) buyurmuşdur: «Mən elmin şəhəri Əli (ə.s.) isə onun qapısıdır hər kəs şəhərə daxil olub hikmətə sahib olmaq istəsə gərək qapıdan daxil olsun»,

Allaha şükr edib, Adəm (ə.s.)-dən Xatəmul Ənbiyaya qədər olan bütün peyğəmbərlərə salavat və salam göndərirəm. Həmçinin İslamın əvvəlindən qiyamətə qədər olan bütün şəhidlərin pak

ruhlarına xüsusilə İran İslam inqilabının şəhidlərinə və İran Respublikasının banisi İmam Xomeyni həzrətlərinin ruhuna salavat göndərib İnqilabın böyük rəhbəri Ayətullah Xameneiyə (Allah onu qorusun) salam göndərirəm.

Mən Qurbanəli İsmaili əziz dostum hüccətul islam vəl muslimin Məhəmməd Əli Əbdullahiyanla birgə Buzovna kəndini həmçinin burda yerləşən Həzrət Əli (ə.s.)-nin qədəmgahını ziyarət etdik və bu müqəddəs yerin mənəvi xüsusiyyətlərindən istifadə etdik. Eyni zamanda bu qəsəbənin mömin və şərəfli insanları il əki, doğrudanda İmam Zaman (ə.s.)-nın həqiqi şiə və yardımçılarıdırlar görüşdük və onların böyük ruhiyyələrindən bəhrələndik. Ümid edirik ki, İslamın və Quranın uca bayrağı bütün dünyada xüsusilədə bu diyarda dalğalansın. Və Müqəddəs İslam dini öz nurlu simasını bütün bəşəriyyətə göstərsin. İnşaallah.

**Qurbanəli İsmaili Səqqayi.**
**Hacı Məhəmməd Əli Əbdullahiyan**
*1370.5.22.*

***

*ALLAHIN ADI İLƏ*

Səfər ayının 25-də əziz qardaşım Əbdullahi ilə birgə bu müqəddəs yerə gəlib ziyarət etmək səadəti bizə qismət oldu.

*ƏBDULLAH SƏDUQ*
*ƏBDÜL HƏMİD BAQİRİYAN*

***

ALLAHIN ADI İLƏ

Allaha sonsuz təşəkkürlər edirəm ki, Rəbiul əvvəl ayının 3-də bu qəsəbədə öz imanlı və Allahsevər qardaşlarımın hüzurunda olub onları ziyarət etdim. Bu görüşdən çox məmnunam.

*BÜYÜK MƏCİD ƏRDƏBİLİ*

***

**Bismillahir-rəhmanir rahim!**

1370.6.16-da Buzovna qəsəbəsinin Məşhədi Qərib məscidində, İmam camaat Hacı Soltanla birgə namaz qılıb Seyyidüş-şühəda (ə.s.)əzadlarılığından sonra bu kəndin möminləri qarşısında söhbət

etdim.

Sonra dostlarla birgə bu möhtərəm yerə «Qədəmgaha» gəlib buranın tikilmə tarixindən xəbərdar oldum. Ümüd edirəm ki, Həzrət Əli (ə.s.)-yə aid olan bu müqəddəs yer özü bu möhtərəm insanları qorusun.

*XEYRİYAN*
*1370.6.16.*

***

**Bismillahir-rəhmanir rahim!**

1419-cu hicri qəməri ilinin Məhərrəm ayında və 1377-ci hicri şəmsi ilində Həzrəti Seyyidüş-şəhəda İmam Hüseyn (ə.s.)-ə xidmət etmək mənə nəsib oldu. Belə ki, Bakının Hacı Soltan Əli məscidində moizə edirdim. Məmuriyyətimin son günlərində Kərbəlayi İlham və Kərbəlayi İbrahimlə birgə Buzovna qəsəbəsinə gəlib Həzrət Əli (ə.s.)-nin qədəmgahını ziyarət etmək mənə də nəsib oldu. Bu görüşdə əhli-beyti sevən çoxlu müsəlman kişi və qadın gördüm. Ümid edirəm ki, Allah Əhli-beytə olan bu sevginin günbə-gün müsəlmanların qəlbində artırıb dünya və axirətdə əlimizi Quran və Əhli-beyt (ə.s.)-dən ayırmasın. İnşaallah!

*MURADİ*
*1377.2.30.*

***

*ALLAHIN ADI İLƏ*

1370.7.4-də şənbə günü əziz qardaşım Hacı Əbdülkərimlə birgə bu müqəddəs yerə gəldim və bu yerin xidmətçilərində Həzrət Əlinin izzəti, elmi və şücaətini gördüm. Ümidvaram ki, möminlərin səyi nəticəsində bu şərafətli yer daha da inkişaf edib genişlənsin.

Allahdan arzu edirəm ki, İslam və müsəlmanlara xüsusilə bu müqəddəs məkanda xidmət edənlərə yardımçı olsun.

Dərin hörmətlə:

**Hicazi**.
*1370.7.4.*

*UCA ALLAHIN ADI İLƏ*

Əli (ə.s.) gövhərdir və parlaq qızıl. Yerdə qalan insanlarsa torpaqdır.

O, gecələri ibadət mehrabında çox ağlardı.

Müharibə meydanında isə o çox təbəssüm edərdi (yəni qorxmaz idi).

1412-ci hicri şəmsi ilində əziz qardaşım hüccətülislam vəl müslimin «Hacı Seyyid İsmayıl Musəvi Əsl» ilə birgə Azərbaycana gəldik və din qardaşlarımızla görüşüb söhbət etdik. Həzrət Əli (ə.s.) qədəmgahında olub ziyarətnamə oxuduqdan sonra bu cümlələri öz görüşümüzdən yadigar qalsın deyə yazdıq.

**Seyyid İsmayıl Musəvi Əsl.**

**Abbas Rəsuli**

*1370.7.13.*

***

*ALLAHIN ADI İLƏ*

Azərbaycanlı mömin qardaşlarımı ziyarət edib onların dini və mədəni fəaliyyətlərini yaxından görə bildiyim üçün Allaha şükr edirəm. Və Allahdan istəyirəm ki, bütün möminlərin və İslam ümmətinin müvəffəqiyyətini artırıb onları qalib etsin. Arzu edirəm ki, Allah gözlərimizi İmam Zaman (ə.s.)-ı görməklə daha da nurlu edib dünya müsəlmanlarının rəhbəri Ayətullah Xameneyini bütün bəlalardan qorusun və bu Həzrət Əli (ə.s.) qədəmgahında zəhmət çəkən qardaşların daim xidmət etmələrinə yardımçı olsun.

*SƏFƏVİ.*

*1370.7.15.*

***

**Bismillahir-rəhmanir rahim!**

1411-ci hicri qəməri ili Rəbiüs-sani ayının 23-də Allahın mərhəməti ilə Buzovna qəsəbəsində «Həzrət Əli (ə.s.) qədəmgahında və «Məşhədi Qərib» məscidində bir neçə dəfə mömin və müsəlman qardaşların hüzurunda söhbət və moizə etmək mənə nəsib oldu. Allah qəbul etsin. İnşaallah.

**Seyyid Yədullah Ələvi Nəsəb Şərəbyani.**

*ALLAHIN ADI İLƏ*

1370-ci hicri şəmsi ilinin Azər ayının 6-da mən Həmid Sətvəti, Əbdullah Mudərrisi Mütləq, Cəlal Əlmasi və Bəhram Şəkuri İranın

Azərbaycanda təşkil etdiyi birinci ticarət sərgisinə gəlmişdik. Bu gəlişdə Bakının Buzovna kəndində yerləşən Həzrət Əli (ə.s.)-nin mübarək qədəmgahını ziyarət etməyə müvəffəq olduq. Bu ziyarətgahın işçilərinin nöqsansız və qüsursuz zəhmət və xidmətlərindən təşəkkür edir və bu xalis niyyətli insanların İslamı yayıb Quran kurslarının daha da genişlənib səmərə verməsini arzulayırıq.

*HƏMİD SƏTVƏTİ*
*BƏHRAM ŞƏKURİ*
*CƏLAL ƏLMASİ*
*ƏBDULLAH MUDƏRRİSİ MÜTLƏQ*
*1370. 9.6.*

***

*ALLAHIN ADI İLƏ*

1370 hicri Şəmsi ilinin Azər ayının 7-də mən Hacı Əyyub Yəqubdust və Hacı Məhdi Vaiz Qaraməliki və Əli Cəlali Ədl Allahın lütfü ilə İslam və Əhli-beyti sevərlərin qəlbinə ümid bəxş edən və inşaallah öz xidmətləri ilə İslamın bayrağını daim uca saxlaya biləcək qardaşlarla görüşüb onları ziyarət etdik.

Pərvərdigara: Səni on dörd məsum və İslamın əvvəlindən bu günə qədər şəhid olanların pak qanlarına and verirəm ki, müsəlmanlara öz vəhdətlərini qorumaqla düşmənlərinə qalib gəlmələrinə yardım edəsən.

*ƏYYUB YƏQUBDUST.*
*MƏHDİ VAİZ QARAMƏLİKİ.*
*ƏLİ CƏLALİ ƏDL.*
*1370.9.7.*

***

**Bismillahir-rəhmanir rahim!**

Həzrət Əli ibn Əbu Talib (ə.s)-in ayaq izinin ziyarəti arzusuyla!

Bakıya səfər etdikdə Buzovna qəsəbəsində Həzrət Əli (ə.s.)-nin qədəmgahı olduğunu eşitdik. 1370.9.10-da dostlarımızla birgə bu yeri ziyarət etmək üçün bura gəldik. Allaha şükr edirik ki, İran İslam inqilabını qələbəyə çatdırdı və bu yolla zəncirlənmiş müsəlmanların üzlərinə yenidən bağlı qapıları açdı. Elə bu ziyarətimizin özüdə o ilahi mərhəmətlərdən biridir. Allah bütün müsəlmanları azadlığa

çıxarsın. Amin!

*İSMAYIL SABİQİ.*
*ƏHMƏD DİN MƏHƏMMƏDPUR.*
*MALİK.*

***

*BAĞIŞLAYAN VƏ MEHRİBAN ALLAHIN ADI İLƏ*

Azərbaycan Respublikasına etdiyimiz səfərdə mən Əli Əkbər PASİBAN, yoldaşım Mərziyyə Bəkim Müqəddəs Mir Heydəri və ailə dostumuz olan Fereştə Mir Hüseyni, Qəhrəman Cəbrayılov və onun qardaşı Azər və xanımı Şərqiyyə ilə birgə Həzrət Əli (ə.s.)-nin qədəmgahını ziyarət etməyə müvəffəq olduq. Qədəmgahda Hacı Şeyx Arif dostları ilə birgə ziyarətgahın nəzdində olan bütün tikliləri Qədəmgah, məscid, mədrəsə, kitabxana və istirahət otaqlarını bizə göstərdi. İnşaallah Allah onları bu işdə müvəffəq etsin.

*ƏLİ ƏKBƏR PASİBAN*
*1372. 4.19.*

***

*ALLAHIN ADI İLƏ*

Əziz Buzovnalı mömin və dindar qardaşlarımın hüzuruna.

Salamun – əleykum!

İslam günəşi doğub dünyanı işıqlandırır və qaranlıq qəlbləri Allaha yaxınlaşdırır. Ey əziz qardaşlarım! İmam Xomeyni buyurub: Başqalarını gözləməyin özünüz hərəkət edin. Allaha təvəkkül edin və bilin ki, əgr siz Allahın dininə yardım etsəniz Allahda sizə yardım edəcək. Allah buyurur: «Əgər siz Allaha yardım etsəniz o da sizə yardım edər».

*QUDDUSİ-TƏBRİZ*
*1991 1. Dekabr.*

***

**Bismillahir-rəhmanir rahim!**

Mən Mir Məhəmmədrza Seyyid Şükri 1370. 9.17-də Həzrət Əli (ə.s.)-in mübarək qədəmini ziyarət etdim. Bu ziyarətgahın abadlığı yolunda çoxlu zəhmət çəkmiş banilərinə həmçinin İslam və müsəlmanların daha da əzəmətli olması üçün çalışmış insanlara

təşəkkür edirəm. Ümid edirəm ki, İslamın küfrə qalib gəlib şeytanların məhv olması ilə bu cür müqəddəs məkanlar abadlaşıb daha da əzəmətli olsun. İnşaallah. İlahi Pak Əhli-beyti sevən insanları özün qoru!

Amin ya rəbbəl aləmin!

*SEYYİD ŞÜKRİ*
*1370.9.17.*

***

*ALLAHIN ADI İLƏ*
*SALAM*

İmam Xomeyni Həzrətlərinin ruhuna və müsəlmanların rəhbəri Həzrət Ayətullah Xameneiyə sonsuz salamlarla.

Mən Hacı Sədullah Bəhruz, Mir Höccət Yəhyəvi və Səməd Pakrov 1370.11.20-də Həzrət Əli (ə.s.)-nin qədəmgahında olub məğrib və işa namazlarını din qardaşlarımız və tələbələrlə birgə qıldıqdan sonra Quran tilavət edildi. Allahdan bu əzizlərimizin İslam və müsəlmanlara xidmət göstərməkdə müvəffəqiyyətlər diləyir və İslamın dünya küfrünə qalib gəlməsini arzu edirik.

Bütün dünyada müsəlmanların daha da başı uca olması ümidi ilə.

**Səməd Pakrov – Təbriz**
**Mir Höccət Yəhyəvi – Təbriz**
**Sədullah Bəhruz – Təbriz**
**Baxşəli Rəfail – Bakı**
*1370. 11.20.*

***

*ALLAHIN ADI İLƏ*

Allaha şükr edirəm ki, 52 ildən sonra onun lütf və mərhəməti sayəsində Şüvəlan kəndində yaşıyan əziz dayım oğlu Dadaşov Dadaşbala ilə görüşə bildim. Dostlarımızla birgə Buzovna kəndində olub buranı da ziyarət etdik. Ümid edirəm ki, Allah həmişə İslamın bayrağını uca etsin.

*ƏBÜLQASIM.*
*1370. 12.5.*

***

*ALLAHIN ADI İLƏ*

Allahın mərhəməti bizlərə də şamil oldu ki, 1370.12.22-də 1412-ci hicri qəməri ilinin Ramazan ayının səkkizində bu müqəddəs yeri ziyarət etdik. Ümidvaram ki, dünyanın bütün yerlərində yaşayan müsəlmanlar birləşib, vilayəte-fəqihin rəhbərliyi altında öz yaşayışlarını davam etdirsinlər.

*MƏHDƏVİ-QUM ŞƏHƏRİ-TƏBRİZ*

***

*ALLAHIN ADI İLƏ*

Peyğəmbər buyurub: «Əli (ə.s.) haqq ilə haqq da onunladır».

Əssəlamu əleykə ya Əmirəl-möminin və ya vəsiyyə rəsuli rəbbil aləmin. Həzrət Əli (ə.s.) və onun övladları, İmam Həsən (ə.s.)-dən başlayaraq İmam Zaman (ə.s.)-a qədər və İmam Xomeyni o cümlədən müsəlmanların vəliyyi əmri Həzrət Ayətullah Xameneiyə salam olsun! İslam inqilabı İranda qələbə çalıb bütün dünyaya yayıldı və bütün müsəlmanlar xüsusilə Həzrət Əli (ə.s.)-nin şiələri agah oldular və inşaallah bütün İslam dünyasında Həzrət Meydi (ə.s.)-nin adını yayıb hakim edəcəklər. Bu da o həzrətin bütün dünyaya hakimiyyət edəcək hökuməti üçün müqəddimə olacaq. Allaha şükr edirəm ki, 1370. 24-də bu Həzrət Əli (ə.s.)-nin qədəmgahını ziyarət etmək və öz din qardaşlarımızı ziyarət etmək bizə nəsib oldu. Bu ziyarətdə Allahın və İslam dininin qüdrətini bir daha müşahidə etdik. Yenə də sonda din, məscidlər və müqəddəs yerlər qaldı lakin Kommunist partiyası və onun ideologiyası məhv olub tarixin arxivinə ötürüldü. İmam Xomeyni, bütün İslam şəhidləri o cümlədən İran İslam Respublikası şəhidlərinin ruhuna salam olsun ki, bütün bu inkişaflar İslam inqilabının bəhrəsidir. Bütün müvəffəqiyyətlər ondadır və o hər şeyə qadirdir.

*İRANİ-ŞƏRQİ AZƏRBAYCAN.*
*1370.12.24.*

***

***

**Bismillahir-rəhmanir rahim!**

İndi gecə saat 2.[45] dəqiqə və Mübarək Ramazan ayının 12-dir. Artıq 12 gündür ki, müqəddəs yerdə cavan və yeniyetmələr o cümlədən Buzovna qəsəbəsinin mömin əhalisindən faydalanıram. Burda olduğum müddətdə qətiyyən yorğunluq hiss etmirəm. Çünki küfrün əlindən qurtulmuş bu yeniyetmə və cavanları daim gözəl əhval ruhiyyəli və din və İslam yolunda yorulmadan çalışıb vuruşan gördüm. Elə insanlar ki, dini gözəl öyrənir və hətta lazım gəlsə din uğrunda öz abı rvə qanlarından belə keçməyə hazırdılar. Bunlar İslamın sərmayəsidirlər və İlahi vəzifə hökm edir ki, Peyğəmbər (s.ə.)-in gətirdiyi həqiqi İslam dinin öyrədilməsi və onların düzgün tərbiyə edilib təkamül yolunda addımlamaları üçün əlimizdən gələnləri əsirgəmiyək. Bu gizli istedadların açılıb özlərini biruzə vermək üçün etdikləri fəryadı Allah eşidir. Onlar deyir: Ey insanlıq və bəndəlik tərbiyəçiləri! Bizim əlimizdən tutub və qorxulu küfr dəryasından əmin-amanlıq və bəndəlik sahilinə çıxarın. Əlimizi qırılmaz İlahi ipə çatdırın. Bunlar tam səmimiyyətlə həqiqi İslamı axtarıb-axtarır və bizim yardımlarımıza ümüd bəsləyirlər. Gərək bizlər də bu xahiş və fəryadlara ixlasla «Ləbbeyk» deyək. Ümid edirik ki, tezliklə bu insanlar öz istəklərinə nail olub həm özlərini həm də gələcək nəsillərini küfr və fəsadın əlindən xilas etsinlər.

*QULAM HÜSEYN RƏŞMİ*

*1370.12.26.*

***

**Bismillahir-rəhmanir rahim!**

«Əgər biz bu Quranı bir dağa nazil etsəydik, sən Onun Allahın qorxusundan əyilib (təzim edərək) parça-parça olduğunu görərdin. Biz bu misalları insanlar üçün çəkirik ki, bəlkə, düşünələr» («Həşr» surəsi 21-ci ayə).

Peyğəmbər (s.ə.) buyurmuşdur: «Peyğəmbərlər qardaşdırlar. Dinləri və Allahları da birdir».

Mən Masazır kəndinin sakini bu müqəddəs ziyarətgahı 1412 hicri qəməri ili Zilqədə ayının 7-də ziyarət etdim.

Vəssəlamu əleykum və rəhmətullahi və bərəkatuh.

*MOLLA NADİR*

***

**Bismillahir-rəhmanir rahim!**

Allahın mərhəmətilə Azərbaycanın Bakı şəhərinin Nardaran kəndində mömin insanlara bir neçə gün xidmət göstərmək səadətinə nail olduq. 1371.2.23-ü, 1412 hicri qəməri ilinin Zil-qədə ayının 10-da Bakı da Qafqaz Müsəlmanları idarəsində təşkil edilmiş «Həcc» konfransında iştirak etdik. Bu diyarda yetmiş il küfrün küləyi əsməsinə baxmayaraq yenə də Allahın lütfü ilə məscidlər və İslami abidələr təmir edilib, insanların istifadəsinə verilir. Ümid edirik ki, İslamın hakimiyyəti həm bu diyarda, həm də dünyanın sair nöqtələrində bərqərar olsun.

Vəssəlamu əla ibadillahis-salihin.

*MÖHSÜN MÜHƏNDİSİ*
*1317.2.23.*

***

*ALLAHIN ADI İLƏ*

Allah İmam Xomeyni Həzərtlərini rəhmət etsin: O Həzrət demişdir: İran İslam inqilabi bütün dünyaya yayılmışdır. Bu diyarda həmin sözün doğruluğunu öz gözümlə görüb bütün vücudumla hiss etdim. İnşaallah Allah bütün müsəlmanları sabit qədəm və müvəffəq etsin.

*ƏHMƏD ƏLƏMUL-HÜDA*
*1371.2.23.*

***

**Bismillahir-rəhmanir rahim!**

Bu gün hörmətli dostum Firuzun vasitəsilə M.F.Axundov adına Azərbaycan Dövlət kitabxanasından Buzovnadakı «Əli Ayağı»na Talıbov Fikrətlə ziyarətə gəldik. Mən bundan təqribən on il əvvəl də bura gəlmişəm. O zaman təkcə balaca bir damdan başqa bir şey yox

idi. Bu gün gələndə buranı haman kiçik bir dam olduğundan irani (daha abad) gördüm. Əgər o zaman görməsəydim bu günki cah-cəlalə inana bilməzdim. Buranın geniş sahəsi, hücrələr, kitabxana, qonaq otaqları və gözəl tikililəri böyük fəxrdir. Bu məsciddə uşaqların ərəb və fars dilində oxumaları üçün açılan məktəb təqdirə layiqdir. Buzovna əhalisinin bu gözəl, qiymətli və böyük işin başa çatdırmasını həyata keçirmək və bütün arzularına çatmalarını Allahdan arzulayıram.

*MƏHƏMMƏD ƏLİ MUSƏDDİQ*
*TALIBOV FİKRƏT*
*1992.6.3.*

***

**Bismillahir-rəhmanir rahim!**

1412 hicri qəməri ili Məhərrəm ayının 26-də bu yeri ziyarətə gəldim. Bu yerdə insanların, Peyğəmbər (s.ə.)-in ailəsinə böyük ehtiram göstərməsini müşahidə etdim. Bu dostluq və məhəbbətdən gərək düzgün istifadə edilsin.

Allah bütün möminləri müvəffəq etsin.

*ƏHMƏD SABİRİ HƏMƏDANİ*
*1412 HİCRİ QƏMƏRİ İLİ*

***

*ALLAHIN ADI İLƏ*

Mən 1371. 6 4-ü hüccəttül İslam vəl müslimin Şeyx İsmayıl Nəcəfi ilə birgə Həzrət Əli (ə.s.) qədəmgahına gəlib bu müqəddəs yeri ziyarət etdik. Biz Müqəddəs Qum şəhərindən təbliğ məqsədi ilə bura gəlmişdik. Ümid edirik ki, bu İslami birlik daim müsəlmanlar tərəfindən qorunub saxlanılsın.

MUSƏVİ-QUM ŞƏHƏRİ
*İSMAYIL NƏCƏFİ MƏRƏNDİ – QUM ŞƏHƏRİ*
*1371. 6.4. hicri Şəmsi ili.*
*1992-ci miladi ili.*

***

*ALLAHIN ADI İLƏ*

Mən Əlirza Qeybi 1413-cü il Səfər ayının 29-da hicri şəmsi ilinin

1371.6.12-də bir neçə bAkılı mömin qardaşlarımız ilə birgə Buzovna qəsəbəsində yerləşən və müsəlmanların və islamın mərkəzi olan Həzrət Əli (ə.s.) qədəmgahında olub bu yeri ziyarət etdik. Ümid edirik ki, Allah Həzrət Əli (ə.s.)-nin böyük vilayəti sayəsində bütün müsəlmanları kafirlərə qalib edib, İslam və müsəlmanlara xidmət edənləri günbə-gün daha da müvəffəq etsin.

Bütün müsəlman qardaşlarımıza salam olsun!

**Əlirza Qeybi Mərəndi**

*1413. 29 Səfər.*

***

*ALLAHIN ADI İLƏ*

Allaha sonsuz təşəkkür və minnətdarlıq edirəm ki, mən Xəlil Təbriziyə bu müqəddəs yeri ziyarət etməyi nəsib etdi. Bu ziyarətə əziz qardaşlarım Maştağadan Hacı Mir Saleh və Nardarandan Hacı Əbdülkərimlə birgə gəldik. Allahdan İslam və müsəlmanlara izzət və əzəmət, kafir və düşmənlərə isə zillət və məğlubiyyət arzu edirəm.

*XƏLİL TƏBRİZİ*

*1371.6.19.*

***

**Bismillahir-rəhmanir rahim!**

Əlhəmdu lillahi-rəbbil aləmin

1371-ci il Şəhrivər ayının 15-də bir neçə mömin qardaşlarımla birgə allahın mərhəməti sayəsində bu müqəddəs yeri ziyarət etməyə nail oldum. Burda Quran kurslarında təhsil alan uşaqları gördükdə sevindim. İnşallah gələcəkdə bu uşaqların hər biri İslamın gələcəyi üçün bir ümid olacaq. Allah bu əzizlərimizi İslam və Quran üçün qoruyub onlara İslama xidmət göstərməyi nəsib etsin. Gələcəkdə bu uşaqlar İslam və İmam Xomeyni Həzrətlərinin rəhbərliyi ilə idarə edilən İran islam inqilabının sayəsində hər biri İslam və Quran üçün fədakar əsgərlər olacaqlar. İnşaallah! Allah bütün müsənmanları əziz, azad, başıuca və kafirlərə qalib etsin.

*SEYYİD HEYDƏR ƏSƏDULLAHİ*

*1371.6.15.*

***

***

**Bismillahir-rəhmanir rahim!**

Allaha şükürlər olsun ki, bizi Həzrət Əli (ə.s.)-nin vilayətinə etiqadı olanlardan edib. Uzun illərdən sonra qardaşlarım hüccətül-islam vəl müslimin Hacı Şeyx Əsədullah Cəvanmərd və Şeyx Murtəza İmani ilə birgə Həzrəti xatəmul-Ənbiya Muhəmməd (s.ə.) və o Həzrətin layiqli övladı Cəfəri məzhəbinin banisi İmam Sadiq (ə.s.)-in mövludu günündə Azərbaycanlı qardaşlarımda yenidən görüşməyə nail olduğum üçün Allaha minnətdarlıq edirəm. Bu mömin insanlar uzun illər küfrün qarşısında uca dağlar tək durub təslim olmadılar və qaranlıq buludlar arxasında öz nuraniliklərini qoruyub saxladılar. Onlar İslam həqiqətlərinin teşnəsi olduqları üçün var qüvvələri ilə İslami hədəflərə doğru can atırlar. Ümid edirəm ki, bizim İranlı qardaşlarımız Həzrət Ayətullah Xamenei həzrətlərinin rəhbərliyi ilə idarə olunan İslam Cumhuriyyətinin bərəkəti ilə bu qardaşlara yardım etməkdə bütün güclərini səfərbər edib əllərindən gələni əsirgəmiyələr və müsəlmanların həmçinin İslamın izzət və əzəməti günbə-gün arta. Ümid edirəm ki, müsəlmanlar tezliklə bütün kafirlərə qalib gəlib zalımları məhv etsinlər.

*HƏMİDİ - QUM ŞƏHƏRİ*
*1371.6.22*

***

**Bismillahir-rəhmanir rahim!**

Əlhəmdu lillahi rəbbil aləmin. Allahın salamı olsun Həzrəti Məhəmməd (s.ə.)-ə, onun haqq canişini Əli ibn Əbu Talibə və onun məsum övladlarına, xüsusilə Sahibul əsri vəz-Zaman (ə.s.)-a. allaha şükr edirəm ki, 1371.6.22-də dostlarım hüccətül islam vəl müslimin Hacı Şeyx Əsədullah Cəvanmərd və Hacı Şeyx Rəfət Hamidi ilə birgə Azərbaycanda öz din qardaşlarım və Əmirəl-mömінin xalis şiələri ilə görüşmək mənə nəsib oldu. Bu görüşdə həmçinin Həzrət Əli (ə.s.) qədəmgahını da ziyarət etdik. Ümid edirəm ki, Allah bu ziyarətgahın bütün işçilərinə elm sonra da ona əməl etməyi nəsib etsin.

*MURTƏZA İMANİ, 1371.6.22*

***

*ALLAHIN ADI İLƏ*

1371.6.23-də bu qədəmgahda mömin qardaşlarımızı ziyarət etmək bizə nəsib oldu. Qədəmgahda bizə diqqət və qayğı göstərib qəbul edən bütün qardaşlarımızdan xüsusilə Arif Əhməd oğlundan çox çox təşəkkür edir və bu görüşdən məmnun olduğumu bildirirəm. Allah onları O Həzrətin vilayət və məhəbbətində sabit qədəm etsin.

*CƏVAN SÜLHİ*
*1371.6.23.*

***

*ALLAHIN ADI İLƏ*

1371.7.3-cü cümə günündə əzəmətli Həzrət Əli (ə.s.) qədəmgahını və onun ətrafında olan məscid, kitabxana, istirahət otaqları və sair tikililəri ziyarət etdik. Möminlərin burda göstərdikləri bütün fəaliyyətlərini alqışlayır onlara daha da xalis niyyətlərlə və ancaq Allaha xatir çalışmalarını arzu edirəm. Ümid edirəm ki, onlar öz dini və məzhəbi fəaliyyətlərini davam etdirib İslamın hökmlərini yayalar.

Allahdan bütün müsəlmanlara xüsusilə bu yeri abad edən əziz və zəhmətkeş mömin qardaşlarıma mükafat diləyirəm.

Vəssəlamu əla ibadillahis-salihin.

*MƏCİD MƏHDİPUR*
*CAMAL MƏHƏMMƏDRZA XEYRİ*
*MİR ƏLİ CƏVANMƏRD*
*1371.7.3.*

***

*ALLAHIN ADI İLƏ*

Biz beş nəfər İran İslam Respublikası televiziyasının I kanalının «tarix» verilişləri bölməsindənik. Azərbaycana gəlməyimizin məqsədi burda yerləşən müxtəlif yerlərdən çəkilişlər aparıb veriliş hazırlamaqdır. Biz burda bir çox tarixi abidələr, insanların həyat tərzi, təbiət, məscidlərdən və sair yerlərdən çəkilişlər apardıqdan sonra indi də bu ziyarətgaha gəlib çəkiliş aparmaq və buranı ziyarət etmək səadətinə də nail olduq. Ümid edirəm ki, yaxın gələcəkdə çoxlu çətinliklərlə əldə edilmiş bu materialları silsilə proqramlar

vasitəsilə İran xalqına təqdim edək. Şübhəsiz qeyd etməliyik ki, bu müqəddəs yerləri toplamaqda haqq yolunun şəhidlərinin qanı bizə ilham verib, o Bələdçimiz olmuşdur. Arzu edirik ki, müsəlmanlar daim qalib gəlsinlər.

*HƏMİD ƏRCÜMƏND*
*1371.8.21.*

***

**Bismillahir-rəhmanir rahim!**

Allaha şükr olsun ki, hər bir addımında Peyğəmbər əhli-beytinin ətri gələn bir torpağa qədəm qoydum. Bu torpağın əhalisi Allah sevənlərdən olub və burada əhli-beytin izləri hər yerdə müşahidə olunur. Bakı şəhərindən 30 kilometr aralıda təyyarə limanından sonra Buzovna adlı qəsəbədə Həzrət Əli (ə.s.)-nin qədəmgahı yerləşir. Bu müqəddəs yeri ziyarət etmək Məbəs günündə mənə nəsib oldu. ümid edirəm ki, bu şiə məntəqəsinin əhalisi günbə-gün İslamla daha yaxından tanış olsunlar.

*ƏLİ İSLAMİ*
*1371.11.1.*

***

*ALLAHIN ADI İLƏ*

Bizi zülmətdən çıxarıb İslam dininin bərəkət və nuru ilə nurlandıran Allahın adı ilə.

Allaha şükr edirəm ki, yetmiş beş il zülm edilmiş indi isə azadlığa çıxmış bir torpağa qədəm qoydum və bu diyarda şiələrin birinci İmamı Həzrət Əli (ə.s.)-nin müqəddəs qədəmgahını ziyarət etdim. Ümidvaram ki, Allah bu yerdə zəhmət çəkən möminləri özü mükafatlandırsın. Vəssalam.

*RƏSUL İDRAKİ - ƏRDƏBİL.*
*1371.12.1.*

***

**Bismillahir-rəhmanir rahim!**

1991.3.20-də mən Seyyid Nəsim və Əbüs-Səməd Nəsim Həzrət Əli (ə.s.) qədəmgahını ziyarət etdik. Bu qədəmgah doğrudanda Allahın böyük möcüzələrindən biridir. Allahdan arzu edirik ki,

müqəddəs İslam dini yenidən bu müqəddəs məkandan Həzrət Əli (ə.s.)-nin mübarək qədəm izləri olan bu yerdən ətrafa yayılsın. Allah bu qədəmgahın bütün işçilərinə böyük mükafatlar nəsib etsin. Çünki doğrudan da tam səmimiyyətlə bu qədəmgaha xidmət göstərib hal hazırda göstərirlər. Sonda ulu tanrıdan bütün müsəlmanlara vəhdət və birlik arzulayıram.

*SEYYİD NƏSİM*
*ƏBDÜS-SƏMƏD NƏSİM*
*ƏFQANISTANDAN BAKI TİBB*
*UNİVERSİTETİNİN TƏLƏBƏLƏRİ.*

***

**Bismillahir-rəhmanir rahim!**

1372.1.6-da Həzrət Əli (ə.s.) qədəmgahını ziyarət edib orda olan tikililəri o cümlədən kitabxananı gəzib dolandıq. Bu kitabxanada çalışan əzizlərimizin əvəzolunmaz zəhmətləri sayəsində toplanmış İslam ədəbiyyatının müxtəlifliyi və genişliyi onların bu məntəqədə İslam maarifinin yayılmasında necə də böyük ruhiyyəyə sahib olmalarından xəbər verir. Ümid edirik ki, bu əzizlərimiz İlahi hədəflərin yayılması yolunda günbə-gün daha da müvəffəq olsunlar. Allah İslam və müsəlmanlara xidmət göstərənləri müvəffəq etsin.

*RZAYİ*
*Astara sərhəd şəhərinin qubernatoru*
*(bələdiyyə sədri)*
*1372.1.6.*

***

**Bismillahir-rəhmanir rahim!**

1372 hicri şəmsi ilinin Fərvərdin ayının 13-ü cümə günü Mədəniyyət Nazirinin müavini Əli Cənnəti və İran İslam Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli Səfiri Əsğər Nəhavəndiyan ilə birgə bu müqəddəs Həzrət Əli (ə.s.) qədəmgahını ziyarət etdik. Bu ziyarətgah və məscidin baniləri və işçilərinə öz minnətdarlığımı

bildirir və onlar üçün müvəffəqiyyətlər arzulayıram. Ümid edirəm ki, Allahın köməkliyi ilə Azərbaycanda öz cəmiyyətlərinin cavanlarını İslamın uca və düzgün düşüncələri ilə yaxından tanış edələr.

*QULAM ƏLİ HƏDDAD ADİL*
*İran İslam Respublikasının təhsil nazirinin müavini.*
*1372.1.13.*

***

**Bismillahir-rəhmanir rahim!**

Allahın mənə etdiyi bu böyük hədiyyəsindən çox xoşhalam ki, məni bu müqəddəs məkanda Həzrət Əli (ə.s.) qədəmgahında xidmət etməyə nail etdi. Belə ki, Peyğəmbər (s.ə.)-i haqq canişinin izi olan bir yeri öz sənətimlə (güzgü ilə) bəzəyim. Bu yerin və yolun banilərinə uğur diləyir və onların hər biri üçün o həzrətin xeyirli dualarını arzulayıram.

*HƏMİD LƏTİFNUR*
*1372.1.24.*

***

**Bismillahir-rəhmanir rahim!**

Biz beynəlxalq televizor verlişləri studiyasının bir qrup işçiləri «Xəzər dənizi» adlı proqram üçün Azərbaycanda çəkiliş apardığımız zaman bu müqəddəs yerdə olduq. Şiələrin bu ölkədə uzun illər Kommunist partiyası tərəfindən sıxıntılara məruz qalmasına baxmayaraq bu gün onların həyat tərzini və dini azadlığını gördükdə çox sevindik. Buy er doğrudan da Allahın verdiyi haqq vədini bir daha təsdiqləyir: «O deyir: «Mən özüm haqq dini qoruyub saxlayacaq və daim nurumun söndülürməsinə mane olacağam. Baxmayaraq ki, bu müşriklərə xoş gəlməyə».

*MƏHƏMMƏD MƏŞHƏDİ RƏCƏB*
*MƏHƏMMƏD HÜSEYN TƏMCİDİ*
*RZA SAƏTÇİ, ƏLİ İKRAMİ*
*1372.2.24.*

***

**Bismillahir-rəhmanir rahim!**

Deyirlər ki, Həzrət Əli (ə.s.) Nəcəfdədir. Bakıya gəl və gör ki, necədə şərafətli evi var.

Günəş birdir lakin onun nuru hər tərəfi əhatə edir.

Bütün müvəffəqiyyətlər ondan – Allahdandır.

*ƏLİ ZAMİN*

***

*ALLAHIN ADI İLƏ*

İran İslam Respublikasının mədəniyyət nazirliyi, Xarici işlər nazirliyi və həmçinin Qum elmiyyə hövzəsinin dəftərxanasının işçiləri ilə birgə Həzrət Əli (ə.s.) qədəmgahını ziyarət etdik və buradakı müsəlmanların bu günkü vəziyyətlərindən çox sevindik. Ümid edirik ki, əziz mömin qardaşlarımızın bu Allah bəyənən əməl və zəhmətləri ulu tanrının dərgahında qəbul olsun. Allahdan hər gün bu əzizlərimizin müvəffəqiyyətlərinin daha da artmasını diləyirik.

**Əli Əkbər Hüseyn Xani**
*İran Azərbaycan İslami vəhdət cəmiyyətinin İranlı nümayəndəsi*

***

**Bismillahir-rəhmanir rahim!**

Mən Seyyid Əli Əkbər Hüseyni Məhərrəm ayında İslam hökmlərinin təbliği və din qardaşlarımı ziyarət etmək məqsədilə Azərbaycana gəlmişdim. Aşura günündə Buzovna qəsəbəsinə gəlib Həzrət Əli (ə.s.) qədəmgahına toplaşmış İmam Hüseyn (ə.s.)-nin həqiqi aşiq və dostlarının hüzurunda olub onlarla birgə əzadarlıq etdikdən sonra təxminən 45 dəqiqə əziz möminlər üçün söhbət etdim. Həzrət Əli (ə.s.) qədəmgahını ziyarət etməyə müvəffəq olduğum üçün çox sevinirəm. Ümid edirəm ki, Allahın mərhəmət və lütfü sayəsində Buzovna qəsəbəsinin sakinləri ilə birgə Nəcəf şəhərində Həzrət Əli (ə.s.)-nin pak və müqəddəs qəbrini ziyarət edək. İnşaallah. Qeyd

etməliyəm ki, Buzovna qəsəbəsinin sakinlərinin əzadarlığı çox maraqlı və diqqətə layiq idi. Allah bütün əzadarlardan qəbul etsin.

Vəssəlamu əleykum və rəhmətullah

*SEYYİD ƏLİ ƏKBƏR HÜSEYNİ*

*1372.4.10.*

***

*ALLAHIN ADI İLƏ*

İslam İnqilabının qələbəsi sayəsində və dünya müsəlmanlarının qalib gəlməsi ümidi ilə Azərbaycanın paytaxtı Bakıda həmçinin müxtləlif rayonlarında mömin qardaş və dostlarımızı ziyarət etməyə nail olduq. Bu gün Mir Səlimin oğlu Seyyid Əşrəflə birgə Siyəzəndən Bakıya qayıtdıq. Sonra onlar və əziz qardaşım Kərim Həsənovla birgə Həzrət Əli (ə.s.) qədəmgahını ziyarət etdik. Burda kitabxana, məktəb və məscidi gəzib dolandıqdan sonra bu yazını yazmağa müvəffəq olduq. Allah İslam və müsəlmanları dünyanın bütün qüdrətlərinə qalib edib, İslam alimlərinə xüsusilə İmam Xameyni həzrətlərini salamat edib müsəlmanları öz ali və İlahi hədəflərinə çatdırmaqda müvəffəq etsin. Allah bizi İmam Zaman (ə.s.) köməkçilərindən etsin.

*SEYYİD NASİR MUSƏVİ*

*1372.4.14.*

***

*ALLAHIN ADI İLƏ*

1372.5.10-da dostlarla birgə Həzrət Əli (ə.s.) qədəmgahını ziyarət etməyə müvəffəq olduq. Uzun illər Kommunist partiyasının hakimiyyət etməsinə baxmayaraq bu ziyarətgahın lazım olduğu kimi qorunub saxlanmasını və bu gündə Əhli-beyt sevərlərin bu yeri ziyarət edə bilmələrini gördükdə çox sevindik. Bu ziyarət bizim üçün yadda qalacaq ən şirin xatirə oldu. Allahdan arzu edirik ki, dini qoruyub saxlayanları eləcə də bu yerin istər keçmişdə, istərsə də indiki zamanda olan mütəvəllilərini hifz etsin.

*ƏZİZ ƏŞCƏİ, İBRAHİM PƏNAHİ*

*MUXTAR HACI AĞAZADƏ BULURİ*

*ƏLİ VƏKİLİ*

*1372.5.10.*

***

*ALLAHIN ADI İLƏ*

1372-ci il Mordad ayının 19-da Həzrət Əli (ə.s.) qədəmgahında olub bu yeri ziyarət etdik. Bu yeri ziyarət etməyə müvəffəq olduğum üçün çox sevinirəm.

*ADİLƏ DƏYANƏT, ƏLİ DƏYANƏT*

***

*ALLAHIN ADI İLƏ*

Allah deyir: «Onlar sözləri ilə Allahın nurunu (Onun dinini və kitabını) öldürmək istəyirlər, halbuki Allah kafirlərə xoş kəlməsə belə, yalnız Öz nurunu kamilləşdirmək istəyir» (Tövbə surəsi, 32-ci ayə).

Allaha şükr olsun ki, bu gün uzun illər İslam düşmənlərinin İslamı məhv etmək üçün çalışdıqlarından sonra yenə də İslamın qəlblərdə yaşayıb artması və düşmənlərin məğlub olduqlarını gördüm. Cavan və yeniyetmələrlə olduğum müddətdə, söhbətlər aparıb suallara cavab verdiyimiz zaman İslamın onların qəlblərində olduğunu müşahidə etdim. Allah hamımızı İslam və İslam inqilabının, şəhidlərin, İmam Xomeyni (r.ə.) Ayətullah Xameneinin qədrini bilənlərdən etsin və gözlərimizi İmam Zaman (ə.s.)-nın zühuri ilə daha da işıqlandırsın.

Amin! Ya rəbbəl aləmin.

*SEYYİD ƏHMƏD FATİMİ*
*1372-i il. 1414-cü il 28 Səfər*

***

*ALLAHIN ADI İLƏ*

Mən İran İslam Respublikasının Paytaxtı Tehran şəhərinin sakini Mahmud Dərəstan 1372.7.10-da Həzrət Əli (ə.s.) qədəmgahını ziyarət etdim və bu ziyarətdən çox razı qaldım. Uzun illər ötməsindən sonra Allahın qüdrəti ilə yenə də Azəri müsəlmanlarını ziyarət edə bildiyim üçün çox sevinirəm və ümid edirəm ki, onlarda İranlı müsəlmanlar kimi öz ayaqları üzərində durmağı bacarıb, müstəqil və İslami ölkələri olsun. Allahın mərhəməti ümidi ilə.

Vəssalam.

*MAHMUD DUSTAN*

***

**Bismillahir-rəhmanir rahim!**

Bu müqəddəs məkanda bizim əziz dini qardaşlarımızın sədaqətli və səmimi fəaliyyətləri insana Peyğəmbər (s.ə.)-in cahiliyyət dövründəki təkliyi və qəribliyini xatırladır. Elə bir şəxs ki, şirk, bütpərəstlik və ehtiras dolu dünyanın qəlbində Allaha təvəkkül edərək bütün zalım qüdrətlərin əleyhinə qiyam edib bir anda olsa belə öz mübarizəsindən geri çəkilmir. Ümid edirik ki, bizim İslam respublikasının ali rəhbərliyi də öz fəaliyyətlərini artırıb komunizmin qaranlığından qurtululmuş bu ölkədən öz yardımlarını əsirgəmiyələr.

İnşaallah, Allah əzizlərimizin himayəçisi olsun.

*ŞƏRAFƏTİ ŞÜCAİ*

*1372.8.1.*

***

**Bismillahir-rəhmanir rahim!**

1. İslam yolunda var gücü ilə çalışan əziz qardaşlarımdan təşəkkür edirəm və ümidvaram ki, Allah onlara böyük mükafatlar verib tutduqları yolu davam etməkdə yardımçı olsun.

*ƏNVƏRİ*

*1372.8.1.*

***

**Bismillahir-rəhmanir rahim!**

2. Həzrət Əli (ə.s.)-nin adına tikilib inşa edilmiş bu məsciddə namaz qılıb mömin qardaşlarımla görüşə bildiyim üçün çox məmnunam. Xudaya! Həzrət Əli (ə.s.)-nin yolunu davam etdirib dünyada adını ucaltmaqda bizlərə yardımçı ol.

*BƏHMƏNPUR*

*1372.8.28.*

***

ALLAHIN ADI İLƏ

1. 1372-ci il Azər ayının sonuncu günü Xosrov Xosrovi ilə birgə Həzrət Əli (ə.s.) qədəmgahını ziyarət etdik. Ümid edirik ki, bu ziyarətgah hər gün daha da canlanıb, İslam maarifinin məntəqədə yayılmasına səbəb olsun.

*HƏSƏN ŞƏFƏQ*

***

*ALLAHIN ADI İLƏ*

2. Həzrət Əli (ə.s.) qədəmgahını ziyarət etmək üçün bura gəldik və sizlərin bizə göstərdiyiniz diqqətinizə və qonaqpərvərdiyinizə görə təşəkkür edirik.

**Xosrov Xosrəvi.**

*1372.10.1.*

***

**Bismillahir-rəhmanir rahim!**

Əsəlamu əleykə ya Əmirəl-mömininin və ya İmaməl-muttəqin

Allaha şükr edirik ki, İslam inqilabının qələbə çalması və Azəri müsəlmanların azad olması ilə müsəlman qardaşlarımız və Həzrət Əli (ə.s.) şiələrini həmçinin O Həzrətin adına olan bu Qədəmgahı və məscidi ziyarət etməyə müvəffəq olduq. Ümüd edirik ki, Allah bütün müsəlman qardaşlarımıza dünya və axirət sədaəti nəsib edib, həqiqi İslam maarifini bütün dünyaya hakim etsin.

*1414-cü hicri qəməri ili Rəcəb ayı*
*Həzrət Əli (ə.s.) təvəllüdü günü.*
*MƏHƏMMƏDİ*

***

*ALLAHIN ADI İLƏ*

1373.1.28-i və 1994. 4.17-də Bakı şəhərində yerləşən Həzrət Əli (ə.s.) qədəmgahını ziyarət etməyə müvəffəq olduq. Allahdan bu böyük nemətinə görə təşəkkür edirik. Biz bu müqəddəs yeri bir neçə dəfə ziyarət etmişik. Bu ziyarətgah, uzun illər düşmən əlində olmasına baxmayaraq Allahın lütf və mərhəməti ilə qorunub saxlanıldı Allahdan arzu edirik ki, bu ziyarətgahın məsulları Hacı Arif və onun bütün yardımçılarına hər gün daha da çox İslama xidmət göstərməyi nəsib etsin. Qeyd etməliyəm ki, Azərbaycanın məşhur yazıçısı cənab professor Hacızadə və cənab Hacı Kərimağa Cənnət Nəjad və Azərbaycan respublikası kitabxanalarının direktoru Nizami cənabları ilə birgə olmaqdan çox məmnun olub fəxr edirəm.

*ƏLİ ƏKBƏR HÜSEYN XANİ*
*KƏRİM FƏTHİ QARAMƏLİKİ*

***

*ALLAHIN ADI İLƏ*

Əli bəşərdir, lakin necə bəşər.

Allah onda təcəlli etmiş və zahir oluşdur. Allaha şükürlər olsun ki, bizləri Həzrət Əli (ə.s.)-nin vilayətinə pənah aparıb sığınanlardan etmişdir. Xudaya səni Həzrət Fatimə (s.ə.)-yə onun atası, yoldaşı və övladlarına and verirəm ki, Şiə dünyasını bütün dünyada birləşdirib əllərimizi pak Əli – beytinin ətəyindən üzməyəsən. Bizi dünya və axirətdə O həzrətin hüzurunda üzü ağ et. Xudaya səni o Həzrətin oğlu İmam Hüseyn (ə.s.)-ə and verirəm ki, ömrümüzün sonunda gözlərimizi o həzrətin ziyarəti ilə işıqlandırasan. Amin ya rəbbəl-aləmin.

1994.4.16-da Məhərrəm ayının 4-də əziz qardaşım Məşhədi Hüseynin köməkliyi ilə Həzrət Əli (ə.s.)-yə mənsub olan bu möhtəşəm qədəmgahı ziyarət etmək səadətinə nail oldum. Ümid edirəm ki, Allah-təala dünya və axirət xeyrlərini o həzrətin bütün şiələrinə ehsan etsin.

*MƏHƏMMƏD ƏLİ KƏRİMİ*

***

**Bismillahir-rəhmanir rahim!**

Həzrət Əli (ə.s.) qədəmgahını qoruyan insanlara Allah kömək olsun.

Zər qədrini zərgər bilər
Gül qədrini bülbül bilər
Gövhər qədrini gövhərçi bilər
Qənbər qədrini də Əli bilər.

*HACI MİR ƏSLAF*

***

**Bismillahir-rəhmanir rahim!**

Mən Məhəmməd Təqi Məhəmmədrza Vətənçi oğlu, İmam Rza (ə.s.) hərəminin xadimi Həzrət Əli (ə.s.) qədəmgahını ziyarət edib O

həzrətə öz xəttimlə ehtiram göstərməyə müvəffəq olduğum üçün məmnunam.

*MƏHƏMMƏD TƏQİ VƏTƏNÇİ*
*1373.3.20.*

***

*ALLAHIN ADI İLƏ*

Bu müqəddəs məkanda bizim əziz din qardaşlarımızın fəaliyyətləri insana Peyğəmbər (s.ə.)-in cahiliyyət dövründəki təkliyi və qəribliyini xatırladır. Allah, din uğrunda zəhmət çəkənləri müvəffəq etsin.

Allahdan arzu edirəm ki, Azərbaycan Respublikasının məsul işçilərinin qəlbində «La ilahə illəllah» kəlməsi yer tutub bu müqəddəs İslami mərkəzin hər gün daha da genişlənməsi üçün yorulmadan səy göstərsinlər.

*NƏRİMAN MƏHƏMMƏDZADƏ*

***

*ALLAHIN ADI İLƏ*

1373.6.11-də Mən Rəhmətullah Rəzzaqi Zənur dostum İsmayıl Babayi ilə birgə Bakıda yaşayan İranlıların məktəbini gəzib dolandıq. Burda olan kitabxana, sinif otaqları İran İslam Respublikasının fəxrinə səbəb olub daim olduğu kimi o şərəfli İran xalqını üzüağ etmişdir. Məktəblərdə çalışan bacı qardaşlarımız doğrudanda imanlı və çalışqan insanlardır. Onlar bir çox çətinliklərlə üzləşmələrinə baxmayaraq yenə də çalışır və İslam dinini yorulmadan təbliğ edirlər. Dünyada zülmə məruz qalmış müsəlmanlara İslam maarifini aşılayan vətəndaşlarımızla fəxr edir və İran İslam Respublikasının rəhbərliyinə təşəkkür edirik.

*RƏZZAQİ*
*1373.6.11.*

***

**Bismillahir-rəhmanir rahim!**

1373 hicri ilinin Şəhrivər ayında əziz qardaşlarım doktor Məhəmədzadə və cənab Paydarla birgə bir ömür mövla Həzrət Əli (ə.s.)-nin xidmətində olduğumuzdan sonra O həzrətin mübarək qədəmgahını ziyarət etdik. Bu böyük səadət bizim ləyaqətimizdən